Xalqın qəzeti!

# Xalq qəzeti

№ 54 (30458) 10 mart 2024-cü il, bazar

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

xalqqazeti.az

## Azərbaycan qlobal iqlim gündəliyinin ön cəbhəsinə çevrilir



Səhifə ⇨ 8

## Teleradio məkanımız – müsbət tendensiyalar və “ictimai gilyotin”

**Media hər bir dövlət və cəmiyyət üçün son dərəcə mühüm sahədir. Müasir qloballaşma dövründə onun funksiya və vəzifələrini nə dərəcədə yerinə yetirməsi ilə dövlətlərin, o cümlədən, onların fövqündə dayandığı cəmiyyətlərin inkişafı həmahəng xassəyə malikdir. Azərbaycanda da media fəaliyyətinə ciddi önəm verilməsi bundan qaynaqlanır.**



Prezident İlham Əliyevin “Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında” 2021-ci il yanvarın 12-də imzaladığı fərmanda deyildiyi kimi, qlobal informasiya mühitinin müəyyənləşdirdiyi fəaliyyət prinsiplərinə uyğun olaraq modernləşmə, rasionallıq, qabaqcıl texnologiyaların geniş tətbiqi, aparıcı trendlərin izlənilməsi və digər mühüm şərtləri özündə birləşdirən innovativ təkamülün yaratdığı imkanlardan Azərbaycan mediasının daha çox bəhrələnməsi, onun şəffaflıq və vətəndaş məmnunluğu prinsiplərinə əsaslanan, cəmiyyətin obyektiv və peşəkar şəkildə məlumatlandırılmasına xidmət edən fəaliyyətinin stimullaşdırılması üçün bu sahədə əsaslı islahatlar aparılmasına zərurət yaranıb.

Əslində, Azərbaycanda media sahəsində islahatlar davamlı xarakter daşımaqdadır. Yəni, sahənin inkişafını sürətləndirmək əzmi yalnız haqqında söz açdığımız fərmanda yer alanlardan ibarət deyil. Bununla bağlı əvvəlki illərdə imzalanmış dövlət sənədlərini də vurğulamaq mümkündür. Ümumən isə ölkəmizdə informasiya siyasəti Konstitusiyamızda əksini tapmış həm fikir, söz və məlumat azadlığının, həm də vətəndaşların informasiya əldə etmək hüququnun ardıcıl və tam təminatına yönəlib. Nəzərə alınıb ki, müasir informasiya və telekommunikasiya texnologiyalarının təsirinin artdığı hazırkı dövrdə media cəmiyyətin sosial-siyasi və mədəni həyatının düzgün formada təşkilində mühüm vasitədir. Bu vasitə infrastruktur baxımından yenilənməli, onun peşəkarlığı güclənməlidir. Güclənməlidir ki, medianın informasiya təhlükəsizliyimizin təminatında mühüm yeri və rolu olsun. İnformasiya təhlükəsizliyinə gəlincə, o, heç də yalnız xaricdə ölkəmiz əleyhinə olan informasiya təhdidlərinin qarşısına müdafiə səpəri çəkmək məqsədi güdmür. Başqa təhdidlər də var və bu qeydlərimizdə söz açacağımız mətləblər həm də həmin təhdidlərin aradan qaldırılması zərurətini ortaya qoyur.

(ardı 4-cü səhifədə)

## İslamofobiya sivilizasiyalararası harmoniyaya qarşı

### Son bir ildə dünyada baş vermiş anti-İslam təzahürlərinin əksəriyyəti Qərbdən – birbaşa Fransadan qaynaqlanır



**Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi, G20 Dinlərarası Dialoq Forumu və Bakı Təşəbbüs Qrupunun birgə təşkilatçılığı ilə “Müxtəlifliyin qorunması: 2024-cü ildə islamofobiya ilə mübarizə” mövzusunda beynəlxalq elmi konfrans keçirilir. Bu mötəbər tədbirdə dünyanın 30 ölkəsindən alimlər, nüfuzlu beynəlxalq təşkilatların ekspertləri, din xadimləri, o cümlədən qeyri-hökumət təşkilatlarının nümayəndələrini əhatə edən 130-dan çox xarici qonaq iştirak edir.**

İslamofobiya ilə mübarizəyə həsr olunan elmi konfransın Bakıda keçirilməsi Azərbaycanın bu məsələyə ciddi yanaşması ilə bərabər, problemin qlobal səviyyəyə qaldırılmasında qərarlı olmasının göstəricisidir, – desək, yanılmarıq. Təəssüflər olsun ki, Avropa, ABŞ islamofobiya probleminin ciddi qəbul edilməsinə meyilli deyillər. Azərbaycanın məqsədi bütün müsəlman dünyasını narahat edən islamofobiya kimi zərərli təmayülün əleyhinə etiraz səsini qaldırmaqla dünyanın diqqətini bu problemə yönəltməkdir.

(ardı 3-cü səhifədə)

## Ermənistan anklavları geri qaytarmalıdır

**Dövlət sərhədinin delimitasiyası üzrə Azərbaycanda və Ermənistanda yaradılmış komissiyaların artıq 7 görüşü keçirilib.**



Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayevin xidmətindən daxil olan məlumata görə, hazırkı mərhələdə komissiyaların fəaliyyəti çərçivəsində delimitasiya işlərinin aparılması üçün zəruri normativ-hüquqi bazanın yaradılması üzrə işlər aparılır.

Son vaxtlar Ermənistan mediasında, guya, Ermənistanın 31 kəndinə məxsus torpaqların Azərbaycanın “işğalı altında” olması barədə hökumət mənbələrindən qaynaqlanan yanlış informasiya fəal şəkildə yayılır. Həmçinin qeyd olunur ki, bunu etiraf etməyən Azərbaycan Respublikası özünün işğal altındakı 4 kəndinin azad olunmasını tələb edir.

Azərbaycan tərəfi bununla bağlı qeyd etməyi vacib bilir ki, dövlət sərhədinin delimitasiyasının aparılmasına qədər Ermənistanın 31 kəndinə məxsus torpaqların “işğal edildiyini” bəyan etmək tamamilə əsassızdır.

Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş 4 eksklav olmayan kəndinə (Bağanis Ayrım, Aşağı Əskipara, Xeyrimli və Qızılhacılı) gəldikdə, onlar mübahisəsiz Azərbaycana məxsusdur və dərhal azad edilməlidir.

Delimitasiya prosesi çərçivəsində Azərbaycanın Ermənistanın işğalı altında olan 4 eksklav kəndinin (Yuxarı Əskipara, Sofulu, Barxudarlı və Kərki) azad edilməsi məsələsi də həll olunacaq.

**XQ**

## Fransa humanizmlə döyüşür





Səhifə ⇨ 10

## İstanbul – Türk dünyasının döyünən qəlbi



Səhifə ⇨ 9

## Dünya yeni siyasi düzənə möhtacdır



Səhifə ⇨ 11



## Bu il mübarək Ramazan ayını böyük qürur hissi ilə qarşılayırıq

Səhifə ⇨ 12

## Ərzaq təhlükəsizliyinin etibarlı su təminatı



Səhifə ⇨ 7

# “Müxtəlifliyin qorunması: 2024-cü ildə İslamofobiya ilə mübarizə” mövzusunda beynəlxalq konfransın iştirakçılarına

**Hörmətli konfrans iştirakçıları!**

Sizi “Müxtəlifliyin qorunması: 2024-cü ildə İslamofobiya ilə mübarizə” mövzusunda Bakıda keçirilən beynəlxalq konfransda salamlayıram. Bugünkü tədbirin İslam aləmi üçün mübarək Ramazan ayının başlaması və “İslamofobiya ilə Beynəlxalq Mübarizə Günü” ərəfəsində keçirilməsi rəmzi məna kəsb edir.

Təəssüflər olsun ki, dünyada islamofobiya meyilləri sürətlə artmaqdadır. İslamın potensial təhlükə mənbəyi kimi aşılandığının, müsəlmanlara qarşı şübhə, ayrı-seçkilik və açıq nifrətin gündən-günə daha geniş yayıldığının şahidi oluruq. İslamofobiya ilə Mübarizə Gününə dair BMT-nin Qətnaməsində də qeyd edildiyi kimi dini inanclarla bağlı ayrı-seçkilik, dözümsüzlük və şiddət hallarının çoxalması dərin narahatlıq doğurur.

Acınacaqlı haldır ki, hazırda islamofobiya özünü demokratik hesab edən bir sıra Qərb ölkələrinin dövlət siyasətinin tərkib hissəsini təşkil edir. Son bir ildə dünyada baş vermiş bütün anti-İslam təzahürlərinin 80 faizi bu ölkələrin payına düşür. İslamofobiyanın ən yüksək səviyyəyə çatdığı və rəsmi ideologiya kimi tətbiq olunduğu bəzi Avropa ölkələrində müqəddəs kitabımız “Qurani-Kərim”in yandırılması, Məhəmməd Peyğəmbərin (s.ə.s) karikaturalarının nəşr edilməsi və sair təhqiramiz hərəkətlər söz azadlığı kimi qələmə verilir. Fransa özünün ənənəvi neokolonializm siyasəti ilə bərabər müsəlmanlara qarşı açıq-aşkar təzyiq və diskriminasiya siyasəti yürüdür, müxtəlif islamofob kampaniyalar təşkil edir. “Dünyəvilik” adı altında sırf müsəlmanların hüquq və azadlıqlarının məhdudlaşdırılmasına yönəlmiş qanunvericilik aktları və siyasi qərarlar qəbul edir. Bu ölkədə məscidlər, müsəlman mədəniyyət mərkəzləri və qəbiristanlıqlar müxtəlif formalarda təhqirlərə məruz qalır, müsəlman vətəndaşlar sıxışdırılır.

Müsəlmanların hisslərini təhqir edən bu cür təzahürlərlə mübarizə aparmaq, cinayətkarları məsuliyyətə cəlb etmək əvəzinə, həmin ölkələrin hökumətləri islamofob əhvali-ruhiyyəni daha da qızışdırır, müsəlmanlara qarşı təqibləri təlqin edir və bu kimi mövzuları davamlı olaraq gündəlikdə saxlamağa çalışırlar. Təəssüflər olsun ki, özlərini demokratik adlandıran bəzi Qərb təsisatları da anti-İslam fəaliyyətini həyata keçirirlər. Bu gün Avropa Parlamenti və Avropa Şurasının Parlament Assambleyası islamofobiyanı təşviq edən və bu ideologiya əsasında siyasət yürüdən platformalara çevrilmişdir.

Hazırkı mənfi tendensiya bəzi qlobal media qurumlarının fəaliyyətində də özünü büruzə verir. Bu qurumlar tərəfindən İslam dininə, İslam mədəniyyətinə qarşı məqsədyönlü şəkildə fəaliyyət aparılır, İslamın gerçək mahiyyətini təhrif etməklə onu terrorla eyniləşdirmək, ləkələmək və qaralamaq cəhdləri həyata keçirilir.

Biz vüsət almaqda olan və dinimizi gözdən salmağa yönəlmiş bu meyilləri qəti şəkildə pisləyirik. İslam sülh, mərhəmət, dözümlülük və ədalət dinidir. Dünya xəritəsinə baxdıqda, terrordan ən çox əziyyət çəkənlərin məhz müsəlmanlar olduğunu görə bilərik.

Azərbaycan da islamofobiyadan əziyyət çəkən ölkədir. Ermənistan tərəfindən torpaqlarımızın 30 illik işğalının ən ağır fəsadlarından biri də bəşəri əhəmiyyətə malik mədəni irsimizin, o cümlədən İslam dininə aid abidələrin qəsdən dağıdılması və məhv olunmasıdır. İlkin araşdırmalara görə işğal dövründə 65 məscidin yerlə-yeksan edildiyinə dair məlumatlar olsa da, təəssüf ki, bu rəqəmlər getdikcə daha da artır və İslam irsinə qarşı erməni vandalizminin çoxsaylı yeni nümunələri ortaya çıxır. Bundan əlavə, bu ərazilərdə yüzlərlə müsəlman qəbiristanlığının məhv edildiyi, müsəlman dini ibadət yerlərinin, məscid və türbələrimizin təyinatının dəyişdirilərək saxtalaşdırıldığı, bir çox hallarda isə tövlə kimi istifadə olunaraq orada dinimizdə haram sayılan heyvanların saxlanıldığı faktları aşkar edilir. Bu cür həqarət aktları yalnız bizim deyil, bütün dünya müsəlmanlarının hisslərini təhqir edir.

Eyni zamanda, Ermənistan ərazisində yerləşən Azərbaycanın İslam tarixi-mədəni irsinin məhv edilməsi böyük məyusluq doğurur. Azərbaycan UNESCO-ya müraciət edərək Ermənistanda illər ərzində dağıdılmış mədəni və dini abidələrimizin vəziyyətinin qiymətləndirilməsinin aparılması məqsədilə bu ölkəyə texniki missiyanın göndərilməsinə çağırış etmişdir. Əfsuslar olsun ki, UNESCO indiyə kimi bu çağırışa cavab verməmişdir.

Biz Azərbaycanın çoxmillətli və çoxkonfessiyalı ölkə olması ilə fəxr edirik. Burada bütün dinlərin və etnik qrupların nümayəndələri əmin-amanlıq şəraitində bir ailə kimi yaşayırlar. Ölkəmizdə milli sərvət kimi qorunan dini bərabərlik və inklüzivlik Azərbaycan xalqının həyat tərzidir, onun güc mənbəyidir. Bundan irəli gələrək, təbiidir ki, multikultural dəyərlərə hörmət bizim dövlət siyasətimizin prioritet istiqamətlərindən birini təşkil edir.

Ölkəmiz dünya miqyasında da sülh, dinc birgəyaşayış, humanizm dəyərlərinin təbliği və təşviqi üçün əlindən gələni əsirgəmir. Azərbaycan müxtəlif mədəniyyətlər arasında ahəngdar münasibətləri dəstəkləyir, qarşılıqlı anlaşmaya nail olunması naminə sivilizasiyalar və mədəniyyətlərarası dialoq zəminində davamlı olaraq bir çox qlobal təşəbbüslər irəli sürür. May ayında Bakıda keçiriləcək və artıq yaxşı ənənəyə çevrilmiş Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu bunun bariz nümunələrindəndir.

XXI əsrdə islamofobiya, ksenofobiya və irqçiliyə yer olmamalıdır. Terrorizm və ekstremizmi hər hansı bir din, millət, sivilizasiya və ya etnik qrupla əlaqələndirmək yanlış yanaşmadır. Dindən siyasi məqsədlər üçün istifadə yalnız cəmiyyətlər daxilində nifaq və qarşıdurma yaratmağa xidmət edir. Bu təzahürlər, eyni zamanda, insanlığı humanizm ideallarından və ümumbəşəri dəyərlərdən məhrum edir, nəticədə sivilizasiyalararası münaqişələrə gətirib çıxarır.

Bugünkü tədbir Azərbaycanın müasir dövrün çağırışlarından olan islamofobiya ilə mübarizə əzmini nümayiş etdirir. Əminəm ki, konfrans islamofobiyaya qarşı birgə səylərlə mübarizəyə, dinlərin və inancların müxtəlifliyinə hörmətə əsaslanan tolerantlıq və sülh mədəniyyətinin təşviqi ilə bağlı yeni təşəbbüslərin irəli sürülməsinə töhfə verəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, konfransın işinə uğurlar diləyirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının***
***Prezidenti***

**Bakı şəhəri, 7 mart 2024-cü il**

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Hörmətli cənab Prezident!**

Fevralın 7-də keçirilən seçkilərdə yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə İspaniya Hökumətinin adından Sizə təbrikimi çatdırıram.

Yeni mandatınız dövründə Sizə bol uğurlar arzu edir və son illərdə irəliləyişlərin nəzərə çarpdığı iqtisadi sahə də daxil olmaqla İspaniya Hökumətinin ölkələrimiz arasında əlaqələrin inkişafını davam etdirmək istəyini Sizə bildirir, qarşılıqlı faydalı əməkdaşlığın böyük potensialının mövcud olduğunu qeyd edirəm.

Həmçinin bu günədək sülh yolunda göstərilən səyləri davam etdirmək üçün lazım olanı arzulayır, Qafqaz regionu üçün tezliklə ədalətli, davamlı və beynəlxalq hüquq tərəfindən hörmətlə qarşılanan sülhün olması istəyimi Sizə çatdırıram. Bilirsiniz ki, bunun üçün İspaniyanın və Avropa İttifaqının dəstəyi Sizinlədir.

Cənab Prezident, fürsətdən istifadə edərək Sizə dərin ehtiramımı çatdırıram.

**Hörmətlə,**

***Pedro SANÇEZ,***
***İspaniya Hökumətinin sədri***

# Bakıda islamofobiya ilə mübarizədə qlobal dialoqa çağırış





**Martın 8–9-da Bakıda “Müxtəlifliyin qorunması: 2024-cü ildə İslamofobiya ilə mübarizə" mövzusunda ikigünlük beynəlxalq konfrans keçirilib. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin, G20 Dinlərarası Dialoq Forumunun və Bakı Təşəbbüs Qrupunun birgə təşkil etdiyi konfrans 15 Mart İslamofobiya ilə Beynəlxalq Mübarizə Gününə həsr olunub.**

Beynəlxalq məclisin açılış mərasimində Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin beynəlxalq konfransın iştirakçılarına müraciətini oxuyub ***(Müraciət qəzetin bugünkü nömrəsində dərc olunub).***

Tədbirdə çıxış edən Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov bildirib ki, Bakıda artıq ikinci dəfədir keçirilən konfransda beynəlxalq səviyyədə islamofobiyaya qarşı mübarizə kontekstində nələr edə biləcəyimiz müzakirə ediləcək.

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) İdarə Heyətinin sədri Fərid Şəfiyev qeyd edib ki, bugünkü dünyada xristianlar da ayrı-seçkiliyin qurbanı olur. Ona görə də bütün dünya bu ayrı-seçkiliyə qarşı mübarizə aparmalıdır. Fransada Xurşidbanu Natəvanın abidəsinə qarşı törədilən vandallıq aktından da danışan F.Şəfiyev bildirib: “Azərbaycan həmin abidəni Fransadakı səfirliyinə köçürdü. Bu vandallıq aktı Fransanın ölkəmizə qarşı siyasəti ilə bağlıdır”.

Konfransın açılış mərasimində səsləndirilən BMT Baş katibinin müavini, BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi Migel Anxel Moratinosun tədbir iştirakçılarına müraciətində bildirilib ki, dünyada bir çox müsəlmanın islamofobiyanın qurbanı olmağı böyük təəssüf doğurur. İslamofobiyanın dünyanın müxtəlif ölkələrində yayılması müsəlmanlara qarşı nifrət deyil, fobiyadır.

İslam Əməkdaşlıq Təşkilatı (İƏT) Baş katibinin siyasi məsələlər üzrə köməkçisi Yusif Əl-Dubei konfransda çıxış edərək bildirib ki, Birləşmiş Millətlər Təşkilatının 15 mart tarixini İslamofobiya ilə Beynəlxalq Mübarizə Günü elan etməsi islamofobiyaya qarşı mübarizədə mühüm addımdır. Bu mübarizədə bizim üzərimizə böyük məsuliyyət düşür.

Konfransda çıxış edən G20 Dinlərarası Dialoq Forumunun prezidenti Kol Durham deyib ki, islamofobiya ilə var gücümüzlə mübarizə aparıb bu problemi kökündən həll etməliyik. O qeyd edib ki, dünyada İslam dininə qarşı qərəzli münasibətə, mənfi tendensiyalara adekvat cavablar verilməlidir. Ona görə də islamofobiya ilə mübarizənin əhatə dairəsi genişləndirilməlidir.

Açılış mərasimindən sonra beynəlxalq konfrans işini “Tolerantlığı, sülhü, insan hüquqlarına və dini müxtəlifliyə hörməti təşviq etmək üçün qlobal dialoqa çağırış” mövzusunda plenar iclasla davam etdirib. ADA Universitetinin prorektoru Fariz İsmayılzadənin moderatorluq etdiyi müzakirələrdə Qafqaz Müsəlmanları İdarəsinin sədri, şeyxülislam Allahşükür Paşazadə, ICESCO-nun Sivilizasiyalararası Dialoq Mərkəzinin direktoru Xalid Fətəlrahman Ömər Məhəmməd, İslam Əməkdaşlıq Təşkilatının İslamofobiyanın Müşahidə Mərkəzinin rəhbəri Dodik Ariyanto, Cənubi Afrika Respublikasının ABŞ-dakı sabiq səfiri, Hamı üçün Dünya Fondunun təsisçisi Ebrahim Rasul, Dünya Müsəlman İcmaları Şurasının baş katibi Məhəmməd Beçəri, Böyük Britaniya Müsəlmanları Parlament Qrupunun sədr müavini Əfzal Xan islamofobiyanın müxtəlif təzahürlərini kəskin tənqid ediblər.

Beynəlxalq konfransın “Multikulturalizm, İslam və sivilizasiyaların toqquşması nəzəriyyəsi: İslamofobiyanın yenidən düşünülməsi”, “İctimai rəyin formalaşdırılması: rəqəmsal islamofobiya”, “Ali təhsil kontekstində islamofobiya ilə mübarizə”, “Qərbi Avropada müsəlmanlara münasibətdə oxşarlıqlar və fərqliliklər, müsəlman ümmətində əsas insan hüquqları”, “Qərbi Avropada müsəlmanlara münasibətdə oxşarlıqlar və fərqliliklər, müsəlman ümmətində əsas insan hüquqları”, “Qeyri-müsəlman ölkələrində İslam mədəni və dini irsinin qəsdən dağıdılması və təhqir edilməsi aktları”, “Fransada müsəlmanlara qarşı siyasətlər: İslamofobiyanın normallaşdırılması”, “Cinslərə görə islamofobiyanın əsası: müsəlman qadınların təqib edilməsi və müqaviməti, cins və cəmiyyət” mövzusunda panel iclaslarında da Qərb islamofobiyası ittiham edilib, bu bəşəri bəlaya qarşı ümumi mübarizəyə çağırış səslənib.

Sonda beynəlxalq konfransın Birgə Kommünikesi qəbul olunub.

**XQ**

# Birinci vitse-prezidentin Beynəlxalq Qadınlar Günü münasibətilə paylaşımı

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə instaqram səhifəsində paylaşım edib.**




Birinci vitse-prezidentin paylaşımında qeyd olunub: “Hər bir qadına möhkəm cansağlığı, gözəl əhvali-ruhiyyə, tükənməz sevgi, sevinc və ailə səadəti arzulayıram”.

# Şahbaz Şərif Prezident İlham Əliyevə təşəkkür edib

**Pakistan İslam Respublikasının Baş naziri Şahbaz Şərif Baş nazir seçilməsi münasibətilə onu təbrik edən Prezident İlham Əliyevə təşəkkürünü bildirib.**



Şahbaz Şərif özünün X sosial şəbəkə hesabında bununla bağlı yazıb: “Pakistanın Baş naziri seçilməyim münasibətilə səmimi təbriklərinə görə Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkür edirəm. Xalqlarımız gündən-günə inkişaf edən unikal dostluq münasibətlərinə malikdir”.

**XQ**

# 30 ölkənin QHT-ləri COP29-a dəstək verib

AFRIHEALTH
AFRIHEALTH OPTONET ASSOCIATION (AHOA)

**Sağlamlıq, ətraf mühit və iqlim dəyişmələri məsələləri üzrə ixtisaslaşmış, ümumilikdə 106 ölkədən 2300 QHT-ni özündə birləşdirən Afrika Səhiyyə Təşkilatları Assosiasiyası (The Afrihealth Optonet Association (AHOA) Azərbaycana COP29-la bağlı dəstək bəyanatı verib.**

Bəyanatı AHOA-nın rəhbəri Uzodinma Adiriece imzalayıb. AHOA-ya üzv və tərəfdaş olan 30 ölkədən 107 QHT də müraciətə qoşulub.

Bəyanatda AHOA Azərbaycanın iqlim dəyişmələri ilə bağlı qlobal fəaliyyətdə nümayiş etdirdiyi həqiqi fədakarlığı və liderliyi alqışlayır, bütün dünyanı iqlim dəyişikliyinə qarşı mübarizə aparmaq üçün COP29-un yaratdığı tarixi fürsətdən istifadə etməyə çağırır.

Bəyanatda deyilir: “Azərbaycanda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) yaxınlaşdığı dövrdə Afrika Səhiyyə Təşkilatları Assosiasiyasının (The Afrihealth Optonet Association (AHOA) rəhbərliyi, üzvləri və tərəfdaşları olaraq, qlobal ictimaiyyəti dayanıqlı və sağlam gələcəyə doğru istiqamətləndirmək kimi mühüm vəzifəni öhdəsinə götürən COP29 prezidentinə və ev sahibi ölkə olan Azərbaycana ürəkdən dəstəyimizi ifadə edirik...

Biz iqlimlə bağlı fəaliyyətin sürətləndirilməsi və planetimiz üçün daha parlaq sabahın qurulması səylərində COP29 Prezidenti, Azərbaycan və dünya üzrə vətəndaş cəmiyyəti təşkilatları ilə həmrəyik. Gəlin, birlikdə iqlim dəyişikliyinə qarşı mübarizə aparaq, həm insanların, həm də təbiətin çiçəkləndiyi bir dünya yaratmaq üçün bu tarixi fürsətdən istifadə edək”.

**XQ**

# “İgidliyə görə” medalı mərhum polis serjantının ailəsinə təqdim olunub

**Ötən il xidmətdən kənar vaxt ailəsi ilə Babək rayonu ərazisində Uzunoba gölündə batmaq təhlükəsi ilə üzləşən 13 yaşlı uşağı xilas edib, daha sonra uşağın anasını kömək etmək istəyərkən onunla bərabər həlak olmuş polis serjantı Quliyev Vüsal Əbülfəz oğlu Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə “İgidliyə görə” medalı ilə təltif edilmişdi. Medal və onun vəsiqəsi cəsur polis serjantının ailəsinə təqdim olunub.**



Daxili İşlər Nazirliyindən bildirilib ki, Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri general-mayor Süleyman Neymətov medalı mərhum Vüsal Quliyevinn yeniyetmə oğluna təqdim edib. mərasimdə qeyd edilib ki, fədakar polis əməkdaşının xatirəsi daim uca tutulacaq. Vüsal Quliyevin atası göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlığını bildirib.

**XQ**

# İslamofobiya sivilizasiyalararası harmoniyaya qarşı

(əvvəli 1-ci səhifədə)

Tədbirin açılışında Azərbaycan Prezidenti İlham Əliyevin “Müxtəlifliyin qorunması: 2024-cü ildə islamofobiya ilə mübarizə” beynəlxalq elmi konfransın iştirakçılarına müraciəti səsləndirilib.

Müraciətdə deyilir: “Acınacaqlı haldır ki, hazırda islamofobiya özünü demokratik hesab edən bir sıra Qərb ölkələrinin dövlət siyasətinin tərkib hissəsini təşkil edir. Son bir ildə dünyada baş vermiş bütün anti-İslam təzahürlərinin 80 faizi bu ölkələrin payına düşür. İslamofobiyanın ən yüksək səviyyəyə çatdığı və rəsmi ideologiya kimi tətbiq olunduğu bəzi Avropa ölkələrində müqəddəs kitabımız “Qurani-Kərim”in yandırılması, Məhəmməd Peyğəmbərin (s.ə.s.) karikaturalarının nəşr edilməsi və sair təhqiramiz hərəkətlər söz azadlığı kimi qələmə verilir. Fransa özünün ənənəvi neokolonializm siyasəti ilə bərabər, müsəlmanlara qarşı açıq-aşkar təzyiq və diskriminasiya siyasəti yürüdür, müxtəlif islamofob kampaniyalar təşkil edir. “Dünyəvilik” adı altında sırf müsəlmanların hüquq və azadlıqlarının məhdudlaşdırılmasına yönəlmiş qanunvericilik aktları və siyasi qərarlar qəbul edir. Bu ölkədə məscidlər, müsəlman mədəniyyət mərkəzləri və qəbiristanlıqlar müxtəlif formalarda təhqirlərə məruz qalır, müsəlman vətəndaşlar sıxışdırılır”.

Dövlət başçısı bildirib ki, bəzi ölkələrin hökumətləri müsəlmanların hisslərini təhqir edən təzahürlərlə mübarizə aparmaq, cinayətkarları məsuliyyətə cəlb etmək əvəzinə, islamofob əhvali-ruhiyyəni daha da qızışdırır, müsəlmanlara qarşı təqibləri təlqin edir və bu kimi mövzuları davamlı olaraq gündəlikdə saxlamağa çalışırlar.

“Təəssüflər olsun ki, özlərini demokratik adlandıran bəzi Qərb təsisatları da anti-İslam fəaliyyətini həyata keçirirlər. Bu gün Avropa Parlamenti və Avropa Şurasının Parlament Assambleyası islamofobiyanı təşviq edən və bu ideologiya əsasında siyasət yürüdən platformalara çevrilmişdir”, – deyə müraciətdə qeyd olunur.

Açılış mərasimindən sonra beynəlxalq konfrans işini plenar iclasla davam etdirib. “Tolerantlığı, sülhü və insan hüquqlarına və dini müxtəlifliyə hörməti təşviq etmək üçün qlobal dialoqa çağırış” adlı ilk panel iclasda “Multikulturalizm, İslam və sivilizasiyaların toqquşması nəzəriyyəsi: İslamofobiyanın yenidən nəzərdən keçirilməsi”, “İctimai rəyin formalaşdırılması: rəqəmsal islamofobiya” və “Ali təhsil kontekstində islamofobiya ilə mübarizə” mövzusunda aralıq sessiyalar təşkil olunub.

* * *

Konfrans çərçivəsində baş tutan “Fransada anti-müsəlman siyasəti: İslamofobiyanın normallaşdırılması” adlı panel maraqlı müzakirə və çıxışlarla yadda qalıb. Paris İslam elmləri fakültəsinin rəhbəri Nurredine Belhout, Uels Triniti-Sent-Devid Universitetinin əməkdaşı Mohammed Sadek Hamid, Böyük Britaniya parlamentinin üzvü Afzal Xan, Pakistan Siyasət Araşdırmaları və Təbliğat Mərkəzinin icraçı direktoru Əhsən Həmid, Fransanın “Musulmans en France” xəbər portalının təsisçisi və baş redaktoru Jan Mişel Bryun, Avropa İnkişaf və Tədqiqatlar Akademiyasının (EDARA) baş direktoru Brahim Laytuss (Belçika) və başqaları çıxışlarında Azərbaycanın islamofobiyadan zərər çəkdiyini, ərazi bütövlüyü və suverenliyinin pozulduğunu və bunun özünün böyük ədalətsizlik olduğunu qeyd ediblər.

Digər çıxışçılar Azərbaycanın dünyəvi dövlət olmasına baxmayaq məhz müsəlman ölkəsi olduğundan ədalətsiz münasibətlə qarşılaşdığı fikrini xüsusi olaraq vurğulayıblar. Konfrans iştiraçıları, həmçinin ümumi məqsədin baş verənlərin qarşısını almaqdan ibarət olduğunu bildirblər.

Müsəlmanlara qarşı açıq-aşkar təzyiq və diskriminasiya siyasəti yürüdən ölkələrdən biri və birincisi Fransadır. Paris özünün ənənəvi neokolonializm siyasəti ilə yanaşı, Aİ-yə üzv dövlətlərdə islamofob kampaniyalar təşkil etməklə məşğuldur. “Demokratiyadan”, “insan haqlarından”, “dünyəvilik”dən dəm vuran bu ölkənin parlamenti yalnız müsəlmanların hüquq və azadlıqlarının məhdudlaşdırılmasına yönəlmiş qanunvericilik aktları, siyasi qərarlar qəbul edir. Məhz Fransada məscidlər, müsəlman mədəniyyət mərkəzləri və məzarlıqlar ən çirkin formada təhqirlərə, vandalizmə məruz qalır.

Yeri gəlmişkən, bu gün dünyanın bir sıra ölkələrində İslam potensial təhlükə mənbəyi kimi aşılanır, müsəlmanlara qarşı ayrı-seçkilik və açıq nifrət əhvali–ruhiyyəsi daha geniş yayılır. Bütün bu zərərli təmayülləri nəzərə alan BMT Baş Assambleyası xüsusi qətnamə ilə İslamofobiya ilə Beynəlxalq Mübarizə Günü təsis edib.

***ARAYIŞ: Martın 15-nin İslamofobiya ilə Beynəlxalq Mübarizə Günü kimi qeyd olunması təşəbbüsü 2020-ci il noyabrın 27-28-də İslam Əməkdaşlıq Təşkilatının Xarici İşlər Nazirləri Şurasının Nigerin Niamey şəhərində keçirilən toplantısında irəli sürülüb. BMT Baş Assambleyası isə 2022-ci ildə martın 15-ni İslamofobiya ilə Beynəlxalq Mübarizə Günü kimi qəbul edib.***

* * *

Beynəlxalq elmi konfransın “Genderləşdirilmiş İslamofobiyanın Matrisi: Müsəlman Qadınlarının Repressiyası və Müqaviməti, Gender və Cəmiyyət” adlı paneldə çıxışında Azərbaycanın İnsan hüquqları üzrə müvəkkilinin (ombudsman) Aparat rəhbəri Aydın Səfixanlı bildirib ki, bu gün islamofobiya müxtəlif aspektlərdə özünü göstərir və insan hüquq və azadlıqlarının kobud şəkildə pozulması ilə nəticələnir. “Müsəlman qadınların seçim azadlığını müdafiə edərkən beynəlxalq təşkilatlar onların fundamental hüquqlarının qorunmasına kömək edəcək həll yolları tapmalıdır”,– deyən aparat rəhbəri müsəlman qadınların hüquqlarının inkarının Avropada, xüsusən də Fransada artan islamofobiya kontekstində baş verdiyinə diqqəti çəkib: “İslamofobiya Fransa dövlətinin siyasətidir. Bu ölkədə müsəlman qadınların fundamental hüquqları pozulur, həm din, həm də cinsi zəmində ayrı-seçkilik edilir. Bəzi Avropa ölkələri istənilən formada dini dözümsüzlük və gender bərabərsizliyinə qarşı qətiyyətli mövqe tutmalıdırlar”.

Oxucularımıza xatırladaq ki, hicabı qadağan edən Fransa müsəlman qadınların təhsil və iş kimi əsas hüquqlara çıxışına da mane olur. Bəli, insanın təməl hüquqlarının kobud şəkildə pozulmasına bu ölkənin hakimiyyəti özü rəvac verir. Hesab edirik ki, Yelisey sarayı bu gün Bakıdan ünvanına edilən çağırışlara biganə qalmayacaq, beynəlxalq təşkilatlar da özlərinin prinsipial mövqelərini ortaya qoyacaqlar. Əks–təqdirdə, dünya daha dərin qütbləşmə, ictimai harmoniyanın pozulması və sivilizasiyalararası qarşıdurma ilə üz-üzə qala bilər.

“Müxtəlifliyin qorunması: 2024-cü ildə islamofobiya ilə mübarizə" mövzusunda beynəlxalq elmi konfrans öz işini başa çatdırıb. Konfransın sonunda birgə kommunike qəbul olunub. Sənədi Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) İdarə Heyətinin sədri Fərid Şəfiyev oxuyub.

Sonda onu da qeyd edək ki, bu gün beynəlxalq konfrans iştirakçıları 2024-cü ilin İslam dünyasının mədəniyyət paytaxtı elan edilən Şuşaya səfər edəcəklər.

***İmran BƏDİRXANLI***
***XQ***




## Ekspert rəyi



**Gündüz İSMAYILOV,**
**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini**

**– Hazırda dünyada islamofobiya ilə bağlı vəziyyət daha da pisləşib. Avropanın bəzi ölkələrində islamofobiya aşağıdan yuxarı deyil, yuxarıdan aşağı yayılmaqdadır. Buna misal olaraq deyə bilərik ki, 2019-cu ildə Fransanın dövlət müəssisələrində müsəlmanlara qarşı ayrı-seçkilik halları özəl sektorda çalışanlarla müqayisədə daha çox olub. Fransa, eləcə də Avropanın digər ölkələri ilə bağlı ortada konkret statistik məlumatlar var. İbadət evlərinin tikilməsinə gəlincə, Fransada 2500 məscid var. Bu ölkənin əhalisinin 10 faizi müsəlmandır. Amma həmin məscidlər cəmi bir otaqdan ibarətdir. Müsəlmanlara kənardan dəstəyi isə Makron hakimiyyəti Fransanı islamlaşdırmaq cəhdləri kimi qəbul edir.**

**Bir maraqlı faktı deyim: Fransanın özəl təhsil müəssisələrində dini təhsil almaq üçün müraciət edən gənclərin 60 faizdən çoxu imtina cavabı alır. Bu səbəbdən Avropanın bəzi ölkələrində müsəlmanlar işə, təhsil ocağına CV-lərini təqdim etdikdə dini inanclarını göstərməməyə meyilli olurlar. Yeri gəlmişkən, Avropada, xüsusilə də Fransada müsəlmanlar arasında işsizlik faizi həddindən artıq yuxarıdır. Bu ölkədə müsəlmanlara qarşı islamofobiya xarakterli çıxışların 80 faizi məhz qadınlara qarşı yönəlir. Araşdırmalar göstərir ki, Fransada dini təmayüllü təhsil yalnız özəl müəssisələrdə tədris olunur. Başqa konfessiyalardan fərqli olaraq, müsəlman dini icmaları dövlətdən güzəşt əldə etməkdə çətinlik çəkirlər.**

## Ekspert rəyi



**Rasim MUSABƏYOV,**
**Milli Məclisin deputatı, politoloq**

**– Avropanın Azərbaycana ikili münasibəti daim özünü büruzə verir. Ermənistan otuz il Azərbaycan torpağını işğal altında saxlayanda Fransa parlamenti, Rusiya Dövlət Duması, ABŞ hökuməti bununla bağlı mənfi mövqelərini bildirdilərmi? Xeyr! Bəs Avropanın digər ölkələrinin parlament və hökumətləri necə, bir addım atdılarmı? Xeyr! Hətta bizimlə dost ölkə sayılan Ukrayna rəsmiləri səslərini çıxardımı? Bəli, ümumi şəkildə ərazi bütövlüyünü dəstəkləyirdilər, amma konkret olaraq, Ermənistanı qınamağa cürəti çatmırdı. Halbuki, işğal da, etnik təmizləmə də göz qabağında idi.**

**Biz onlar tərəfindən tamamilə fərqli münasibəti İkinci Qarabağ müharibəsindən sonra gördük. Fransa Senati separatçı rejimi tanıması ilə bağlı qərar qəbul edir. Bu ölkənin hökuməti isə Azərbaycanı etnik təmizləmədə ittiham etməyə girişir. Hansı haqla? Altı yüz min insan Qarabağdan, iki yüz əlli min soydaşımız Ermənistandan qovulanda niyə erməniləri qınamırdılar?**

**Qarabağımızda Azərbaycan məscidləri, tarixi abidələri dağıdılır, Xan qızı Natəvanın yaşadığı ev, onun büstü, məzarı vəhşicəsinə təhqir olunur, həmin ölkələrin isə cınqırları da çıxmır. Amma Fransa Qarabağda, guya, hərbçilər üçün kilsəfason bir şey tikmişdi, üstünə də böyük bir xaç qoymuşdular. Nə tarixi, nə də sənət dəyəri olan həmin tikili söküləndə dünyaya car çəkirlər. Təbii ki, bu, ikili yanaşmanın təzahürüdür. Biz onu da müşahidə edirik ki, Avropanın bir çox ölkələrində radikal, ekstremist qruplar formalaşdırılır və onlara hökumət himayədarlıq edir. Meydanda, Türkiyə səfirliyinin önündə Quranı yandırmazdan əvvəl həmin sağçı dini radikallar polisdən təhlükəsizliyini qorumağı tələb edir. Qərbin dünyaya sırımaq istədiyi demokratiya, azadlıq budurmu? Azərbaycan bütün bunlara susmur, Bakıda keçirilən elmi konfransda bu hallara kəskin münasibət bildirilir.**

# Paris dördtərəfli format yaratmaqla bölgədə gərginliyə “xeyir-dua” verir

**Fransanın 2020-ci ilin payızından, yəni 44 günlük Vətən müharibəsi zamanından etibarən bölgəmizdə oynamağa başladığı destruktiv rol xeyli vaxtdır ki, bütün əndazəni aşıb. Rəsmi Paris, necə deyərlər, ermənilərdən daha artıq erməni olmaq işinə girişib. Bu gün Ermənistanın Azərbaycanla sülh müqaviləsi imzalamasına imkan verməyən də Fransa başda olmaqla bəzi Qərb ölkələridir. Onlar İrəvana yalan vədlər verərək, onu şirnikləndirərək sülhə gəlməyə qoymurlar.**

Fransanın regionda yürütdüyü siyasətin pozuculuq olduğu təkcə azərbaycanlı siyasi ekspertlər, politoloqlar, deputatlar, ictimai-siyasi xadimlər tərəfindən tənqid edilmir. Gürcüstandan, Rusiyadan olan ekspertlər də Parisin siyasətinin yanlış və zərərli olduğunu vurğulayırlar. Öz mövqeyini açıq şəkildə ifadə edənlərdən biri də Gürcüstan Strateji Planlaşdırma Mərkəzinin rəhbəri, politoloq Levan Mamaladzedir. O, “Report”un yerli bürosuna müsahibəsində bildirib ki, Yunanıstanın müdafiə naziri Nikos Dendiasın Ermənistana səfəri zamanı səslənən fikirlər bir daha İrəvanın İkinci Qarabağ müharibəsi zamanı itirdiyi hərbi potensialını bərpa etmək niyyətində olduğunu göstərir. Onun sözlərinə görə, məsələni təhlil edəndə görünür ki, İrəvan bölgədə hərbi blok yaratmaq niyyətindədir.

Politoloq bildirib ki, indiki zamanda Ermənistan, Fransa, Yunanıstan və Hindistan kimi ölkələrin bu layihəni reallaşdırması mümkün deyil. Çünki Yunanıstan NATO-nun üzvü, Hindistan isə Rusiyanın hərbi müttəfiqidir: “Əgər yeni yaradılacaq hərbi blokda Rusiya və Azərbaycan əleyhinə gücün tətbiqi məsələsi düşünülürsə, burada heç bir perspektiv olmayacaq. Ermənistan Qarabağ məsələsində heç bir uğura imza ata bilmədi. Azərbaycan ərazilərini işğal altında saxladığı zaman da həmin torpaqlarda ancaq dağıdıcılıqla məşğul oldu. Lakin Azərbaycan torpaqlarını işğaldan azad etdikdən dərhal sonra həmin ərazilərdə sürətlə bərpa-quruculuq işlərinə başladı. Azərbaycan torpaqlarının işğalı zamanı Qərb dövlətləri prosesə müdaxilə edə bilmədi və ya etmədi. İndi isə işğaldan azad olunan ərazilər inkişaf etməyə başlayıb. Azərbaycanın iqtisadi potensialının güclənməsini həzm edə bilməyən Qərb müxtəlif yollarla regionda söz sahibi olmağa çalışır, hərbi münaqişə yaradaraq Zəngəzur dəhlizinə nəzarət imkanı əldə etmək istəyir”.

Onun sözlərinə görə, böyük ölkələr anlamalıdırlar ki, Qarabağ məsələsi birdəfəlik öz həllini tapıb və artıq burada heç bir münaqişə yaradıla bilməz: “Ermənistan indi də müəyyən addımlar atmaqla Rusiyaya meydan oxumaq istəyir. Amma Rusiya da çox gözəl anlayır ki, Ermənistanın bütün iqtisadiyyatı onların əlindədir və istədiyi zaman onu məhv edə bilər. Ona görə də düşünürəm ki, Ermənistanın son addımları, sadəcə, diqqət çəkmək üçündür. Çünki dünyanın siyasi xəritəsinə baxdıqda, ölkələrin hansı böyüklükdə, eləcə də hansı siyasi və iqtisadi çəkiyə malik olduğunu aydın görmək mümkündür. Ona görə də hesab edirəm ki, Ermənistanın Rusiya ilə bağlı addımları, sadəcə, gülməlidir”.

Politoloq daha sonra deyib ki, Ermənistan rəhbərliyi, sadəcə, anlamalıdır ki, onların yeganə çıxış yolu Azərbaycanın təklifləri ilə razılaşmaqdır. Bu da təbii ki, sülh müqaviləsinə imza atmaqdan keçir. Ermənistan sülh müqaviləsini imzalamalıdır. Bununla da Azərbaycan, Ermənistan və Gürcüstan regionun inkişafında birgə iştirak edib Orta Dəhliz vasitəsilə iqtisadiyyatlarını inkişaf etdirə biləcəklər.

Maraq doğuran digər məqam Fransanın mövqeyidir. Paris ABŞ-ın pərdəarxası dəstəyi ilə regionda sülhün olmaması üçün çalışır. Çünki onlar anlayırlar ki, sülh müqaviləsi imzalansa, əsrlər boyu xalqlarımız arasında yaratdıqları nifaqı daha yarada bilməyəcəklər. Fransanın bütün cəhdləri kimi bu cəhdi də uğursuz olacaq.




Qeyd edək ki, Yunanıstanın müdafiə naziri Nikos Dendias martın 4-də Ermənistana səfər edib. O, həmkarı Suren Papikyanla görüşdən sonra keçirilən mətbuat konfransı zamanı bir sıra açıqlamalar verib. Yunan nazirin fikirlərində ən diqqətçəkən məqamlardan biri Ermənistan, Yunanıstan, Fransa və Hindistan arasında dördtərəfli əməkdaşlığın mümkünlüyü barədə dedikləridir. Qeyd edib ki, artıq Ermənistan, Yunanıstan və Kipr arasında uğurlu üçtərəfli hərbi əməkdaşlıq yaradılıb: “Ermənistan və Yunanıstanın çox nüfuzlu ortaq dostları ilə – Fransa və Hindistanla üçtərəfli və ya dördtərəfli əməkdaşlıqlar ola bilər”.

Ermənistan, Yunanıstan, Fransa və Hindistan arasında dördtərəfli hərbi əməkdaşlığın reallaşması perspektivdə Cənubi Qafqazda yeni gərginlik ocağının yaranmasına gətirib çıxara bilər. Bu gərginliyin əsas yaradıcısı isə, sözsüz ki, Fransa olacaq.

Fransanın təkcə bizim bölgəmizdə deyil, digər regionlarda da oynadığı destruktiv rol onun dünyada mövqelərinin pisləşməsinə gətirib çıxarıb. Bugünlərdə Fransanın dünyadakı diplomatik şəbəkəsinin kiçildiyi məlum olub. “L’Express” qəzeti yazıb ki, bu, narahatedici siqnaldır: “Fransa beynəlxalq səhnədə geriləyir. Bu vəziyyət narahatlıq doğurur”.

Yazıda qeyd olunub ki, Çinin ölkə xaricindəki diplomatik təmsilçiliklərinin sayı 274-ə çatıb. Uzun illər ən böyük diplomatik şəbəkəyə sahib olmuş ABŞ artıq 271 nümayəndəliklə ikinci yerdə gəlir. Dünya üzrə 252 səfirlik və konsulluğu olan Türkiyə isə Fransanı sıxışdıraraq ilk üçlükdən çıxarmağa nail olub. Ankaranın xaricdəki diplomatik nümayəndəliklərindən 24-ü son 8 ildə açılıb. Bu müddətdə Fransa xərcləri azaltmaq üçün 18 diplomatik təmsilçiliyini bağlayıb. 249 nümayəndəliyi olan Paris artıq beşinci yerdə qərarlaşıb. Rəsmi Paris təkcə diplomatik nümayəndəlik sayını deyil, xaricdə çalışan heyətin sayını da azaldır. Bundan əlavə, bir çox Afrika ölkəsi beynəlxalq qurumlarda Fransanın vasitəçilik missiyasından imtina edir. Hətta Avropa ölkələri də Parisin Afrika və miqrantlarla bağlı siyasətini tənqid edir. Fransız ekspertlərin fikrincə, bütün hallarda Fransanın beynəlxalq nüfuzu zədələnir, ona etibar edənlərin sayı azalır.

**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin şöbə müdiri, politoloq Cavid Vəliyev “XQ”yə** açıqlamasında bildirdi ki, Fransa regionda açıq-aşkar hərbi ittifaq yaratmağa çalışır. Onun sözlərinə görə, son dövrlərdə Yunanıstanla Ermənistan, Hindistanla Ermənistan arasında artan hərbi səfərlərin, imzalanan müqavilələrin, əməkdaşlıqların səbəbkarı Fransadır: “Fransa regionda hərbi ittifaq yaratmaq üçün çox canfəşanlıq edir. Bu hərbi ittifaqın iki məqsədi var. Birincisi, Azərbaycan və Türkiyə Vətən müharibəsindən sonra regionda geosiyasi reallığı dəyişdirib. Yeni reallıqlar yaradıb. Biz bilirik ki, Fransa Türkiyəyə qarşı bir çox cəbhələrdə ittifaq qurmağa çalışır. Cənubi Qafqazda da Azərbaycan qalib gəldiyi üçün ölkəmizə qarşı ittifaq yaratmaq istəyir. Onları narahat edən digər məsələ Qarabağ Zəfərindən sonra Azərbaycan və Türkiyənin təklifi ilə regionda yaranan yeni əməkdaşlıq formatıdır. Bu formatda regional məsələlərin region dövlətləri tərəfindən həll olunması istənilərkən Fransa, habelə Avropa İttifaqındakı bəzi qüvvələr bunu bir təhdid olaraq görürlər və regionda yeni ittifaq qurmağa çalışırlar. Bu mənada Fransanın Azərbaycan və Türkiyəyə qarşı çıxmasının digər səbəbi Bakı və Ankaranın yeni ittifaqa dəstək verməsi, onun tərəfi kimi çıxış etməsidir. Bu da təbiidir. Azərbaycan və Türkiyə regional problemlərin həllində xaricdən dəstək axtarası deyil”.

(ardı 4-cü səhifədə)

# Teleradio məkanımız – müsbət tendensiyalar və "ictimai gilyotin"

(əvvəli 1-ci səhifədə)

Digər tərəfdən, dövlətimizin başçısı 2022-ci il iyulun 22-də Milli Mətbuat Günü ilə bağlı Azərbaycanın media nümayəndələrinə müraciətində vurğulayır ki, kommunikasiya vasitələrinin transformasiya mərhələsini yaşadığı, rəqəmsal platformaların və sosial media alətlərinin öz əhatə dairəsini genişləndirdiyi hazırkı dövrdə milli informasiya resurslarımızın potensialının və qlobal informasiya şəbəkəsində mövqelərinin gücləndirilməsi başlıca vəzifələrdən biridir. Deməli, informasiya təhlükəsizliyinin təminatında iştirakla yanaşı, başlıca hədəf, eyni zamanda, budur: Dünya informasiya məkanına inteqrasiya. Prezident İlham Əliyev bu baxımdan zəruri olan məsələləri müxtəlif çıxışlarında da yetərincə əhatəli şəkildə vurğulayıb.

***

Mediamızın mühüm komponentlərindən sayılan telekanallar və radiolar dövlətimizin islahat məntiqindən faydalanaraq, inkişaf yoluna kökləniblər. Dövlət dəstəyi, diqqət və qayğısı konseptual baxışa əsaslanmaqla, onların cəmiyyət üçün prioritet əhəmiyyət daşıyan məsələlərə köklənməsinə, mövcud istiqamətdəki fəaliyyətlərinin stimullaşdırılmasına, qeyri-obyektiv rəqabət mühitinin ictimai mənafeləri ikinci plana çıxardığı şəraitdə müqavimətlərini gücləndirməyə hesablanıb. Etiraf olunmalıdır ki, son illərdə telekanallarımızda və radiolarımızda müsbət meyillərin mövcudluğunu göstərən məqamların artdığını müşahidə edirik. Bu tip media vasitələrində cəmiyyət həyatının müxtəlif sahələrini əhatə edən məsələlərlə bağlı məzmunlu və baxımlı çoxsaylı sənədli filmlərin və reportajların hazırlandığının şahidiyik. O cümlədən, mühüm əhəmiyyət daşıyan məsələlər ətrafında ekspertlərin iştirakı ilə müzakirələrin və debatların təşkil edilməsi də diqqətimizdən yayınmır. Xüsusən, radioların maddi-texniki bazasının güclənməsinin, əhatə dairəsinin genişlənməsinin onların fəaliyyətində əsaslı dönüş yaratdığını vurğulaya bilərik. Telekanallarımızın Azərbaycan üçün mühüm əhəmiyyət daşıyan Vətən müharibəsi və lokal xarakterli antiterror tədbirləri günlərində göstərdikləri mütəşəkkilliyi ayrıca qeyd etməyə ehtiyac var.

Bütövlükdə, mediamız kimi, onun tərkib hissəsi sayılan televiziya və radio kanallarımız da Ermənistan tərəfindən həyata keçirilən təxribatların qarşının alınmasında fəal rol oynayıb. Bu zaman milli maraqların müdafiəsi əsas götürülüb. Hazırda onlar ölkəmizdə sosial-iqtisadi inkişafı, habelə, işğaldan azad olunmuş ərazilərimizin bərpasına və yenidən qurulmasına yönələn tədbirlərin hərtərəfli təbliğatçısı kimi çıxış edir, peşəkar səviyyədə geniş materiallar, reportajlar, süjetlər, təhlillər və şərhlər hazırlayırlar.

Ümumən, teleradiolarımız ümummilli məsələlərin təqdimatında, Azərbaycanın ədalətli mövqeyinin təbliğində mühüm rol oynayıblar və eyni missiyanı davam etdirirlər. Cəmiyyətin milli və bəşəri ideyalar ətrafında səfərbərliyi kimi məsələlərdə də öz sözlərini layiqincə deyir, vətənpərvərliyi peşə prinsipləri ilə uzlaşdırırlar. Cəmiyyətimizin operativ və dolğun məlumatlandırılması istiqamətində genişmiqyaslı fəaliyyətlərinin nəticəsidir ki, canlı efir mədəniyyəti formalaşıb. Müsbət mənzərəyə xarici ölkələrdən ictimai maraq doğuran reportajların hazırlanmasını, tanınmış əcnəbilərlə müsahibələri də əlavə etmək yerinə düşər.

Həmçinin, onu da deməliyik ki, Azərbaycan telekanalları xarici media ilə fəal əməkdaşlıq əlaqələri qurur, birgə layihələr reallaşdırırlar. Məzmunlu proqram siyasətləri və maarifləndirici dəst-xətləri nəticəsində özlərinin tamaşaçı auditoriyalarını genişləndirirlər. Bu baxımdan AzTV və İTV-ni xüsusi vurğulamaq lazımdır. Eyni zamanda, "Real TV"nin və ARB 24-ün timsalında telekanallarımızın güclü məlumatlandırma potensialının olduğunu, cəmiyyətimizdə və dünyada baş verən hadisələri daim diqqətdə saxladıqlarını, CBC-nin beynəlxalq auditoriyaya çıxışını qeyd etmək lazımdır.

***

Lakin bütün uğurlara rəğmən, televiziya və radio kanallarımızda problemlər də var. Nəzərə alsaq ki, media fəaliyyətinin özü müstəsna ictimai hadisədir, bir çox hallarda bu hadisənin gerçəkləşməsi naminə reallaşdırılan fəaliyyətin günün tələbləri çərçivəsində olmadığını görürük. Nəinki günün tələbləri çərçivəsində olmur, heç buna cəhdin göstərildiyi də nəzərə çarpmır. Nəticədə, bəzən telekanallarla cəmiyyətin tam fərqli cinahlarda dayandığına dair xoşagəlməz təsəvvür formalaşır.

Onu da nəzərə alaq ki, media fəaliyyətində başlıca peşəkarlıq meyarı həssaslıqdır. Daha doğrusu, həssaslıq ən böyük peşəkarlıq meyarıdır. Təəssüf ki, televiziya və radio kanallarımızdakı bəzi proqramlarda peşə həssaslığının reytinqlərdə üstünlüyə yiyələnmək istəklərinə qurban verildiyinin şahidiyik. Bu, üzücü mənzərə formalaşdırır. Söhbət utanc yaradan mənzərənin üzücülüyündən gedir. Bəs cəmiyyət üzvlərini telekanallara baxmaqdan çəkindirən hansı cəhətlər var?

Zaur Baxşəliyev, Lalə Azərtaş, Tolik, Xoşqədəm Baxşəliyeva, Mətanət Əliverdiyeva, Elgiz Əkbər, Zaur Kamal... Yox, bu adamları "eybəcər" adlandırmaq niyyətindən uzağıq. Bizim üçün onlar tədqiqat predmetidirlər. Çünki aparıcısı olduqları proqramları sırf peşəkarlıq baxımından nəzərdən keçirmişik. Heç şübhə etmirik ki, bu adlar hər gün "beyin terapeyasına" məruz qoyduqları vətəndaşlara daha çox tanışdırlar.

Bəli, zaurlar, toliklər, mətanətlər, elgizlər teleməkanımızda at oynadır, çalışdıqları media orqanlarının ictimai yükünü sıfıra endirirlər. Onların auditoriyaya müraciət tərzi ikrah doğurur. Öz aləmlərində, xalq dilində danışdıqlarını zənn edirlər. Ləhcə və şivənin istifadəsində bəsit motivlərə köklənirlər. Ümumiyyətlə, bu baxımdan heç bir artistizmləri və istedadları gözə dəymir. Bizə bu aparıcıların efir vaxtının çox hissəsini tutmaları lazımdırmı? Onların fəaliyyətlərində hansısa ictimai motiv varmı?

Media, müəyyən mənada, tərbiyələndirici funksiya daşımalıdır. Yəni, onun maarifləndirici missiyası həm də insanları tərbiyə etməlidir. Ancaq adlarını çəkdiyimiz şəxslər tam fəqrli yol tuturlar. Özü də, demək olar ki, hər gün 3-5 saat. İstər-istəməz, onların yarıtmazlıqları şüurlarda, bir növ, ictimailəşmiş hadisə kimi qəbul olunmağa başlayır. Acınacaqlı haldır ki, gənc nəslin içərisində Zaura, Xoşqədəmə, Elgizə, Laləyə, Tolikə, Mətanətə oxşayıb jurnalist olmağı düşünənlər də az deyil. Həmin gənclərə heç cür başa salmaq olmur ki, bu adamların ortaya çıxardıqları gerçək jurnalistika deyil. Çünki gördükləri mənzərə var. Yaxşı halda, bu mənzərə qarşısında nəzakətsizlik etməyib susur, məchul nəzərlərini işə salırlar. Əslində, nəzərləri ilə təxminən bunu deyirlər: Zaurun, Xoşqədəmin, Elgizin və onlara oxşar digərlərinin gördükləri pis işdirsə, nə üçün televiziyada aparıcılıq edə bilirlər? Nə deyəsən, haqlıdırlar. Haqsız durumu formalaşdıranlar isə telekanal rəhbərləridir. Ancaq yalnız onlarmı?..

Lalələrin, elgizlərin, xoşqədəmlərin, zaurların, toliklərin çalışdıqları



telekanallarda təqdim etdikləri sosial proqramlar və şou-biznes xarakterli verilişlər son dərəcə təhlükəlidir. Adlarını çəkdiyimiz aparıcılar kimlərinsə eyiblərini o qədər qeyri-peşəkar tərzdə ortaya qoyurlar ki, istər-istəməz, şəxsi həyata müdaxilə ön plana çıxır. Bu şəxslərin təqdimatları dəyərlərimizə, mental xüsusiyyətlərimizə aşkar həqarətdir. Onların "xidmətlərinin" nəticəsidir ki, telekanallar orta əsrlərdəki inkvizisiya məhkəmələrini xatırladır. Təsəvvür edin ki, ayrı-ayrı adamlar, televiziya ekranlarında linç olunurlar. İki-üç dar təfəkkürlü ekspert isə bu dəhşət mənzərəsində tamamlayıcı rol oynayır, onsuz da eybəcər olan durumu bir qədər də eybəcərləşdirirlər. Yeri gəlmişkən, telekanalların həmin ekspertlərdən onları efirə çıxarmaq üçün "haqq" aldıqlarına dair məlumatlar da yayılmaqdadır. Müasir media menecmenti budurmu?

Deyəsən, əsas məsələ həm də "haqq" dediyimiz nəsnədədir. Yəqin, elə buna görədir ki, efir mədəniyyətini heçə sayan aparıcıların kultlaşdırıldığını görürük. Ola bilər, düşüncə budur: ortada pul varsa, deməli, hər sözü deyə, hər mövzudan söz aça, hər cür cəfəngiyyatı dilə gətirə bilərlər.

Aparıcılar, sanki, krallar, şahlar kimi qeyri-məhdud səlahiyyətə malikdirlər. Onlar auditoriya ilə məzələnir, təvazökarlıqdan uzaq hərəkətləri ilə gözə girirlər. Yekunda media dəyərləri, ictimai motivlər, cəmiyyətin normaları kultlaşdırılmış obrazların arxasınca sürünür. Beləmi olmalıdır? Budurmu jurnalistikanın mahiyyəti? Əlbəttə ki, yox!

Digər yandan, ayrı-ayrı sosial proqramlara diqqət yetirəndə elə təsəvvür yaranır ki, sanki Azərbaycanda dövlət hakimiyyəti yoxdur, dövlətin bütün funksiyalarını telekanallar, daha doğrusu, həmin kultlaşdırılmış aparıcılar yerinə yetirirlər. Onlar detektivdirlər, ağır cinayətin üstünü açırlar, təhqiqat aparırlar, günahkar və məsumları müəyyənləşdirirlər, saxta insanpərvərliyə bürünüb, guya, mərhəmətli davranırmış kimi görüntü yaradırlar. Şübhəsiz, bu kimi hallar vətəndaşla dövlət arasında inamsızlıq toxumları səpir. İstər-istəməz, sual yaranır: Bir halda ki, aparıcılar hər bir işin öhdəsindən gəlirlər, dövlətə nə ehtiyac var?

Ümumən, bəzi televiziya və radio kanallarındakı proqramlara nəzər salanda küçə söyüşlərini, jarqonları, ədəbsiz sözləri, tərbiyəsizlik assosiasiyası verən deyimləri, eyhamları eşidirik. Belə hallar Azərbaycan ədəbi dilinin norma və qanunlarının aşkar şəkildə pozulmasıdır. Media həm də dil hadisəsidir, ona görə də tam əminliklə demək olar ki, hazırda bəzi televiziya və radio kanallarımız ana dilimizi korlamaqla, ona həqarətli münasibət göstərməklə məşğuldurlar.

Daha bir xarakterik tendensiya odur ki, sosial şəbəkələrin informasiya yükünün artdığı hazırkı şəraitdə bu müstəvidə paylaşımlar, ayrı-ayrı fikirlər media tərəfindən xəbərə çevrilir. Birmənalı qaydada bunun neqativ hal olduğunu söyləmək olmaz. Hansısa vətəndaşın öz sosial şəbəkə profilində qaldırdığı məsələdə ictimai motivin olması mümkündür. Media orqanı, indiki halda telekanal və radio həmin məqamı işıqlandırmaqda sərbəstdir. Amma bu zaman peşəkarlıq öndə olmalı, mövzu daha da dolğunlaşdırılmalıdır. Hiss olunmalıdır ki, ona jurnalist yanaşması var. Təəssüf ki, bunun əksini görürük. Bir qayda olaraq, sosial şəbəkələrdə yayılmış eybəcərlik, kimlərinsə Ostap bendersayağı məşhurlaşma niyyəti ilə ortaya atdığı görüntülər telekanallarda son dərəcə düşük şərhlərlə işıqlandırılır. Bu zaman da peşə prinsiplərinə aşkar həqarət yolu tutulur. Belə təəssürat yaranır ki, televiziya və radio kanallarımız ancaq ucuz reytinq yarışmasında geri qalmamağı düşünürlər. İctimai maraq və mənafeləri tam arxa plana atırlar. Ancaq vurğuladıqlarımız hələ son deyil. Yəni, sosial şəbəkələrdəki dedi-qoduların televiziya ekranlarına çıxdığının, hətta dəfələrlə yayımlandığının şahidi oluruq... Bu, öz yerində. Aparıcıların əl-qolla, ucuz populizm tonu, yersiz mimika və jestikulyasiyalarla duruma "rəng qatmaları" həmin vəziyyəti tragikomik hala gətirir.

Mövcud xüsusda başqa bir məqama diqqət yetirək. Bəzən belə bir qənaət formalaşır ki, sosial şəbəkələrlə televiziya və radio kanallarının belə demək mümkünsə, tandemi var. Birincilər ikincilər üçün "material" olduqları kimi, ikincilər də birincilər üçün istinad nöqtəsinə çevrilirlər. Televiziyaların və radioların bəsit verilişlərinin ayrı-ayrı hissələri sosial şəbəkə seqmentini "bəzəyir". Beləliklə, birincilərin təqdimatlarındakı sərsəm motivlər sosial şəbəkələrdəki müzakirələr fonunda daha da "dramatikləşir". Nəzərə alsaq ki, media həm də cəmiyyətə mənəvi zövq aşılamalıdır, qeyd etdiyimiz fonda həmin zövqün kirləndirilməsi prosesi gedir. Bundan itirən isə, bütövlükdə, cəmiyyətdir.

***

Bəs nə edək? Yaxud nə etməliyik ki, itirməyək? Əlbəttə, sadaladıqlarımız fonunda, bilavasitə, günahkar axtarışına çıxmaq məntiqindən uzağıq. Ancaq bu duruma görə məsuliyyət daşıyanlar barədə söz açmağımıza əsas yaradır. Yuxarıda telekanal rəhbərlərinin bu sayaq aparıcılara meydan verməklə, onların proqramlarının yayımına şərait yaratmaqla, yumşaq desək, düzgün yol tutmadıqlarını vurğuladıq. Lap əvvəldə isə Azərbaycanda media siyasətinin fundamental istiqamətlərindən söz açdıq. Bu siyasətin hədəflərini açıqlamağımız heç də təsadüfi deyildi.

Qeyd edək ki, "Media haqqında" Qanunda ölkəmizdə audiovizual media sahəsini tənzimləyən orqan kimi Audiovizual Şura müəyyənləşib. 2002-ci ildə yaradılmış Milli Televiziya və Radio Şurasının varisi olan bu qurum fəaliyyətində mövcud sahədə tənzimləməni və qüvvədə olan normativ hüquqi aktlara əməl edilməsinə nəzarəti həyata keçirmək, dövlət siyasətinin formalaşmasında iştirak, bu siyasətin reallaşdırılmasını təmin etmək səlahiyyətinə malikdir.

Konkretliyə gəlsək, Audiovizual Şuranın televiziya və radio məkanımızda nizam-intizam yaradacağını söyləmək mümkündür. Qurum mövcud istiqamətdə təsnifatlandırma aparıb və bu cəhət yayım məsələlərinə müasir dövrün tələbləri baxımından yanaşıldığının, televiziya və radio yayımının ən müxtəlif parametrlərinin nəzərə alındığının bariz təsdiqidir.

Onu da bildirməliyik ki, audiovizual media subyektləri üçün icrası məcburi olan qərarların qəbulu səlahiyyətinə malik Audiovizual Şura inzibati xəta əlamətləri aşkar etdikdə "Media haqqında" Qanuna və İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq tədbirlər görməyə, habelə qanunvericilikdən irəli gələn digər vəzifələri yerinə yetirməyə mükəlləfdir.

Əlbəttə, Audiovizual Şuraya yol göstərmək kimi məqsədimiz yoxdur. Ona görə ki, həm yol müəyyəndir, həm də qurumun reallaşdırdığı siyasət həmin yolda gedildiyinin təsdiqidir. Ancaq sadaladığımız neqativ halları da bir kənara qoya bilmərik. Deməli, Audiovizual Şuranın bundan sonra öz işinə daha ciddi yanaşması şərtdir. Güman edirik ki, belə də olacaq və nəhayət, televiziya və radio ənənələrimizə, müasir teleradio məkanımızdakı müsbət meyillərə, inkişafa xələl gətirən "ictimai gilyotin" səhnələri tarixin arxivinə gömüləcək, cəmiyyətin norma və prinsiplərini təhdid edən zay proqramların yerini sağlam düşüncə aşılayan peşəkar efir və ekran nümunələri tutacaq.

***XQ-nin analitik qrupu***

# Paris dördtərəfli format yaratmaqla bölgədə gərginliyə "xeyir-dua" verir

(əvvəli 3-cü səhifədə)

C.Vəliyev qeyd etdi ki, prosesi pozmağa çalışan Ermənistandır. Onun sözlərinə görə, bununla əlaqədar olaraq Ermənistanın ünvanına təkcə Azərbaycan və Türkiyədən deyil, Rusiya və İrandan da sərt açıqlamalar verildi: "Yola saldığımız həftənin ortalarında Ermənistanın müdafiə naziri Suren Papikyan İrana səfər etdi. Tehranda İranın müdafiə naziri ilə görüşündə Ermənistanın ünvanına sərt açıqlama səsləndirildi. Bildirildi ki, Ermənistan xaricdən qüvvələri bölgəyə gətirərək regionun təhlükəsizliyinə təhdid yaradır. Bu mənada regionun digər ölkələri – Azərbaycan, Türkiyə, Gürcüstan, Rusiya və İran Ermənistanın bölgənin problemlərini həll etmək adı ilə kənar qüvvələri bura gətirməsindən olduqca narahatdır. Bunu açıq-aşkar bəyan edirlər".

Politoloq bildirdi ki, Ermənistanda Avropa İttifaqının mülki müşahidə missiyasının sayının artırılması da Fransanın təşəbbüsüdür. Burada Avropa İttifaqının xarici əlaqələr və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Cozep Borrelin də rolu var: "Belə görünür ki, Avropa İttifaqı daxilindəki qruplaşmada Fransa ön planda gedir. Bundan əlavə, burada Rusiyaya qarşı daha bir cəbhə açmaq istəyi var. Ermənistan bu cəbhənin yaradılmasında və silahlandırılmada aktiv istifadə olunur. Biz Fransanın bu məsələdə aktivliyini, sadəcə, Ermənistan çərçivəsində görmürük. Ukrayna müharibəsi çərçivəsində də görürük ki, Fransa Ukrayna müharibəsinin davam etdirilməsinin tərəfdarıdır. Halbuki, bəzi dövlətlər atəşkəs əldə olunmasının və qarşılıqlı razılaşmanın tərəfdarıdır. Ukrayna Prezidenti Vladimir Zelenski martın 8-də Türkiyədə idi. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bildirdi




ki, onun ölkəsi sülh danışıqlarının davam etdirilməsi üçün platforma təqdim edə bilər, əllərindən nə gəlirsə, onu da edə bilərlər. Ancaq Fransa silahlanma, daha çox müharibənin davam etməsi, hətta fransız ordusunun Ukraynaya yeridilərək, Rusiya ilə qarşı-qarşıya gəlməsi təkliflərini irəli sürür. Bu çərçivədə düşünürəm ki, burada Fransa üçün ikinci məsələ Ermənistanı Rusiya qarşı ikinci cəbhə olaraq istifadə etmək istəyidir. Parisin bunu bacarıb-bacarmayacağı zamana bağlı məsələdir. Amma hazırda Ermənistanda Fransanın əli ilə bu proses davam etdirilir".

Müsahibimiz vurğuladı ki, Fransa burada ön planda olsa da, tək deyil: "Əgər ABŞ başda olmaqla, qərbli müttəfiqləri buna etiraz etsələr, təhlükəli vəziyyət yaratdığını desələr, yəqin ki, Fransa, onun prezidenti Emmanuel Makron da prosesi bu qədər israrlı şəkildə aparmaz".

Bu arada "Le Monde" qəzeti Ukraynadakı müharibənin Almaniya Kansleri Olaf Şolts və Fransa prezidenti E.Makron arasında fikir ayrılıqları yaratdığına dair məlumat yayıb. Qeyd olunub ki, iki lider arasında fikir ayrılıqları getdikcə dərinləşir və narazılığa çevrilir. Bildirilib ki, liderlərin son həftələrdə verdikləri açıqlamalar dövlətlər arasındakı ikitərəfli münasibətlərə zərbə vurub. "Avropanın Ukraynaya dəstək və Rusiyanın hibrid müharibəsinə qarşı müdafiəsi üçün vahid cəbhə təqdim etməli olduğu bir vaxtda iki ən böyük Avropa dövləti böhran içindədir", – qəzet yazıb.

Qeyd edək ki, E.Makron fevralın sonunda Qərb ordusunun Ukraynaya göndərilməsinin mümkün olduğunu bildirib. Almaniya rəsmiləri, o cümlədən O.Şolts isə bu fikirlərə görə rəsmi Parisi tənqid edib. Qeyd olunub ki, Almaniya öz qoşunlarını Ukraynaya göndərmək niyyətində deyil.

**Səxavət HƏMİD**
**XQ**

# Ermənistan: siyasi dalanda yeni konstitusiya axtarışları



**IV MƏQALƏ**

**Uğur öz davranışınızdan doğur.**

**Dalay-Lama**

## Dövlətlərarası münasibət mədəniyyəti

Dövlətlərarası münasibətlər yalnız siyasi hadisə deyildir, o həm də ənənəsi olan tarixdir, mədəniyyət nümunəsidir. Dünyanın güclü və oturuşmuş dövlətlərinin digərləri ilə münasibətləri hansısa konkret meyar üzərində qurulur. Məsələn, Türkiyə üçün bu, ədalətlilik prinsipi ilə sıx bağlıdır. Digər faktor həmişə məzlumun yanında olmaqdır. Bir başqa faktor isə qarşı tərəfin dövlət olmaq hüququnu təbii olaraq qəbul etməkdir.

Azərbaycan dövlətçilik ənənəsində də eyni faktorlar vardır. Bunlardan başqa, Azərbaycan dövlətçiliyində yardım göstərmək kimi nəcib xüsusiyyət mövcuddur. Xatırlayırsınızsa, Ermənstan bizə qarşı düşmənçilik etdiyi bir dönəmdə belə orada zəlzələ olanda Azərbaycan təyyarə ilə yardım göndərdi. Ermənilər isə bu yardımı daşıyan təyyarəni də vurdular. Bu onu göstərirdi ki, onların dövlətlərarası münasibətlərdə humanitarlıq keyfiyyəti yoxdur.

Azərbaycan dövlətçiliyində tarixi reallıqları ciddi surətdə nəzərə almaq da vardır. Azərbaycan indiyə qədər heç bir qonşusuna qarşı bu prinsipi pozmamışdır. Təsadüfi deyildir ki, Prezident İlham Əliyev II Qarabağ savaşı haqqında danışarkən əsas faktorlardan biri kimi, tarixi ədalətin bərpasını vurğulamışdı.

XX əsrin birinci yarısından bu yana Ermənistan adlanan ölkənin dövlətlərarası münasibətlər tarixçəsinə baxdıqda yuxarıda vurğulanan özəllikləri görə bilmirik. XX əsrin əvvəllərində dövlət qurmaq adına dəfələrlə qonşu xalqlara qarşı kütləvi qətliamlar törətdilər. Xüsusilə, azərbaycanlılara qarşı amansızlıqla kütləvi terror və qətllər həyata keçirdilər. Azərbaycanda minlərlə ailə vardır ki, həmin illərdə qalan xatirələr sırasında bir acı fakt da mövcuddur. O dövrün yaşlı insanları deyərdilər ki, "ermənilər həyatimizdə filan qədər qohum-əqrabanın başını kəsdilər".

Ümumiyyətlə götürdkdə belə aydın olur ki, Ermənistan adlanan məmləkət üçün dövlətlərarası münasibətlərdə mədəniyyət deyilən dəyər yoxdur və ya olduqca zəifdir. Səbəbi nədir? Burada bir fransız tarixçisinin araşdırmasına baş vurmaq istərdik.

Pyer Nora məşhur fransız tarixşünasıdır. O, uzun illər "Fransa yaddaşdır" tədqiqat layihəsi üzərində işləmişdir. Araşdırma nəticəsində belə qənaətə gəlmişdir ki, Fransa cəmiyyət və dövlət olaraq yaddaşdır. Yəni onun həm dövlət, həm də cəmiyyət kimi müəyyən özünütəşkiletmə xətti vardır.

Lakin ABŞ-ın yaddaşı yoxdur. Dövlət kimi bir neçə yüz il yaddaşı vardır və buradan da ABŞ-ın dövlətlərarası münasibətlərə öz yanaşması mövcuddur. Biz detallara varmaq istəməzdik, lakin tarix göstərir ki, Amerika dövlətlərarası münasibətlərdə özünün müstəsnalığı prinsipinə daha çox üstünlük verir. Buradan onun dünya lideri olmağı təbii qəbul etməsi kimi özündənrazı münasibəti yaranmışdır. Artıq 200 ildən çoxdur ki, Amerika digər dövlətlərə bu "eynəkdən" baxır. Əksini qəbul etmək istəmir. Çünki tarixi aspektdə dövlətlərarası münasibətdə başqa təcrübəsi və həmçinin, mədəniyyəti yoxdur.

Cəmiyyət baxımından isə ABŞ P.Noraya görə, yaddaşsızdır. Ora insanlar dünyanın müxtəlif regionlarından (əsasən Avropadan) bu və ya digər səbəblərə görə, yeni yaşayış məskəni kimi yığışmışlar. Paralel olaraq, Amerikanın yerli tarixi ənənəsini yaşadan qövmünü – hinduları soyqırıma məruz qoymuşlar. Bununla indiki amerikanlar özləri ilə ABŞ-nin cəmiyyət kimi tarixi yaddaşı arasında sədd yaratmışlar. Hələ də onlar bu səddi söküb yeni yaddaş formalaşdıra bilmirlər.

Ancaq amerikalılar güclü dövlət qurmuşlar və o, hazırda dünya geosiyasi dinamikasına çox ciddi təsir edir. Daha fəlakətlisi odur ki, nə dövlət kimi tarixi yaddaşı olan, nə də cəmiyyət kimi öz yaddaşını düzgün anlayan və zəif, qondarma kiçik dövlətlər də böyüklük iddiasına düşürlər. Ermənistan onlardan biridir.

Tarixi faktdır ki, ermənilərin son min ilə yaxın müddətdə dövləti olmamışdır. Müəyyən yerlərdə xırda knyazlıqlar və ya başqa formada dövlətə oxşar bir qurum düzəltməyə çalışmışlar. Onları da başqa güclü dövlətlər dərhal yox etmişlər. Hər halda, nəticədə ermənilər xalq kimi başqa dövlətlərin mərhəmətinə sığınmışlar. XX əsrin əvvəllərində havadarlarının köməyi ilə, qədim Azərbaycan torpaqlarında qondarma qurum yaratdılar ki, bu da dövlətçilik baxımından ermənilər üçün nonses idi. Onlar faktiki şoka düşdülər. Dövlətlərarası münasibətləri qurmağın tarixi təcrübəsi olmadığına görə, bu istiqamətdə ciddi yanlışlıqlara yol verdilər. Onların sırasında regionda qonşu olduqları türklərə – Türkiyə və Azərbaycana qarşı düşmən münasibəti ayrıca yer tutur.

Ermənistanın indi müşahidə etdiyimiz dövlətlərarası münasibətləri dövrün tələblərinə uyğun qura bilməmələri məhz bu sahədə tarixi yaddaşlarının ya olmaması, ya da çox zəif olması ilə bağlıdır. Deməli, Ermənistan siyasi dairələri və bütövlükdə, cəmiyyət bunu etiraf edib, özündən müştəbehlik halından imtina etməlidirlər. Onlarda dövlətlərarası münasibətlərdə mədəniyyət çatışmazlığı açıq hiss olunur. Bunu yalnız düşmənçilik etdiyi dövlətlərlə deyil, dost elan etdiyi ölkələrlə münasibətdə də görürük.

Məsələn, Ermənistan Rusiyanın sayəsində heçdən özgə torpaqları üzərində yaradılmış ölkə olmaqda birbaşa ruslara borcludur. Onlar yalnız Rusiyanın hesabına indi dövlət sayılırlar. İranla münasibətlərdə də erməni nankorluğu özünü göstərir. Onun əlaməti İranın maraqlarına uyğun olmayan formada Qərblə "dostluğa" başlamaqda ifadə olunur.

Belə çıxır ki, müasir mərhələdə Ermənistan üçün dövlətlərarası münasibətlərdə öz modelini yaratmaq ciddi problemə çevrilmişdir. Bir dövlət ki, tez-tez dostu düşmən edirsə və ya "dostlar"ını dəyişirsə və bu zaman özü heç dəyişmək istəmirsə, deməli onun dövlətçilik ənənəsi yoxdur. Əgər bu ənənə olsaydı, anlardı ki, məsələ ziddiyyət yaranmışsa, deməli, köhnə davranışlar dalana aparır, onları dəyişmədən uğurlu yolu davam etdirmək mümkün deyil. Bu işdə dostları dəyişmək, sadəcə olaraq, fəlakətə aparan yolda yolçuları yeniləməkdir. Ancaq Ermənistan üçün tarixi fürsət yaranmışdır.

Həmin fürsətdən faydalanmağın başlanğıcı isə Azərbaycanla dövlət kimi münasibətləri tarixi ədalət və müstəqilliyə hörmət əsasında qurmaqdan ibarətdir. Bundan öncə erməni siyasi dairələri birmənalı etiraf etməlidirlər ki, Azərbaycana qarşı dövlət və cəmiyyət olaraq yanlış mövqe tutmuşlar. Bunu etiraf edib, üzr istənilməlidir.

Bunun fonunda daha bir mühüm məsələ vardır. Ermənistan siyasi ideoloji səviyyədə Azərbaycanın qələbəsini qəbul etməlidir.

## Unutmayın: Azərbaycan qalibdir!

Azərbaycanın II Qarabağ savaşında əldə etdiyi qələbə yalnız ölkənin siyasi sərhədləri ilə məhdudlaşan hadisə deyildir. Bu qələbə, bütövlükdə, Cənubi Qafqazda dövlətçilik tarixinin yeni səhifəsidir. Bununla Azərbaycan sübut etdi ki:

– Müstəqillik Azərbaycanı güclü dövlət edir. Digərləri də müstəqildirlər, lakin hələ də güclü dövlət deyillər. Azərbaycan isə çox ağır şərtlər və böyük dövlətlərin qərəzli münasibəti fonunda güclü müstəqil dövlət olmuşdur!

– Azərbaycanı müstəqil dövlət kimi güclü edən başlıca səbəb onun dövlətçilik tarixinin zəngin olmasıdır. Əsrlər boyunca bir neçə dövlət yaradan Azərbaycan xalqı müasir çox mürəkkəb və çətin dönəmdə müstəqilliyindən güclü dövlət olmaq üçün maksimum yararlana bilmişdir. Çünki indiki dönəmdə müstəqil dövlət quruculuğunda dövlətçilik ənənəsi ilə müasirliyin adekvat nisbəti təmin edilmişdir;

– müstəqil Azərbaycanı güclü dövlət edən həm də onun çox güclü liderinin olmasıdır. Azərbaycan nadir dövlətlərdəndir ki, olduqca böhranlı vəziyyətdən liderinin – ulu öndər Heydər Əliyevin sayəsində xilas olmuş və davamlı inkişaf xəttinə çıxmışdır;

– Azərbaycan həm də ona görə güclü dövlət ola bilmişdir ki, onun yeritdiyi siyasi kurs yalnız inkişaf paradiqmasına əsaslanır. Prezident İlham Əliyev siyasi varis kimi ulu öndər Heydər Əliyevin inkişaf paradiqmasını XXI əsrin tələblərinə uyğun davam etdirir və yeni liderlik nümunəsi yaradır;

– Azərbaycanın nümunəsində güclü dövlət olmaq yerləşdiyi regionda hər bir şəraitdə sabitlik, əməkdaşlıq və inkişafın qarantı olmaq qabiliyyəti ilə sıx bağlıdır. Ermənistanın bütün qərəzli davranışlarına baxmayaraq, Azərbaycan regionun rifahı naminə fəaliyyətini genişləndirir və inkişaf etdirir.

Ermənistan məhz siyasi-ideoloji səviyyədə bütün bunları etiraf etməli və ona uyğun kurs hazırlamalıdır. Azərbaycanın regional liderliyini siyasi-ideoloji aspektdə obyektivcəsinə etiraf etmədən Ermənistanın real inkişafı mümkün deyildir!

## Konstitusiya dekorasiyası

Beləliklə, Ermənistanın yeni konstitusiya axtarışları yuxarıda vurğulanan etiraflar olmadıqca dekorativ, başqalarına nümayiş etdirmək üçün hazırlanmış şou olaraq qalacaqdır. Erməni toplumu bu yanlış yolda nə qədər çox qalsa¸bir o qədər dövlətçiliyin varlığı sual altına düşəcəkdir. Əgər ermənilər bunları anlamasalar, onlar üçün qondarılan dövlət dağılmalıdır. Başqa cür regiona sülh, rifah, sabitlik gəlməyəcəkdir.

Onu da deyək ki, Ermənistana bu prosesdə ən çox əngəl törədənlər onun "yeni dostları"dır. Onların başında Fransa gəlir. Sonra ABŞ, Almaniya, İran və Hindistan vardır. Hindistan burada yeni hadisədir. Çünki Hind okeanından Qafqaza yol çox uzaqdır. Rəsmi Dehli hesab edir ki, bu yolu qısalda bilər. Bunun üçün ermənilərə silahlar vermək kifayətdir. Lakin Dehlinin əsl dərdinin nədən ibarət olduğu bəllidir. Bu səbəbdən də istənilən zaman, o, Ermənistandan üzünü döndərə bilər. İran isə anti-Azərbaycan eyforiyasına son qoymalı və müstəqilliyimizi obyektiv olaraq qəbul etməlidir. Bunu etmədikcə ermənilərə yeni təcavüzkarlıq ovqatı vermiş olur ki, bunun da sonucu fəlakətdir. Ermənistanın digər "dostları" da eyni dərəcədə haylar üçün dünyanın ən pis işini görürlər.

Deməli, yenə də ermənilərə elə gəlir ki, dövlətçiliklə bağlı nəsə real iş görürlər, hətta yenilik edirlər. Lakin yenə də yanılırlar. Çünki konstitusiyaya yeniliyin önündə siyasi və toplumsal varlıq olaraq özündə yenilik gəlir. Ermənilər öncə özlərini və dünyaya baxışlarını dəyişməlidirlər. Təəssüf ki, bunu müşahidə etmirik. Bu səbəbdən Ermənistan hələ də region üçün geosiyasi risk olaraq qalır!

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Ermənilərin türk-islam mədəni irsinə qarşı səlib yürüşü

**(əvvəli XQ-nin 7 mart 2024-cü il tarixli sayında)**

İrəvan şəhərində Göy məscidin kompleksində yerləşən Mədrəsə binasının hücrələrindən birində mərmər başdaşının üzərində "h.1330=1911-12-ci il Abasquluxan" yazılmışdır. Abasqulu ağa İrəvanski İrəvanın görkəmli maarif-pərvərlər ziyalılarından biri olmuş, maarifin, təhsilin, mədəniyyətin inkişafında mühüm rol oynamışdır. Arxiv sənədlərindən məlumdur ki, 1898-ci ildə bir qrup İrəvan ziyalısı Göy məscidə toplaşaraq məscidin nəzdində məktəb açmaq qərarına gəlirlər və bu məktəbin maliyyələşdirilməsini öz üzərlərinə götürürlər.

Mehri rayonunun Nüvədi kəndində bir neçə abidə qeydə alınmışdır. Bunlardan biri Anqizet qəbiristanlığında Şeyx oğlu Şeyx Mirinin başdaşıdır (h..700–1300-1301-ci ildə vəfat etmişdir). Digəri quş fermasının yerində Orta əsr qəbiristanlığı bir başdaşı qeydə alınmışdır. Üzərində dəfn olunanın adı qalmışdır – Qəni Tax. Kitabəni kufi xəttinə görə XIII əsrə aid etmək olar. Nüvədi kənd qəbiristanlığında h.1244–1828-29-cu il Əbdülkərim, h.1281–1864-65-ci il Məsumənin yerli daşdan və mərmərdən hazırlanmış başdaşları mövcud idi.

Zəngəzur dağlarında Baba Hacı türbəsi var. Hündürlüyü 3,50 metrdir. Planı xaricdən dairəvi, içəridən 16 bucaqlı (4,70x4,70 m), divarın eni 1,14 m. İçəridəki qəbirlər malalanıb, xaricdə baş daşılar üzərində h.932–1525-26-cı il və h.995=1586-87-ci il tarixləri yazılıb. Demək Baba Hacı türbəsi daha əvvələ aiddir. Ətrafda böyük qəbiristanlıq olmuşdur.

Zəngəzurun Ələyaz kəndində Əxi Təvəkkül türbəsi var. Əxi Təvəkkül Məhərrəm ayı h.950–1543-cü ildə şəhid olmuşdur. Türbə uçub dağılmış, Əxi Təvəkkülün başdaşı qalmışdır. Əxi cəmiyyəti orta əsrlərdə sənətkarları birləşdirmişdi.

1915-ci ildə İrəvan quberniyasının ərazisində 382 şiə, 9 sünni məscidi, Zəngəzurda 38 məscid fəaliyyət göstərirdi. İrəvan quberniyasında məscidlərin sayının artma dinamikası belə idi: 1904-cü il - 201; 1911-ci il - 342; 1915-ci il – 382 məscid. Qeyd etməliyik ki, Çar Rusiyası dövründə məscid açmaq elə də asan iş deyildi. Bunun üçün qubernatorun və canişinin xüsusi icazəsi lazım idi. Məscidlərin sayının artım dinamikası müsəlman əhalisinin sürətlə artmasından və bu ərazidə ruhanilərin bütün təzyiqlərə və ciddi nəzarətə baxmayaraq, böyük siyasi quvvə olduğundan və iradəsindən xəbər verir.

Məscid Zəngəzurun Şəki, Vaqudi, Mərdhuz, Qarraq, Saldaş, Karkyal, Ağbəs, Ağbağ, Hacıəmi, Ballıqaya, Kərkəs, Çərəli, Xardcmaqlı, Dəstəyird, Qalacıq, 1-ci Cicimli, 2-ci Cicimli, Qaroaçarlı, Seyidlər, Mollalar, Təzə Kilsə, Nərcan, Zor, Əfəndilər, Pasan, Xurtekes, Hacıqəmbər, Qarabağlar, Dəmirçilər, Dondarlı, Kurdaluq, Ulaclı, Saraclı, Dərzili, Oxçü, Kaqlar, Yuva kəndlərində fəaliyyət göstərirdi (Вафа Кулиева. Роль и позиция мусульманского духовенства в социально-политической и культурной жизни Азербайджана в конце XIX – начале XX вв. в ракурсе армяно-азербайджанских политических отношений Баку 2003, стр.183. ГИА ф.290, опись.2, дело № 756, лл.23, 49, 53). O vaxtlar prixod məscidləri kənd soveti rolunu oynayırdı. Burada anadan olanların, ölənlərin, evlənənlərin, boşananların uçotu aparılırdı. Hər prixodun mollası var idi və o, qubernator tərəfindən təyin olunurdu. Ümumən XIX əsrin sonunda İrəvan quberniyasında 233 şiə və 14 sünni məscid prixodları fəaliyyət göstərirdi.

İrəvan şəhərində XX əsrin əvvəlinə kimi Qədim Şəhər məscidi, Came məscidi, Hacı Novruzəlibəy məscidi, Hacı İmamverdibəy məscidi, Mirzə Səfibəy məscidi, Hacı Cəfərbəy məscidi fəaliyyət göstərirdi. İrəvanın Came məscidi kompleksində iri mədrəsə binası da mövcud idi. Binanın möhtəşəmliyi Qərbi Azərbaycanda tədrisin, elmin inkişafından xəbər verir. Bu cür komplekslərə Bakıda İçərişəhərdə və Dərbənddə rast gəlinir.





Azərbaycanlıların bu regionda köklü xalq olduğunu toponimlər – yer adları bir daha sübut edir. Toponimlər hansısa etnosun konkret coğrafi məkanda təşəkkülünü göstərən ən tutarlı sənəddir. Ona görə də ermənilər əraziləri azərbaycanlılardan təmizlədikcə ilk növbədə yer adlarını dəyişdirirlər. Demək olar ki, bütün toponimlər erməniləşdirilib. Adını çəkdiyimiz Urud – Oront, Cəfərabad – Arqavanq, Zeyvə – Metsamor və s. adlandırılıb. Bu da azərbaycanlıların bu torpaqlarda tamamilə izlərinin itirilməsi məqsədini güdür. Əslində, bu, Ermənistan Respublikasının dövlət siyasəti statusuna qaldırılmışdır.

Zəngəzurun Pir Davudan kəndində XIX əsrin sonunda 8-ci imam Rzanın nəvəsi Mir Davudun məqbərəsi var idi. Qara Vəli kəndində 7-ci imam Museyi Kazımın oğlu Seyid Əhmədin məqbərəsi yerləşirdi. Hal-hazırda dağıdılıb.

Mənbələrə əsasən demək olar ki, 1919-cu ildə İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında azərbaycanlılar əhalinin 72,3 faizini, Sürməli qəzasında 96 faizini, İrəvan qəzasında 60,2 faizini, Milistan və Vedibasar mahallarında 90 faizini... təşkil edirdilər (Вафа Кулиева. Указ соч. стр.212).

İrəvan məscidlərinin quberniyanın müxtəlif yerlərində vəqf əmlakları yerləşirdi. Bu, əsasən torpaq sahələri, dükanlar idi. Sənədlərdən göründüyü kimi, vəqf əmlaklarının sərhəd olduğu torpaqlar azərbaycanlılara məxsus idi. Bu da öz növbəsində bu regionda azərbaycanlıların çoxluq təşkil etdiyindən xəbər verir.

Böyük təəssüf hissi və ürək ağrısı ilə qeyd etmək lazımdır ki, hazırda bütün bu abidələr dağıdılıb.

Qarabağda yerləşən abidələr də ermənilər tərəfindən kütləvi surətdə dağıdılıb. Ermənilər çalışırlar ki bu yolla öz aqressiv siyasətlərinə haqq qazandırsınlar. Eyni zamanda, dünya ictimaiyyətinin nəzərini başqa istiqamətə yönəltmək məqsədi ilə azərbaycanlıların Naxçıvanda erməni qəbiristanlıqlarını dağıtması haqqında cəfəng məlumatlar yayırlar.

Dağlıq Qarabağ ərazisində yerləşən alban-xristian abidələri ermənilər tərəfindən mənimsənilir və erməni mədəni irs kimi təqdim edilir. Bu haqda rus, erməni, Avropa dillərində "əsərlər" çap olunur. (Samvel Karapetyan. Памятники армянской культуры в зоне Нагорного Карабаха. 2000 г.; Шаген Мкртчян. Сокровища Арцаха. Ереван, 2000 г.).

Lakin Qarabağ ərazisində yaxın zamanlara qədər külli miqdarda xanəgahlar, türbələr, pirlər, monumental tikililər, Orta əsr qəbiristanlıqları, məscidlər və s. müsəlman abidələri mövcud idi.

Məhv olmuş abidələrin üzərində olan yazılar memarların, alimlərin, xəttatların, nəqqaşların, sufi şeyxlərinin, Azərbaycanda memarlıq məktəblərinin banilərinin adlarını aşkarlayır. Həkəri çayının hövzəsində yerləşən bir sıra türbələr öz memarlıq-konstruktiv formasına görə seçilir. Bunlardan Zəngilan rayonunun Məmmədbəyli kəndində yerləşən Yəhya ibn Məhəmməd türbəsini, Cəbrayıl rayonunun Şıxlar kəndində yerləşən Şıxbaba türbəsini (XIV əsr) misal göstərmək olar. Ətrafda Orta əsr qəbiristanlığı yerləşir. Türbədən bir qədər aralı Şeyxzadə Şeyx abd as-Salam ibn Şeyx Qiyas əd-Dinin (h.759 – 1358-ci il) məzarı yerləşirdi. Yaxınlıqda həmçinin şeyxin davamçılarının məzarları üzərində başdaşları var idi. Yazıların mətninə, paleoqrafik xüsusiyyətlərinə, bədii tərtibatına görə, Şıxbaba xanəgahının Qədiriyyə Sufi Cəmiyyətinə aid olduğu müəyyənləşdirilmiş və fəaliyyət dövrü XIII-XIV əsrlərə aid edilmişdir.

Bu ərazilərdə XIV-XIX əsrlərə aid sənduqələr, başdaşı formalı qoç, at heykəlli məzar daşları ərəb, fars və Azərbaycan dilli yazılarla Azərbaycan xalqının həyat və məişətinin müxtəlif tərəflərini əks etdirir. Bunlar, həmçinin xalqın tarixinə, toponimikasına, təbabətinə, etnoqenez məsələlərinə aydınlıq gətirməklə, Azərbaycanın Orta əsr mədəni həyatına dair bir sıra məsələləri işıqlandırır.

Qarabağın Laçın rayonunun Malıbəyli kəndində aşkarlanmış üç at heykəlli qəbir daşında (XVI-XVII əsrlər) və Armazisxevidə yerləşən (XIV əsr) at heykəlli abidənin bud tərəfinə həkk olunmuş Oğuz türk tayfalarına məxsus tamqalar – üç horizontal və bir vertikal xətt maraq doğurur. Qarabağ abidələrindəki epiqrafik məlumatlardan və təsviri incəsənət motivlərindən Cənubi Qafqazda Azərbaycan xalqının təşəkkülündə mühüm rol oynamış qədim türk tayfalarının məskunlaşma arealını müəyyən etmək olur.

Laçın rayonunun Malıbəyli, Güləbird kəndlərində at heykəlli qəbir daşlarında Günəş simvolunun və əlində quş tutmuş insanın təsvirləri var. Məlumdur ki, qədim türk xalqlarının tanrısı Humay quşu idi. Bunun abidələrin üzərində təsvir olunması, güman ki, onları dağılmaqdan qorumaq məqsədi daşıyırdı.

Epiqrafik abidələr Qarabağda gedən tikinti işlərindən, Elxanilər dövründən və Qarabağ xanlarının mədəni-maarif fəaliyyətindən xəbər verir.

Bu abidələr sırasına Füzuli rayonunun Babı kəndində yerləşən səkkizguşəli Şeyx Babi Yaqub (XII əsr) türbəsini aid etmək olar.

Bərdədə bir türbə və Axsadanbaba türbəsinin bünövrəsinin qalıqları qalıb. Bu, memar Əhməd bin Eyyub əl-Hafiz an-Naxçıvaninin işidir.

Cəbrayıl rayonunda köhnə qəbiristanlıqda yazının bir parçası aşkar olunub. Həmin yerdə, yolun qırağında iki başdaşı aşkarlanıb. Başdaşıların yuxarı hissəsində heyvan təsvirləri var – dağ keçiləri və Qobustanda, Abşeronda olan qayaüstü təsvirləri xatırlayan müxtəlif tamqalar həkk olunub.

Cəbrayıl rayonunda Diridağ platosunda Orta əsr qəbiristanlığı yerləşir. Orada dağılmış türbə binası var. Türbənin ətrafında müxtəlif bədii formaya malik qəbir daşları qalıbdır. Onlardan ikisi qoç heykəllidir və Azərbaycanın digər dağətəyi rayonlarında mövcud olmuş abidələrin analogiyasıdır.

Ağdamın rayon mərkəzində "İmarət" adlanan memarlıq kompleksində XVI əsrə aid Orta əsr qəbiristanlıqlarından yığılmış sənqudə formalı qəbir daşları cəmlənmişdir.

Laçın rayonunda Ağoğlan məbədinə gedən yolun sağında XVI əsrin at heykəlli və sənduqə formalı qəbir daşları var idi.

Füzuli rayonunun Əhmədallar kəndində, Orta əsr qəbiristanlığının yerində sənduqə formalı qəbir daşı qalmışdı (1024 – h.1615 il). Qarğabazar kəndindəki, Şah Abbas karvansarasından yuxarı, qayanın üstündə Qiyasəddin məscidi durur. Yerli əhali onu "Şah Abbas" məscidi adlandırırdı. Kənddə yerləşən bulağın üzərində üç sətirlik ərəbdilli yazı var idi. Yazıda deyilirdi ki, bulağı 1305-ci ildə Gəncəli Əmir Qarğabazarlının oğlu tikdirib.

Qarabağ xanı Pənahəli xanın mərmər başdaşısı Ağdamda yerləşən türbəsindən Azərbaycan Tarix muzeyinə köçürülüb.

Laçın rayonunun Cicimli kəndində 1790-1791-ci ildə çaylaq daşından düzbucaqlı planda tikilmiş məscid binası mövcud idi.

Şuşa şəhərində memar Kərbəlayi Səfi xan Qarabağlı tərəfindən inşa edilmiş iki məscid və iki mədrəsə binası var. Bu haqda məlumatı məscidin üzərindəki kitabə xəbər verir. Memarın adına Füzulidə yerləşən məscidin, Bərdə və Ağdamda olan məscidlərin, Şuşa şəhərinin bir sıra məhəllə məscidlərinin üzərində də rast gəlmək olar. Bütün bu abidələr XIX əsrin ikinci yarısına aiddir.

Bu unikal tarixi məlumatlarla Azərbaycan tarixşünaslığını görkəmli epiqrafçı alim, AMEA-nın müxbir üzvü Məşədixanım Nemət zənginləşdirib. (М.С.Неймат. Надписи Джума-мечети, находится в г. Шуше. Изв.АН.ССР, Серия общественных наук. №1, 1961 г., с.47, 58 на аз.яз.; ее же. Эпиграфические памятники Карабаха. С-1 «Азербайджан и азербайджанцы», №11-12, 2002 г.; Р.Гарабаглы. Архитектор Кербалаи Сафихан Гарабаги. Баку, 1994, сс.18-24, 30-35, 40-57).

XIX əsrin sonlarında Şuşada 17 məscid fəaliyyət göstərirdi. Bunlar: Yuxarı və Aşağı came məscidləri, Təzə məhəllədə təmir olunmuş məscid, Malıbəyli, Gulablı, Şelli, Yusifcanlı, Mərəzəli, Xəzəristan, Ləmbəran, Ağcabədi, Xəlil Fəxrəddinli, Xunaşın, Qərar kəndlərində fəaliyyət göstərən məscidlərdir. Şuşa muzeyində Hacı Yusifli, Heydəri, Hamam, Culfa, Məriyanlı, Rahatlı, Dəmirçi, Hacı Mircanlı, Çoluçağa, Məhəli, Çuxur, Quyluq, Dördlər qurdu, Qapan kəndlərində də məscidlər var idi (ГИА, ф.290, опись.24, дело 124, лл. 5, 6).

1828-ci ildə Azərbaycana köçürülmüş ermənilər hələ sovet hakimiyyəti zamanı yaşadıqları Ordubadın Der kəndində azərbaycanlılara məxsus Orta əsr qəbiristanlığını erməni qəbiristanlığına çevirmişlər.

Şamaxının Kəlaxana kəndində yaşayan Qriqorian ermənilər XIV-XVII əsr qəbiristanlığında sənduqə formalı məzar daşlarını dağıdıb yerində üzüm bağları salmışdılar.

Əmircan kəndindəki Nizaməddin məscidinin portalındakı kitabə üzərindəki yazılar pozulmuş və sonradan bərpa olunmuşdur.

Bərpa idarəsində işləyən erməni inşaatçı ustalar Bakıda, İçərişəhərdə yerləşən Came məscidi kompleksində olan mədrəsə kitabəsini torpağa basdırmış, Came məscidi bünövrəsindəki Şirvan ordusunun baş komandanı şəhid Əbu Yaqub Yusifə həsr olunmuş kufi yazılı xatirə lövhəsini ovub, oxunmaz hala salmış, İçərişəhər qala divarında "Daşnaksütyun" partiyasının emblemini həkk etmişlər.

Ümumiyyətlə, son 200 ildə Azərbaycan xalqı, onun maddi-mədəniyyət abidələri ermənilər tərəfindən soyqırımına məruz qalmışdır. İşğaldan sonra gözümüzün önündə canlanan mənzərə bizə dərin şok yaşatdı. Azərbaycanın 20 faiz ərazisini işğal etmiş məkirli düşmən 30 ildə daşı-daş üstündə qoymamışdır.

Mənəvi soyqırım fiziki soyqırımından daha dəhşətlidir. Nə qədər ağır olsa da, insan itkisi zaman keçdikcə öz yerini doldurur, amma mənəviyyata vurulan zərbə birdəfəlik olur, ömür boyu unudulub, yaddan çıxmır. Mənəvi soyqırım bir xalqın keçmişinin, kökünün, əcdadının, tarixi yaddaşının itirilməsi deməkdir. Mən inanıram ki, qədim tarixə, zəngin mədəniyyətə malik olan Azərbaycan xalqı qazandığı tarixi Qələbədən sonra azad olunmuş ərazilərdə tarixi yaddaşı olan mədəniyyət abidələrinin imkan daxilində bərpasına çalışacaq, bu sahədə də öz qüdrətini bir daha dünyaya nümayiş etdirəcəkdir.

***Vəfa QULİYEVA,***
***tarix elmləri doktoru***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 119**

**Bakı şəhəri, 5 mart 2024-cü il**

***“Azərbaycan Respublikası Prezidentinin “Veteranlar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2021-ci il 23 aprel tarixli 296-VIQD nömrəli Qanununun tətbiqi haqqında” 2021-ci il 17 iyun tarixli 1365 nömrəli, “Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2021-ci il 23 aprel tarixli 295-VIQD nömrəli Qanununun tətbiqi haqqında” 2021-ci il 17 iyun tarixli 1366 nömrəli, “Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən mənzillərin satışı və satışdan əldə olunan vəsaitdən istifadə Qaydası”nın təsdiq edilməsi haqqında” 2022-ci il 11 aprel tarixli 1661 nömrəli və “Sosial sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2022-ci il 9 dekabr tarixli 680-VIQD nömrəli Qanununun tətbiqi və “Sosial sığorta haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 7 aprel tarixli 568 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” 2022-ci il 28 dekabr tarixli 1941 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 15 dekabr tarixli 2395 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikası Prezidentinin “Veteranlar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2021-ci il 23 aprel tarixli 296-VIQD nömrəli Qanununun tətbiqi haqqında” 2021-ci il 17 iyun tarixli 1365 nömrəli, “Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2021-ci il 23 aprel tarixli 295-VIQD nömrəli Qanununun tətbiqi haqqında” 2021-ci il 17 iyun tarixli 1366 nömrəli, “Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən mənzillərin satışı və satışdan əldə olunan vəsaitdən istifadə Qaydası”nın təsdiq edilməsi haqqında” 2022-ci il 11 aprel tarixli 1661 nömrəli və “Sosial sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2022-ci il 9 dekabr tarixli 680-VIQD nömrəli Qanununun tətbiqi və “Sosial sığorta haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 7 aprel tarixli 568 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” 2022-ci il 28 dekabr tarixli 1941 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 15 dekabr tarixli 2395 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Müharibə veteranlarının reyestrinin aparılması Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 5 avqust tarixli 280 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 8, maddə 969 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

**2.** “Şəhid və şəhid ailəsi statusu almış şəxslərin reyestrinin aparılması Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 5 avqust tarixli 281 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 8, maddə 970 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

**3.** “Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən mənzillərin hərrac vasitəsilə satışı Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 24 sentyabr tarixli 371 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1104 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

**4.** “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində fəaliyyət göstərən sığortaedənlər (sığortaolunanlar) tərəfindən ödənilmiş məcburi dövlət sosial sığorta haqlarının dövlət büdcəsinin vəsaiti hesabına subsidiyalaşdırılması şərtləri, subsidiyaların ödənilməsi və bu sahədə nəzarətin həyata keçirilməsi Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 8 dekabr tarixli 445 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 12 (II kitab), maddə 1780 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 120**

**Bakı şəhəri, 5 mart 2024-cü il**

***“Azərbaycan Respublikası Prezidentinin “Reklam haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2017-ci il 30 iyun tarixli 755-VQD nömrəli Qanunun tətbiqi və “Reklam haqqında” Azərbaycan Respublikasının 2015-ci il 15 may tarixli 1281-IVQ nömrəli Qanununun tətbiqi və “Reklam haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 noyabr tarixli 644 nömrəli Fərmanının ləğvi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 14 iyul tarixli 554 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə” 2017-ci il 31 iyul tarixli 1568 nömrəli, “Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2017-ci il 15 dekabr tarixli 947-VQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikasının 1999-cu il 25 iyun tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 4 avqust tarixli 176 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında” 2017-ci il 29 dekabr tarixli 1775 nömrəli və “Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2017-ci il 15 dekabr tarixli 918-VQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikasının Mülki Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 386 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” 2018-ci il 5 fevral tarixli 1807 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 15 dekabr tarixli 2398 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikası Prezidentinin “Reklam haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2017-ci il 30 iyun tarixli 755-VQD nömrəli Qanununun tətbiqi və “Reklam haqqında” Azərbaycan Respublikasının 2015-ci il 15 may tarixli 1281-IVQ nömrəli Qanununun tətbiqi və “Reklam haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 noyabr tarixli 644 nömrəli Fərmanının ləğvi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 14 iyul tarixli 554 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə” 2017-ci il 31 iyul tarixli 1568 nömrəli, “Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2017-ci il 15 dekabr tarixli 947-VQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikasının 1999-cu il 25 iyun tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 4 avqust tarixli 176 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında” 2017-ci il 29 dekabr tarixli 1775 nömrəli və “Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2017-ci il 15 dekabr tarixli 918-VQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikasının Mülki Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 386 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” 2018-ci il 5 fevral tarixli 1807 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 15 dekabr tarixli 2398 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Açıq məkanda reklam fəaliyyətinin tənzimlənməsi ilə bağlı bir sıra məsələlər haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 26 dekabr tarixli 598 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (II kitab), maddə 2543 (Cild I) 5-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

“5. Bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilən sənəddə dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə”nin 3.5-ci bəndinə uyğun edilə bilər.”.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 6 iyun tarixli 253 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1352 (Cild I) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin tələblərinin pozulmasına görə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən tətbiq edilən cərimələrdən (o cümlədən, onun tərəfindən inzibati xəta haqqında protokol tərtib edilərək baxılması üçün məhkəməyə göndərilən inzibati xətalar haqqında işlər üzrə tətbiq edilən cərimələrdən) toplanan və həmin orqanın hesabına köçürülən vəsaitdən istifadə Qaydası”nın “Qeyd” hissəsi ləğv edilsin.

**3.** “Tikintisi başa çatmayan binanın yerləşdiyi torpaq sahəsində müvafiq tərkib hissələrin bağlı olduğu payların nisbətini müəyyənləşdirən bölünmə planının razılaşdırılması Qaydası”nın təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 27 dekabr tarixli 568 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (II kitab), maddə 2758 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 122**

**Bakı şəhəri, 6 mart 2024-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Dövlət büdcəsindən maliyyə yardımı və ya investisiyayönümlü təxsisat alan, habelə dövlət zəmanəti ilə alınmış borc da daxil olmaqla, dövlət büdcəsi qarşısında öhdəliyi olan hüquqi şəxslərin xarici və ya daxili borclanmasını tənzimləyən Qaydalar”ın təsdiq edilməsi barədə” 2010-cu il 28 iyul tarixli 143 nömrəli, “Azərbaycan Respublikası Mərkəzi Bankının normativ xarakterli aktlarının hazırlanması və qəbul edilməsi Qaydası”nın təsdiq edilməsi barədə” 2011-ci il 11 noyabr tarixli 184 nömrəli və “Vergi ödəyicilərində nağd pul vəsaitinin uçotu və kassa əməliyyatlarının aparılması Qaydası”nın təsdiq edilməsi haqqında” 2020-ci il 30 sentyabr tarixli 365 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 6 iyul tarixli 934-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Dövlət büdcəsindən maliyyə yardımı və ya investisiyayönümlü təxsisat alan, habelə dövlət zəmanəti ilə alınmış borc da daxil olmaqla, dövlət büdcəsi qarşısında öhdəliyi olan hüquqi şəxslərin xarici və ya daxili borclanmasını tənzimləyən Qaydalar”ın təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 28 iyul tarixli 143 nömrəli Qərarının (Azərbaycan Respub-likasının Qanunvericilik Toplusu, 2010, № 7, maddə 708 (Cild I) 2-ci hissəsinin birinci abzasından “və Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasına” sözləri çıxarılsın.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 11 noyabr tarixli 184 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 11, maddə 1066 (Cild I) ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Mərkəzi Bankının normativ xarakterli aktlarının hazırlanması və qəbul edilməsi Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.2-ci bənddə “bütün banklar, bank olmayan kredit təşkilatları” sözləri “nəzarət etdiyi bütün subyektlər” sözləri ilə əvəz edilsin;

2.2. 4.2-ci bənddə “Azərbaycan Respublikasının “Banklar haqqında” və “Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında” qanunlarına” sözləri “Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında” Azərbaycan Respublikasının Qanununa, habelə maliyyə bazarlarını tənzimləyən digər qanunlara” sözləri ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 sentyabr tarixli 365 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 9, maddə 1237 (Cild I) ilə təsdiq edilmiş “Vergi ödəyicilərində nağd pul vəsaitinin uçotu və kassa əməliyyatlarının aparılması Qaydası”nın 1.2-ci bəndində “və kredit təşkilatlarına” sözləri “, kredit təşkilatlarına və qanuna müvafiq olaraq ödəniş xidmətlərini həyata keçirən şəxslərə” sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 121**

**Bakı şəhəri, 5 mart 2024-cü il**

***“Azərbaycan Respublikası Prezidentinin “Daşınmaz əmlakın dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 13 fevral tarixli 999-VQD nömrəli Qanununun tətbiqi və “Daşınmaz əmlakın dövlət reyestri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 10 avqust tarixli 113 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə” 2018-ci il 20 fevral tarixli 1838 nömrəli, “Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2018-ci il 1 fevral tarixli 982-VQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında” Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 392-IVQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 sentyabr tarixli 695 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında” 2018-ci il 6 mart tarixli 1867 nömrəli, “Torpaq icarəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1154-VQD nömrəli Qanununun tətbiqi haqqında” 2018-ci il 11 iyun tarixli 138 nömrəli, “Milli məkan məlumatlarının formalaşdırılması və inteqrasiyası Qaydalarının təsdiq edilməsi haqqında” 2018-ci il 28 dekabr tarixli 448 nömrəli və “Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı bəzi məsələlər haqqında” 2019-cu il 19 mart tarixli 597 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 dekabr tarixli 2388 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikası Prezidentinin “Daşınmaz əmlakın dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 13 fevral tarixli 999-VQD nömrəli Qanununun tətbiqi və “Daşınmaz əmlakın dövlət reyestri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 10 avqust tarixli 113 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə” 2018-ci il 20 fevral tarixli 1838 nömrəli, “Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2018-ci il 1 fevral tarixli 982-VQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında” Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 392-IVQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 sentyabr tarixli 695 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında” 2018-ci il 6 mart tarixli 1867 nömrəli, “Torpaq icarəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1154-VQD nömrəli Qanununun tətbiqi haqqında” 2018-ci il 11 iyun tarixli 138 nömrəli, “Milli məkan məlumatlarının formalaşdırılması və inteqrasiyası Qaydaları”nın təsdiq edilməsi haqqında” 2018-ci il 28 dekabr tarixli 448 nömrəli və “Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı bəzi məsələlər haqqında” 2019-cu il 19 mart tarixli 597 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 dekabr tarixli 2388 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Tikinti obyektlərinin istismarına icazənin formaları”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 11 sentyabr tarixli 302 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 9, maddə 1126 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 2 dekabr tarixli 429 nömrəli Qərarı) 4-cü hissəsi ləğv edilsin.

**2.** “Bələdiyyələrin yazılı və ya elektron sorğuları əsasında daşınmaz əmlakın dövlət reyestrinin məlumatlarının verilməsi qaydası və bununla bağlı ödənişin miqdarı”nın təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 26 sentyabr tarixli 417 nömrəli Qərarının (Azərbaycan Respub-likasının Qanunvericilik Toplusu, 2018, № 9, maddə 1945 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

**3.** “Torpaq sahəsindən istifadənin iqtisadi əsaslandırılmasının Forması”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 30 noyabr tarixli 512 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 11, maddə 2459 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

**4.** “Ərazi Tikinti-Planlaşdırma Mərkəzinin göstərdiyi xidmətlərə görə ödənilən xidmət haqqı məbləğləri”nin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 10 yanvar tarixli 3 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 1, maddə 61 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

**Sosial**

## Ölkəmizin məşğulluq heyəti Mərakeşdə



***Dövlət Məşğulluq Agentliyinin nümayəndə heyəti Mərakeş Krallığının Mərakeş şəhərində keçirilən İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Dövlət Məşğulluq Xidmətləri Şəbəkəsinin (OIC-PESNET) 4-cü görüşündə iştirak edib. Bu barədə XQ-yə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən verilən məlumatda deyilir.***

Bildirilir ki, məclis OIC-PESNET Katibliyi, Statistik, İqtisadi və Sosial Araşdırmalar və Təlim Mərkəzi və Mərakeş Krallığının Məşğulluq və Bacarıqların Təşviqi üzrə Milli Agentliyi tərəfindən təşkil olunub. Əsas məqsəd İƏT-in əməyin təhlükəsizliyi və sağlamlığın qorunması üzrə şəbəkəsinin 2021–2022-ci illər üzrə İş Planı çərçivəsində həyata keçirilmiş fəaliyyətlərin nəticələri ilə tanış olmaq, 2024–2026-cı illəri əhatə edən yeni iş planını müzakirə etməkdir.

Agentliyin nümayəndələri tədbirdə qurumun fəaliyyəti və görülən işlər barədə məlumat verib. Həmçinin Azərbaycanın rəqəmsallaşma sahəsində qabaqcıl təcrübələrinin İƏT-ə üzv ölkələr ilə bölüşülməsi və əməkdaşlıq imkanlarının genişləndirilməsi istiqamətində müzakirələr aparılıb. Ümumilikdə Dövlət Məşğulluq Xidmətləri Şəbəkəsinin 4-cü görüşü İƏT-ə üzv ölkələrin Dövlət Məşğulluq Xidmətlərinin fəaliyyəti ilə bağlı müzakirələrə və bu sahə üzrə gələcək işlərin planlaşdırılmasına yönəlib.

Mərasimdə, eyni zamanda, İƏT-ə üzv ölkələrin Məşğulluq Xidmətlərinin institutsional inkişafına dəstək üçün “Dövlət Məşğulluq Xidmətləri üzrə Potensialın Gücləndirilməsi Proqramı” (PES-CaB) çərçivəsində yeni İş Planının müvafiq tematik sahələri ilə bağlı fikir mübadiləsi aparılıb.

## Qarabağda kadr təminatı

***Nazirlikdən həmçinin bildirilib ki, Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində Dövlət Məşğulluq Agentliyinin Şərgi Zəngəzur Regional Məşğulluq filialı tərəfindən “İşəgötürənlərin kadr ehtiyaclarının qarşılanması istiqamətləri” mövzusunda dəyirmi masa təşkil edilib.***



Qeyd edilir ki, görüşdə Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Şərqi Zəngəzur iqtisadi rayonu üzrə fəaliyyət göstərən işəgötürənlər və digər qurumların nümayəndələri iştirak edib.

Öncə iştirakçılara agentliyin fəaliyyəti ilə bağlı məlumat verilib. İşğaldan azad olunan ərazilərimizdə fəaliyyət göstərən işəgötürənlərin kadr ehtiyaclarının qarşılanması istiqamətləri, peşə hazırlığının təşklinin əhəmiyyəti və işğaldan azad olunmuş ərazilərdə hazırda icra olunan digər məşğulluq tədbirləri diqqətə çatdırılıb, bu mözvularda müzakirələr aparılıb. Həmin ərazilərə köçürülən vətəndaşların dayanıqlı məşğulluğunun təmin olunmasında işəgötürənlərin rolundan bəhs olunub.

Mərasimin sonunda işğaldan azad olunan ərazilərimizdə işəgötürənlərin kadr ehtiyaclarının qarşılanması üzrə görüləcək birgə işlər müzakirə edilib.

***Z.HÜSEYNOVA***
***XQ***

# Ərzaq təhlükəsizliyinin etibarlı su təminatı

**Mart ayının 13-14-də Bakıda ölkəmizlə yanaşı, bütün dünyada prioritet sahələrdən biri olan su təsərrüfatı üzrə beynəlxalq su təsərrüfatı sərgi və konfransı keçiriləcək. Bakı Su Həftəsi ("Baku Water Week") adlandırılan bu tədbir çərçivəsində 16 ölkədən 90-a yaxın şirkət iştirak edəcək.**



Bakı Su Həftəsinə həsr olunmuş mətbuat konfransında bildirilib ki, ölkəmizdə etibarlı su təchizatına nail olunması dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Respublikamızda belə bir önəmli tədbirin təşkil edilməsində də əsas məqsəd bu sahənin daha da inkişaf etdirilməsi üçün ölkəyə yeni texnologiyaların, avadanlıqların və investisiyaların cəlb edilməsi, eləcə də Qarabağın bərpası və yenidən qurulması yönündə içməli su təminatının gücləndirilməsi, bununla bağlı vacib məsələlərin, yeni layihələrin və əməkdaşlıqların müzakirəsidir.

Dünyanın bir sıra yeni qlobal çağırışlarla üz-üzə qaldığı indiki dövrdə su mənbələrinin çatışmazlığı da beynəlxalq aləmi ciddi narahat edir. Buna görə də hazırda etibarlı su təminatı, su ehtiyatlarından səmərəli şəkildə istifadə dünya ölkələri qarşısında duran strateji istiqamətdir. Azərbaycan da bu cəhətdən istisna deyil. Su ehtiyatlarının idarə edilməsi həm ekoloji baxımdan, həm də ölkənin su təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır. Bir sözlə, su təhlükəsizliyi, etibarlı və davamlı su təchizatına nail olunması Azərbaycanda dövlət siyasətinin prioritet sahələrindən birini təşkil edir.

Həyata keçirilən layihələrin nəticəsində ötən il Laçın şəhərinin yeni içməli və tullantı su şəbəkələri istismara verilib, Füzuli şəhərində yeni layihənin icrasına başlanılıb.

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin məlumatına əsasən, Şuşa şəhərinin içməli su təminatında dayanıqlığın artırılması məqsədilə Zarıslıçay nasos stansiyasının və mərkəzi su anbarının inşası başa çatdırılıb.

Ötən il Qazax şəhərinin içməli və tullantı su sistemləri istismara verilib, Yevlax və Balakən şəhərlərində layihələrin ilkin mərhələsi üzrə işlər yekunlaşdırılıb. Eyni zamanda, Gəncə, Mingəçevir, Şəki, Şirvan, Salyan, Neftçala şəhərlərində içməli və tullantı su şəbəkələrinin tikintisi davam etdirilib.

Neftçala şəhərinin və ətraf kəndlərin keyfiyyətli içməli su ilə təmin olunması məqsədilə Şirvan–Muğan qrup su kəmərindən Neftçala rayonuna 38 kilometr uzunluğunda ikinci magistral su kəməri çəkilərək istismara verilib. Neftçala rayonunun 11, Salyan rayonunun 6 kəndinin içməli su təchizatının yaxşılaşdırılması məqsədilə Şirvan-Muğan qrup su kəmərindən 3-cü magistral su kəmərinin inşasına başlanılıb. Ötən il kənd və qəsəbələrin içməli su təchizatının yaxşılaşdırılması məqsədilə İsmayıllı rayonunun 9, Hacıqabul rayonunun 8, Tovuz rayonunun 7, Qazax rayonunun 3, Ağstafa rayonunun 3 kəndində layihələr icra olunub.

2023-cü ildə Bakıətrafı kənd və qəsəbələrdə içməli və tullantı su şəbəkələrinin, Pirşağı Tullantı Sutəmizləyici Qurğusunun kollektorlarının tikintisi davam etdirilib.

Ümumilikdə, 2023-cü ildə 1 içməli və 5 tullantı sutəmizləyici qurğu, 4 suqəbuledici qurğu, 6 əks-osmos qurğusu, 30 su anbarı, 12 su və kanalizasiya nasos stansiyası inşa olunub. Eyni zamanda, 1037 kilometr içməli, 179 kilometr tullantı su xətləri çəkilib, 26 subartezian quyusu qazılıb. Görülmüş işlər nəticəsində 71 mindən çox abonent ilk dəfə mərkəzləşdirilmiş qaydada içməli su ilə təmin olunub.

Prezident İlham Əliyevin rəhbərliyi ilə son illərdə ölkəmizdə müəyyənləşdirilən təxirəsalınmaz tədbirlər çərçivəsində çoxsaylı layihələr həyata keçirilib, su ehtiyatlarından səmərəli istifadənin və su təsərrüfatı obyektlərinin idarə olunmasının təkmilləşdirilməsi, müasir tələblərə cavab verən meliorasiya və su təsərrüfatı obyektlərinin qurulması üçün ardıcıl işlər görülüb. Məsələn, ötən il dövlət başçısı tərəfindən Bakı şəhərinin və ətraf ərazilərin su təminatının yaxşılaşdırılması üçün dəniz suyunun duzsuzlaşdırılması yolu ilə içməli su istehsalı sahəsində pilot layihənin həyata keçirilməsi ilə bağlı sərəncam imzalanıb.

Ümumiyyətlə, reallaşdırılan tədbirlər nəticəsində su təsərrüfatı sistemində yüksək göstəricilər qeydə alınıb. Təkcə keçən il magistral kanallar üzrə su limitləri, respublikanin çayları üzrə suvarma dövründə rayonlararası su bölgüsü cədvəlləri hazırlanaraq aidiyyəti üzrə təsdiq edilib. Vegetasiya suvarması dövrünün əvvəlinə əsasən, su anbarlarında 13,3 milyard kubmetr həcmində su toplanılıb.

Respublikada suvarılan torpaqların deqradasiyasına qarşı mübarizə məqsədilə suvarılan torpaqlarda şorlasmanın, qrunt sularının səviyyəsinin və minerallaşma dərəcəsinin dəyişməsi üzərində nəzarət işləri aparılıb, həmin sahələrin meliorativ vəziyyəti qiymətləndirilib, meliorativ tədbirlərə ehtiyac duyulan torpaqlar müəyyənləşdirilib, onların yaxşılaşdırılması üzrə layihələr hazırlanıb, irriqasiya və meliorasiya sistemlərinin istismarı gerçəkləşdirilib.

Su anbarlarının iş rejimləri ciddi nəzarətə götürülüb, mütəmadi olaraq rejimlərdə operativ dürüstləşmələr aparılıb. Hesabat ilinin sonuna su anbarlarında 2020-ci ilə nisbətən 3,9 milyard, 2022-ci ilə nisbətən isə 2,2 milyard kubmetr artıq həcmdə su toplanılıb ki, bu da su qıtlığı şəraitində əkin sahələrinin su təminatına öz müsbət təsirini göstərməklə yanaşı, cari ilin suvarma mövsümü üçün daha nikbin proqnozlar vermaya əsas verir.

Suvarılan torpaqların su təminatının və meliorativ vəziyyətinin yaxşılaşdırılması məqsədilə suvarma va kollektor-drenaj şəbəkələrində 52,4 milyon kubmetr hecmində lildən təmizləmə işləri aparılıb, torpaq məcralı kanalların 58 kilometr hissəsi beton üzlüyə alınıb, 2,9 min hidrotexniki qurğu, 6,4 min subartezian quyusu, 291 nasos stansiyası təmir edilib. Çay məcralarında 10,4 milyon kubmetr həcmində məcratəmizləmə işləri aparılıb, daş-beton bəndlərdə təmir işləri yerinə yetirilib.

Hesabat ilində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının su təminatı məsələləri də diqqətdə saxlanılıb. Məsələn, Tərtər rayonunda sututumu 5,86 milyon kubmetr olan Suqovuşan su anbarında və 5,2 kilometr magistral kanalda, Ağdam rayonunda sututumu 23 milyon kubmetr olan Xaçınçay su anbarında və 7 kilometr magistral kanalda tikinti işləri başa çatdırılıb. Həmçinin Füzulidə ümumi sututumu 15,5 milyon kubmetr olan Köndələnçay üzərində 3 su anbarında və uzunluğu 20,2 kilometr, sərfi 20 kubmetr/saniyə olan Tərtərçay Sol Sahil kanalının yenidən qurulması üzrə kanalın 20,17 kilometr hissəsi betonla üzlənib, 1066 poqonometr uzunluğunda selötürən kanal tikilərək üzərində "SKADA" sisteminin quraşdırılması işləri tamamlanıb.

Ağdam, Füzuli və Cəbrayılın işğaldan azad olunan ərazilərində meliorasiya və su təsərrüfatı kompleksinin bərpası, habelə Qız qalası su anbarından uzunluğu 56 kilometr, sərfi 65 kubmetr/saniyə olan magistral kanalın, Laçın rayonunda sututumu 90,8 mln. kubmetr olan Həkəri çay və Qubadlıda sututumu 67 milyon kubmetr olan Bərgüşadçay su anbarlarının texniki-iqtisadi əsaslandırma və layihə sənədlərinin hazırlanması işləri aparılıb.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında olduğu kimi, respublikamızın digər ərazilərində də bu kimi tədbirlərin həyata keçirilməsi ilə suvarılan torpaqların su təminatının və meliorativ vəziyyətinin yaxşılaşdırılmasına, yeni suvarılan torpaqların istifadəyə verilməsi nəticəsində ölkə əhalisinin daxili istehsal hesabına çörək və ərzaq məhsulları ilə etibarlı təminatına, yaşayış məntəqələrinin, əkin sahələrinin, hidrotexniki qurğuların, həmçinin digər infrastruktur obyektlərin sel və daşqın sularının zərərli təsirlərindən mühafizəsi, çayların su ehtiyatlarının nizamlanması hesabına onlardan daha səmərəli istifadə edilməsinə geniş imkanlar yaranıb.

***Vaqif BAYRAMOV***
***XQ***

## Regionlara investisiya qoyuluşu 25 faiz artıb

**İqtisadiyyat naziri Mikayıl Cabbarov "X" sosial şəbəkəsindəki hesabında 2023-cü ildə Azərbaycan regionlarında əsas kapitala investisiyaların 2022-ci illə müqayisədə 25 faiz çox olduğunu bildirib.**



İqtisadiyyat naziri, həmçinin vurğulayıb ki, hesabat dövründə regionlara investisiya qoyuluşu 10,1 milyard manat təşkil edib.

## Qazlaşdırılan məntəqələrin sayı 2500-ü ötüb

**SOCAR-ın "Azəriqaz" İstehsalat Birliyindən aldığımız məlumata əsasən, Azərbaycanda 2004–2023-cü illər ərzində qazlaşdırılan yaşayış məntəqələrin sayı 2500-ü ötüb. Həmin müddətdə qazlaşdırılan məntəqələrin sayı 449-dan 2 503-ə çatıb, əhali abunəçilərinin sayı isə artaraq 2,5 min nəfərə yüksəlib.**



Məlumatda bildirilir ki, payız-qış mövsümündə istehlakçıların fasiləsiz qaz təminatı məqsədilə yeraltı qaz anbarlarına 1,9 milyard kubmetrə yaxın təbii qaz vurularaq 3 milyard kubmetrdan çox qaz ehtiyatı yaradılıb.

Xatırladaq ki, ötən il ərzində yeraltı qaz anbarlarının daha səmərəli istismarı və aktiv qaz həcmlərinin 3,5 milyard kubmetrə çatdırılması üçün yeni layihələr üzərində işlər davam etdirilib.

## "Azərişıq" istehlakçıları 3 milyona çatır




**"Azərişıq" ASC-nin məlumatına əsasən, ötən il bu qurum tərəfindən ölkə üzrə 19 milyard kVt-saat elektrik enerjisi istehlaka verilib. Hesabat dövründə istehlaka yönəldilən elektrik enerjisinə görə, yığım səviyyəsi 97,4 faiz təşkil edib.**

Məlumatda daha sonra bildirilir ki, ötən il "Azərişıq" üzrə elektrik enerjisinin itkiləri 8,6 faiz həcmində olub.

Qeyd olunub ki, adı çəkilən ASC tərəfindən 2023-cü ildə enerji sistemindəki paylayıcı şəbəkə təsərrüfatının inkişafı ilə bağlı müvafiq tədbirlər həyata keçirilib, ümumilikdə, müxtəlif gərginlikli 3478 kilometr kabel və hava xətləri çəkilib.

Hesabat ilində "Azərişıq" üzrə istehlakçıların sayı artaraq 2 milyon 946 min təşkil edib ki, bunlardan 2 milyon 760 min əhali istehlakçısının, 186 mini isə qeyri-əhali istehlakçısının payına düşüb.

***XQ***

## Azərbaycan elektromobillərə "yaşıl işıq" yandırıb



**Yaxın zamanlarda Azərbaycanda elektriklə işləyən avtomobillər üçün enerji doldurma məntəqələri quraşdırılacaq. Bu məsələ Prezident İlham Əliyevin "Elektrik mühərrikli nəqliyyat vasitələrindən istifadənin təşviq edilməsi haqqında" 7 mart 2024-cü il tarixli Sərəncamında öz əksini tapıb.**

Dövlət başçısının imzaladığı sənəddə qeyd olunur ki, karbon emissiyalarının azaldılmasında, enerji səmərəliliyinin yüksəldilməsində və nəqliyyat sənayesində innovasiyaların təşviqində elektrik mühərrikli nəqliyyat vasitələrinin rolunu nəzərə alaraq dayanıqlı və ekoloji cəhətdən təmiz nəqliyyat vasitələrindən istifadənin stimullaşdırılması daha təmiz və dayanıqlı nəqliyyat sisteminə keçidi sürətləndirmək üçün xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan, elektrik nəqliyyat vasitələrindən istifadənin genişləndirilməsini, zəruri infrastrukturun inkişafını, habelə ümumi nəqliyyat sisteminə inteqrasiyanı təmin edən normativ hüquqi bazanın formalaşdırılması zəruridir.

Məlum olduğu kimi, bu ilin noyabr ayında ölkəmizdə qlobal iqlim dəyişikliklərinin təzahürlərinə qarşı mötəbər beynəlxalq tədbir keçiriləcək. Bununla əlaqədar olaraq Prezident İlham Əliyevin məlum sərəncamı ilə 2024-cü il Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib. Heç şübhəsiz, bütün bunlar dünyanın prioritet elan etdiyi "yaşıl keçid" platformasına ölkəmizin verdiyi ilkin töhfələrdir. Elə dövlət başçısının sərəncamında da qeyd olunduğu kimi, COP29-un Azərbaycanda keçirilməsi, Azərbaycanın 2030-cu ilədək sosial-iqtisadi inkişafa dair milli prioritetlərindən birinin "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilməsi, 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi bu sahədə aparılan məqsədyönlü və ardıcıl dövlət siyasətinin təzahürüdür.

Ölkəmizdə elektromobillərdən istifadənin təşviqini nəzərdə tutan sərəncam da bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Sözügedən sənədə əsasən, Nazirlər Kabineti elektrik mühərrikli nəqliyyat vasitələrindən istifadənin və elektrik enerjisi doldurma məntəqələrinin əhatə dairəsinin genişləndirilməsi, həmin məntəqələrin yaradılması işlərinə sahibkarlıq subyektlərinin cəlb edilməsi məqsədilə normativ hüquqi aktların təkmilləşdirilməsi ilə bağlı təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etməlidir. Bununla yanaşı, hökumət Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin, Azərbaycan Respublikası Energetika Nazirliyinin, "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin və "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin təklifləri əsasında elektrik enerjisi doldurma məntəqələrinin quraşdırılması üçün yerləri bir ay müddətində müəyyən eməli, elektrik enerjisi doldurma məntəqələrinin quraşdırılması, zəruri infrastrukturun yaradılması, habelə həmin məntəqələrin dayanıqlı elektrik enerjisi ilə təchiz edilməsi üçün "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti və "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti tərəfindən müvafiq tədbirlər görülməsini təmin etməlidir.

Yeri gəlmişkən, ekspertlər hesab edirlər ki, yaxın illərdə Azərbaycanda elektriklə işləyən avtomobillərdən istifadə geniş vüsət alacaq. Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin Bərpa olunan enerji mənbələri ərazilərinin inkişafı şöbəsinin müdir müavini Sahib Xəlilov bildirib ki, bu il ərzində ölkəmizdə elektromobilliklə bağlı geniş proqram təsdiq olunacaq. Onun sözlərinə görə, 2025-ci ildən sonra Azərbaycanda elektrik avtomobillərin istifadəsi sahəsində sıçrayış baş verəcək.

Qeyd edək ki, 2024-cü ilin ilk ayında Azərbaycana 9 milyon 663 min dollar dəyərində 239 ədəd elektromobil idxal olunub. Dövlət Gömrük Komitəsinin bununla bağlı hesabatına əsasən, ötən ilin eyni dövrü ilə müqayisədə elektromobillər dəyər ifadəsi ilə 4 milyon 725 min dollar və ya 95,7 faiz, miqdar ifadəsi ilə 120 ədəd və ya iki dəfə artıb.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

### Ekspert rəyi



**Ərşad HÜSEYNOV, nəqliyyat üzrə ekspert**

Prezident İlham Əliyevin məlum sərəncamı Azərbaycanda elektromobillərin kütləviləşməsinin, onlardan geniş istifadə olunmasının qarşısında duran maneələrdən birinin aradan qaldırılmasına yönəlib. Həmin maneə isə ölkəmizdə elektromobillərin elektrik enerjisi ilə doldurulması şəbəkəsinin azlığı ilə bağlıdır. Hazırda belə məntəqələrə yalnız Bakı şəhərinin bəzi yerlərində rast gəlmək mümkündür. Rayonlarımızın əksəriyyətində isə bu şəbəkələr, demək olar ki, yoxdur. Bu səbəbdən də elektriklə işləyən avtomobillərdən istifadə edənlər konkret olaraq uzaq məsafələrə səyahət etməkdə çətinlik çəkirlər. Rayonlarda yaşayanlar isə, demək olar ki, elektromobillərdən istifadə etmirlər. Düşünürlər ki, elektromobil alsalar, rayonda onu istismar edə bilməyəcəklər. Bu olduqca aktual problemdir. Çünki Azərbaycan təkcə Bakı şəhərindən ibarət deyil. Avtomobilləşmə prosesinə ölkənin hər yerində eyni şəkildə yanaşılmalıdır.

Elektromobillərin populyarlaşması ölkəmizdə 2018-ci ildə qəbul olunmuş "Yol hərəkətinin təhlükəsizliyinə dair Dövlət Proqramı"nda nəzərdə tutulmuş vacib bir istiqamətin tərkib hissəsidir. Həmin istiqamət də ondan ibarətdir ki, ölkəmizin kifayət qədər köhnə olan avtomobil parkını müəyyən tədbirlər hesabına tədricən yenilənməsinə ehtiyac var.

Bunun üçün Azərbaycanda artıq utilizasiya ilə bağlı qanunvericilik qəbul olunub. Bununla yanaşı, elektromobillərin ölkəyə idxalı ilə bağlı çoxsaylı güzəştlər müəyyən olunub. Həmin güzəştlərə əlavə dəyər və aksiz vergilərindən azadolunma, hətta gömrük rüsumunun sıfır səviyyəsində hesablanması kimi mühüm tədbirlər daxildir. Eyni zamanda 2021-ci ildə Vergi Məcəlləsinə edilən dəyişikliklərə əsasən, elektrik mühərrikli avtomobillərin şarj edilməsi üçün tələb olunan ikinci və üçüncü səviyyəli doldurma avadanlıqları, eləcə də onların Azərbaycana idxalı və ölkə ərazisində satışı 3 il müddətinə, 2025-ci il yanvarın 1-dək əlavə dəyər vergisindən azad olunmuşdu.

Yeni sərəncamda o da nəzərdə tutulur ki, sahibkarlıq subyektlərinin marağının artırılması, bu işin təkmilləşdirilməsi üçün qanunvericiliyə müvafiq dəyişikliklər edilsin. Böyük ehtimalla Vergi Məcəlləsində də yeni güzəştlər müəyyənləşdirilə, sahibkarlara daha əlverişli şərtlərlə kreditlərin verilməsi məsələsi ortaya çıxa bilər. Bu sahədə fəaliyyət göstərən sahibkarlara elektrik enerjisinin ucuz qiymətə satılması məsələsini də ehtimal etmək mümkündür. Prezident sərəncamında diqqətçəkən məqam ondan ibarətdir ki, "AzərEnerji" və "Azərişığ"a elektrikdoldurma məntəqələri üçün yerlərin müəyyənləşdirilməsi, həmin obyektlərə elektrik verilişi xətlərinin çəkilməsi tapşırılır.

Elektromobillərin populyarlaşması, bu tip nəqliyyat vasitələrindən istifadə hazırda dünyada bir dəb halını alıb. Həmin dəb də ona yönəlib ki, daxiliyanma mühərrikli avtomobillərdən atmosferə atılan tullantıların miqdarını minimuma endirməklə planetimizdə daha dayanıqlı ekoloji vəziyyət yaradılsın. Yeri gəlmişkən, bu məsələ sərəncamda da xüsusi vurğulanır. Azərbaycan bu il COP29-a ev sahibliyi edəcək. Ölkəmiz bununla bəyan edir ki, bizim karbon emissiyalarının azaldılmasına töhfələrimiz təkcə sözdən ibarət deyil, bu sahədə praktiki işlər də görürük.

# Azərbaycan qlobal iqlim gündəliyinin ön cəbhəsinə çevrilir




**Bu ilin noyabr ayında Azərbaycanda dünyanın ən irimiqyaslı tədbirlərindən biri – BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29 keçiriləcək. İki həftə davam edəcək tədbir zamanı Bakı dünyanın mərkəzinə çevriləcək və 70-80 minə yaxın xarici qonağı qəbul edəcək. Bununla da respublikamız həm COP29-a evsahibliyi etməsi, həm də enerji siyasətindəki uğurları və proseslərə diplomatik yanaşması ilə bir daha böhrandan həllə gedən yolda mühüm rol oynayan dövlət adını alması faktını təsdiqləyəcək.**

Ümumiyyətlə, ölkəmizin COP29-a evsahibliyi etməsi respublikamızın beynəlxalq nüfuzu baxımından mühüm önəm daşıyır, baş verən proseslərə müşahidəçi yox, iştirakçı kimi qoşulduğumuzu dünyaya bir daha nümayiş etdirir. Əlbəttə, bununla bağlı məsuliyyətli məsələləri də Azərbaycan uğurla həll etməyə qadirdir.

Burada bir məqamı da xatırlatmaq istərdik. Ölkəmizdə belə bir mühüm tədbirin keçirilməsi artıq ənənə halını alıb. Çünki Ümummilli lider Heydər Əliyevin Azərbaycana yenidən rəhbərliyə başladığı vaxtdan indiyədək respublikamızda sabitlik, əmin-amanlıq bərqərar olub. Ölkəmizin COP29-a evsahibliyi etməsi ilə əlaqədar Azərbaycan Respublikası Prezidenti Administrasiyası və Ermənistan Baş nazirinin Ofisi arasında aparılan birbaşa danışıqların nəticəsi olaraq verilmiş birgə bəyanatda da Ermənistanın Azərbaycanın xeyrinə öz namizədliyini geri götürməsində də bu amil həlledici rol kimi qiymətləndirilib.

Azərbaycan COP29-a evsahibliyi etməklə qlobal iqlim dəyişikliyi istiqamətində dünyaya önəmli töhfələr verməyi, davamlı inkişaf məqsədlərinə nail olmağl qarşıya mühüm vəzifə kimi qoyub. Bir sözlə, enerji siyasətindəki uğurları, bərpaolunan enerji resurslarına sərmayə qoymaq istəyi və iqlim dəyişikliyi ilə mübarizə əzmi respublikamızın davamlı gələcək üçün atdığı addımların təzahürüdür. Beynəlxalq aləm Azərbaycanın bu platformada liderliyi gerçəkləşdirməsi ilə dünyada iqlim dəyişikliyi ilə mübarizədə birgə səylərin yaradılmasına töhfə verəcəyinə də əmindir.

Prezident İlham Əliyev fevralın 2-də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının icraçı katibi Saymon Stili qəbul edərkən bu barədə ətraflı söhbət açıb. Dövlətimizin başçısı beynəlxalq ictimaiyyətin yekdil mövqeyi ilə COP29-un Azərbaycanda keçirilməsi barədə qərarı ölkəmizə etimadın və hörmətin təzahürü kimi dəyərləndirib. Azərbaycan tərəfinin belə bir tədbirin uğurla keçirilməsi üçün bu təşkilatla və bütün BMT ailəsi ilə yaxından əməkdaşlıq etməyə hazır olduğunu vurğulayan ölkə rəhbəri respublikamızın beynəlxalq tədbirlərin təşkili üzrə zəngin təcrübəsinin olduğunu da diqqətə çatdırıb.

Dövlət başçısı söhbətində COP29-un ölkəmizdə keçirilən və ümumiyyətlə, dünyada miqyasına görə, ən çox iştirakçının qatıldığı tədbirlərdən biri olacağını, indidən həm təşkilati, həm də tədbirin mahiyyəti nöqteyi-nəzərindən bütün zəruri addımlar atıldığını, bu prosesə könüllülərin də yaxından cəlb olunacağını bildirib.

Prezident İlham Əliyev, həmçinin vurğulayıb ki, COP29-un Azərbaycanda keçirilməsi barədə qərar regional sülh gündəliyinin irəliləyə aparılması kontekstində əldə edilib və bu da ümumiyyətlə, COP-un tarixində yeni bir inkişafdır.

Bütün yuxarıda qeyd edilənləri ümumiləşdirib əminliklə deyə bilərik ki, COP29-un Azərbaycanda keçirilməsi ölkəmizin "yaşıl enerji"yə keçidinin sürətlənməsinə və bu sahədə beynəlxalq tərəfdaşlarla əməkdaşlığının daha da inkişafına təkan verəcək.

Azərbaycan həmişə çoxtərəfli diplomatiyaya mühüm əhəmiyyət verib və beynəlxalq təşkilatlarda, çoxtərəfli platformalarda daim fəal siyasət yürüdüb. Bu baxımdan Prezident İlham Əliyevin Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyi və bunun Hərəkata üzv dövlətlər tərəfindən yüksək qiymətləndirilməsi, ölkəmizin digər beynəlxalq təşkilatlarla da uğurlu əməkdaşlığı hər zaman xüsusi diqqət çəkib.

Yeri gəlmişkən, tədbirin ölkəmizdə gerçəkləşdirilməsi barədə yekdil qərar ötən il dekabrın 11-də Dubayda keçirilən COP28-in plenar iclasında qəbul edildikdən dərhal sonra bununla bağlı ölkəmizdə hazırlıq işlərinə başlanılıb. Pakistanlı ekspert, Avrasiya Əsri İnstitutunun direktoru İrfan Şahzad Təkalvi Azərbaycan mediasına müsahibəsində respublikamızın COP29 tədbirinə hazırlığını və sessiyanın uğurla həyata keçirilməsi üçün səylərini yüksək dəyərləndirib.

Pakistanlı ekspert ötən illərdə ölkəmizin bir sıra çoxtərəfli beynəlxalq tədbirləri uğurla təşkil etdiyini, təşkilati aparatın formalaşması sahəsində zəngin təcrübə qazandığını, eyni zamanda Azərbaycanın əsas faydalı qazıntı istehsalçısı və ixracatçısı olmasına baxmayaraq, qlobal iqlim dəyişikliyinin dünyaya təsirini azaltmaq üçün mühüm praktiki addımlar atdığını, bütün bunların nəticəsində COP28-in plenar iclasında respublikaya evsahibliyi hüququnun verilməsinin ədalətli olduğunu bildirib.

İrfan Şahzad Təkalvi COP29-un əsas mövzularından bəhs edərkən qarşıdakı sessiyada emissiyaların azaldılması və təmiz enerjiyə keçid ənənəsi kimi məsələlərə üstünlük veriləcəyinin gözlənildiyini diqqətə çatdırıb. Ekspert bundan başqa, iqlim maliyyəsinin də gündəmdə olduğunu xatırladıb.

Avrasiya Əsri İnstitutunun direktorunun Azərbaycanda "yaşıl enerji"nin inkişafı istiqamətində həyata keçirilən tədbirlər barədə fikirləri də diqqət çəkir: "Respublikanın təkcə öz istehlakı üçün deyil, həm də gələcək onilliklərə yönələn ixrac məqsədilə kifayət qədər qalıq yanacaq ehtiyatlarına malik bir ölkə üçün təmiz enerjiyə qlobal keçid istiqamətində atılan addımları təqdirəlayiqdir. Azərbaycan qazı bu qlobal dəyişikliyə töhfə verməklə bərabər, dünya üçün böyük əhəmiyyət kəsb edir. Ölkədə bərpaolunan enerji mənbələrinin kifayət qədər ehtiyatı var və bunu reallaşdırmaq zəruridir".

Azərbaycanın "yaşıl inkişaf"ına nail olmaq məqsədilə qısa müddətdə enerji sahəsində yeni qanunvericilik bazası yaradılıb, elektrik enerjisində bərpaolunan enerjinin payının artırılması və neft-qaz əməliyyatlarının, o cümlədən Səngəçal terminalının karbonsuzlaşdırılması üçün 2027-ci ilədək 8 sənaye miqyaslı elektrik stansiyasının istismara veriləcəyi nəzərdə tutulub. Həmçinin Xəzər dənizinin 157 qiqavat külək enerjisi potensialı əsasında "yaşıl elektrik enerjisi" və "yaşıl qaz"ların ixracı məqsədilə Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstanı əhatə edən "yaşıl enerji dəhlizi"nin icrasına başlanılıb. ABŞ ilə bu enerji dəhlizi üzrə əməkdaşlıq imkanları da nəzərdən keçirilib.

Bundan başqa, SOCAR "Neft və Qazın Dekarbonizasiyası Xartiyası"na (OGDC) qoşulub, bununla da məşəldə yandırmaları sıfıra endirmək, sıfır metana çatmaq kimi hədəflərin reallaşdırılmasını diqqət mərkəzində saxlayıb.

***V.BAYRAMOV***
***XQ***

# "Yaşıl iqtisadiyyat"dan "yaşıl mədəniyyət"ə

**İnformasiya Texnologiyaları İnstitutunda uzun illərdir ki, rəqəmsal transformasiyalar şəraitində "yaşıl texnologiya"larla bağlı tədqiqatlar aparılır, "yaşıl iqtisadiyyat" və ekologiya kimi problemlərə böyük diqqət ayrılır.**

Bu barədə AMEA-nın vitse-prezidenti, adı çəkilən institutun baş direktoru, akademik Rasim Əliquliyev deyib:

–Hazırda bütün dünyada, o cümlədən Azərbaycanda enerji təhlükəsizliyi məsələlərinə böyük əhəmiyyət verilir, ən müasir texnologiyaların ölkəmizdə geniş tətbiqi ilə yeni iqtisadi sahələrin meydana gəlməsi, enerji istehsalı, enerji təhlükəsizliyinin yenidən qurulması istiqamətdə mühüm addım atılır.



Bu il BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının – COP29-un ölkəmizdə keçirilməsinə dair verilən qərar mühüm hadisə kimi diqqət çəkir. Belə bir mötəbər tədbir Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun daha da yüksəldilməsi baxımından böyük siyasi və iqtisadi əhəmiyyət daşıyır, iqlim dəyişikliyinin azaldılmasına və "yaşıl enerji"dən istifadəyə yönələn qlobal təşəbbüslərin təşviqində mühüm rol oynayır.

COP29 ölkəmizdə "yaşıl ideya"ların reallaşması istiqamətində institusional və kompleks tədbirlərin gerçəkləşməsinə təkan verəcək, dünyanın "düşünən beyinləri" ölkəmizdə cəmləşəcək.

Ənənəvi iqtisadiyyatın "yaşıl iqtisadiyyat"a transformasiya olunması üçün Azərbaycan cəmiyyətində artıq "yaşıl mədəniyyətin" formalaşdırılmasına başlanılıb. AMEA-nın İnformasiya Texnologiyaları İnstitutunun alimlərinə "yaşıl ideya", "yaşıl texnologiyalar" istiqamətində yeni təşəbbüslər irəli sürməklə bağlı tapşırıqlar verilib. İnstitutda "yaşıl cəmiyyət"in formalaşması məsələləri ilə bağlı tədqiqatlara başlanılıb, "yaşıl texnologiya"ların tətbiqi istiqamətində aparılan işlərə, həyata keçirilən tədbirlərə elmi baxımdan ciddi dəstək verilməsi qərara alınıb.

***XQ***

# KOBİA COP29-u dəstəkləyir

**Kiçik və Orta Biznesin İnkişafı Agentliyindən (KOBİA) aldığımız məlumata əsasən, bu qurum BMT-nin Qlobal Sazişinə qoşulub.**




Bildirilib ki, agentlik BMT-nin Qlobal Sazişinin iştirakçısı olaraq strategiya və fəaliyyətini Dayanıqlı İnkişaf Məqsədlərinin müvafiq prinsiplərinə uyğunlaşdırmaqda, KOB-ların inkişafına və yeni sahibkarlıq subyektlərinin yaradılmasına dəstək göstərməklə qlobal davamlı inkişaf strategiyasına öz töhfəsini verməkdə davam edəcək.

KOBİA, həmçinin, 2024-cü ilin ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan olunmasını və BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Azərbaycanda keçiriləcəyini nəzərə alaraq fəaliyyətində və KOB-larla iş prosesində ətraf mühit məsələlərinə, "yaşıl iqtisadiyyat"ın təbliğinə diqqəti daha da artıracaq.

Qeyd edək ki, BMT-nin Qlobal Sazişi 160-dan çox ölkədə 20 mindən artıq biznes və qeyri-biznes tərəfdaşlarını bir araya gətirir. Təşkilatın üzvlərinin əsas məqsədi öz strategiya və fəaliyyətlərini insan haqları, işçi hüquqları, ətraf mühitin qorunması ilə bağlı beynəlxalq səviyyədə qəbul edilmiş prinsiplərə, eləcə də "Dayanıqlı inkişaf üzrə 2030 Gündəliyi"nə uyğunlaşdırmaqdır.

***XQ***

# Mərkəzi Asiyanın bərpaolunan enerjisini ölkəmiz nəql edəcək

**Energetika naziri Pərviz Şahbazov Qazaxıstana səfəri çərçivəsində həmkarı Almasadam Satkaliyev ilə görüşüb. P.Şahbazov "X" sosial şəbəkəsindəki hesabında bu barədə bildirib.**

"Astanada həmkarım Almasadam Satkaliyev ilə səmərəli görüşümüz oldu. BTC neft boru kəməri ilə Qazaxıstan neftinin nəqlinin tədricən artırılması, Mərkəzi Asiyadan "yaşıl enerji"nin Azərbaycan vasitəsilə ixracı üçün müvafiq tədbirlərin görülməsi, nazirliklər arasında enerji sahəsində strateji tərəfdaşlığa dair saziş layihəsinin hazırlanması məsələlərini müzakirə etdik" – Pərviz Şahbazov qeyd edib.

***XQ***



# "Karbon təhlükəsi" dünyanı birləşdirir

**Enerjiyə tələbatın artmasına baxmayaraq, təmiz enerji texnologiyalarının tədbiqi dünyada mədən yanacağından istifadənin artmasının qarşısını almağa kömək edib.**

Bu barədə Beynəlxalq Enerji Agentliyi (BEA) məlumat yayıb. Bildirilib ki, əgər təmiz enerji texnologiyaları olmasaydı, o halda qlobal karbon qazı tullantıları son 5 ildə 3 dəfə çox olardı. BEA-nın təhlilinə əsasən, ötən il qlobal karbon qazı tullantılarının yenə də rekord həddə çatmasına baxmayaraq, ekoloji təmiz mənbələrin artması energetika ilə bağlı tullantıların "struktur ləngiməsi"nə gətirib çıxarıb.

Sözügedən məlumatda, həmçinin qeyd edilib ki, hətta enerjiyə tələbatın artmasına baxmayaraq, günəş, külək və nüvə enerjisindən geniş istifadə dünyaya ötən il mədən yanacağı asılılığını daha çox azaltmağa kömək edib. 2023-cü ildə hər 5 yeni avtomobilin payına düşəcək elektromobillər neftə tələbatın pandemiyaya qədərki səviyyəni üstələməməsində öz rolunu oynayıb.

Stimullaşdırıcı tədbirlər sayəsində Azərbaycanda da elektrik mühərrikli avtomobillərin idxalında əhəmiyyətli artım müşahidə edilir. Belə ki, keçən il ölkəmizə 2021-ci illə müqayisədə 19 dəfə çox elektromobil idxal olunub.

***

ABŞ-nin Azərbaycandakı səfiri Mark Libbi "X" sosial şəbəkə paylaşımında deyib. "Mən Azərbaycanın qlobal istiləşmənin tempini azaltmaq və temperatur artımının 1,5 dərəcə səviyyəsində saxlamaq üçün "Qlobal metan vədi"ni imzalamasını alqışlayıram. Ölkəmizin bu təşəbbüsə qoşulması metan emissiyalarının kəskin şəkildə azaldılması üzrə qlobal səylərə mühüm təkan verir və iqlim böhranına qarşı mübarizədə ABŞ və digər tərəfdaşlarla əməkdaşlıq üçün yeni platforma yaradır".

Xatırladaq ki, martın 4-də Azərbaycan qlobal metan emissiyalarının azaldılması üzrə dövlətlərin könüllü olaraq öz üzərinə götürdüyü öhdəlikləri nəzərdə tutan "Qlobal metan vədi"nə təşəbbüsünə qoşulduğunu elan edib. Bu təşəbbüs çərçivəsində Azərbaycanın 2030-cu ilə qədər qlobal metan emissiyalarının ən azı 30 faiz həcmində azaldılmasını hədəfləyən birgə beynəlxalq səylərə qoşulmağa hazır olduğu bildirilir.



"Qlobal metan vədi" 2021-ci ildə Birləşmiş Krallığın Qlazqo şəhərində keçirilmiş COP26 İqlim Dəyişikliyi Konfransında ABŞ və Avropa İttifaqı (Aİ) tərəfindən metan emissiyalarının azaldılması ilə bağlı qlobal öhdəlik kimi irəli sürülmüş təşəbbüsdür. Bundan məqsəd isə 2030-cu ilə qədər metan emissiyalarını 2020-ci illə müqayisədə, ümumilikdə, 30 faiz məhdudlaşdırmaqdır. Hazırda 155 ölkə bu beynəlxalq öhdəliyə qoşulduğunu elan edib və qlobal metan çirklənməsinin, təxminən, yarısı bu ölkələrin payına düşür.

***XQ***

# Qarabağlar – əsrlərin yadigarı

**Kəngərli rayonunun Qarabağlar kəndi Naxçıvanın ən qədim yaşayış məskənlərindən biridir. Kəndin şimal-şərqindəki Qalacıq adlanan ərazidə e.ə. II minilliyə və I minilliyin əvvəllərinə aid, təqribən 40 hektar sahəsi olan yaşayış yeri aşkar edilmişdir. 1934-cü ildə burada aparılan arxeoloji tədqiqatlardan sonra ərazinin bütün Qafqazda ilk dəfə ibtidai icma quruluşu dövrünə aid möhtəşəm yaşayış yeri olması təsdiq olunmuşdur.**



Burada tunc bəzək əşyaları, boyalı qab qırıqları, iri qaya parçalarından tikilmiş dördkünc və oval şəkilli bina qalıqları tapılmışdır. Qarabağlardakı qədim qəbiristanlıqda at və qoç formalı qəbirüstü abidələr aşkar edilmişdir. Qarabağlar tariximizin orta əsrlər dövründə Azərbaycanın qədim şəhərlərindən birinə çevrilmişdir.

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev yazır ki, bu şəhər Azərbaycanın mühüm ictimai-iqtisadi, siyasi mərkəzlərindən biri olmuşdur. Onun Yaxın Şərq ölkələri ilə Avropanı birləşdirən mühüm karvan yollarının üzərində yerləşməsi səbəbindən burada sənətkarlıq, ticarət, iqtisadi həyat xeyli tərəqqi etmişdir. Burada olan möhtəşəm memarlıq abidələri – türbə və minarələr XII–XIV əsrlərdə Qarabağların böyük şəhər olduğunu sübut edir.

Qarabağların şəhər kimi formalaşması və inkişaf dövrü isə Hülakülər dövləti dövrünə təsadüf edir. Qarabağlar XVI əsrdə dağıntılara məruz qalsa da, şəhər bölgə mərkəzi kimi statusunu itirməmişdir. Lakin bununla belə şəhərin əksər hissəsi xarabalıqlardan ibarət idi. Birinci Osmanlı idarəçiliyi dövründə (1587–1603) şəhər baxımsızlıq səbəbindən tənəzzülə uğramış və hətta 1590-cı il tarixli "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə kənd kimi qeyd olunmuşdur.

Akademik sonra qeyd edir ki, Qarabağlar şəhəri orta əsrlərdə bir sıra görkəmli səyyah, tarixçi və coğrafiyaşünasların diqqətini cəlb etmişdir. Orta əsrlərin bir çox məşhur səyyahlarının əsərlərində şəhərin gözəl iqlimi, əhalisi, tarixi abidələri haqqında maraqlı məlumatlar vardır. Nizaməddin Şami, İbrahim Əfəndi Peçevi, Övliya Çələbi, F.Rəşidəddin, N.Xanıkov, Moryer, İ.Şopen, İ.Tavernye kimi alim və səyyahlar Qarabağlar haqqında çox qiymətli məlumatlar vermişlər.

XV əsrin görkəmli salnaməçisi Nizaməddin Şami Əmir Teymurun səfərlərində onu müşayiət etmiş, tarixi hadisələrin canlı şahidi olmuşdur. Müəllif özünün "Zəfərnamə"sində fatehin Qarabağlarda müəyyən müddətdə qalmasını belə təsvir edir: "Əmir Teymur Hindistandan paytaxt Səmərqəndə qayıtdıqdan sonra Azərbaycana və ona bağlı yerlərə gürcü və erməni əsgərləri tərəfindən təcavüzlər vaqe olduğunu, buna görə də rəiyyətlərin zərər gördüyünü xəbər aldı. Əmiri Hümayun namus və qeyrətinə toxunan bu hala görə 802-ci ildə (miladi 1399-1400) hərəkətlə Xorasana doğru yola düşdü. Sultaniyyəni keçərək Təbriz Qarabağlarına gəlib, orada ordusu ilə nazil oldu və səhraları çadırları və bayraqları ilə işğal etdi, ordunu təftiş ilə əsgərlərin hamısına ülufə (yem) və yeyəcək verdi..."

Əmir Teymur döyüş səfərinə çıxdığı zaman yolüstü Qarabağlar şəhərində dayanmış, buranın gözəl nemətlərindən dadmış, məscidlərində dua etmiş, əsgərlərinə "ülufə və yeyəcək" vermişdir.

Nizaməddin Şaminin bu şəhər haqqında yazdıqları ondan 300 il sonra burada olmuş Ö.Çələbinin "...Teymur Qarabağlarda böyük bir qoşunu ilə beş ay müddətinə qışlağa qalmışdır" məlumatı ilə bir daha təsdiqlənir.

Məşhur türk tarixçisi İbrahim Əfəndi Peçevinin "Tarix" əsərində də Qarabağlar haqqında bəhs edilir. İbrahim Peçevi XVI–XVII əsrlərdə bu böyük Azərbaycan şəhərinin əhalisinin həyatı, ticarət və peşə sənətkarlığı haqqında məlumat verir.

İngilis səyyahı Moryer Qarabağlardakı xarabalıqları İranın Persepol şəhərinin memarlıq abidəsinə oxşadır. Moryerin Qarabağların xarabalıqlarını Persepolun Əhəməni dövrü abidələri ilə müqayisəsinə münasibət bildirən AMEA-nın müxbir üzvü Vəli Əliyev yazıbdır: "Əlbəttə burada mübaliğə vardır. Qarabağların orta əsr müsəlman abidələrini Persepolun Əhəməni dövrü abidələri ilə müqayisə etmək olmaz. Çox güman ki, Moryer Qarabağların çox qədim dövrlərə aid abidələrini nəzərdə tutmuşdur..." Digər tərəfdən isə arxeoloq-alim "...doğrudan da arxeoloji tədqiqatlar nəticəsində burada qədim dövrlərə aid xarabalıqlara təsadüf edilmişdir", – deyir.

Türk hakimi III Sultan Muradın hakimiyyəti dövründə Qarabağlar Səfəvilər tərəfindən ələ keçirilmişdir. Türk paşası Sultan Süleyman qışı öz əsabələri ilə birlikdə bu şəhərdə keçirərmiş.

XVII əsrin tanınmış türk səyyahı Övliya Çələbi Azərbaycana birinci səfərində (1646–1647-ci illər) "Böyük Qarabağlar şəhərinin təsviri"nə geniş yer vermişdir: "Bu şəhərin binasını ilk dəfə Mənuçöhr qoymuşdur. Qədim şəhərdir; indi də Naxçıvan torpağında ayrıca sultanlıqdır. Qədim zamanlarda böyük şəhər imiş. 1012-ci ildə (1603-cü ildə) Üçüncü Məhəmməd xan zamanında Osmanlı əlində ikən Əcəm zəfər qazandı. 1045-ci il tarixində (1635-ci il) Rəvan fatehi, zəmanənin Murad xanı Rəvan fəthindən sonra bu şəhərə gəlib burada dayandıqda qədim əlyazmalarda cənnət qədər abad olan şəhəri dərya misal qoşununun ixtiyarına verərək onu bilməzsə dağıdıb xarab etmişdir, xarabalıqları hələ də durmaqdadır".

Ö. Çələbi "Səyahətnamə" əsərində Qarabağları böyük bir şəhər kimi təsvir etmişdir. Onun məlumatına görə, XVII əsrdə Qarabağlarda, təqribən 50 min adam yaşayırdı; 10 min ev, 70 məscid, 40 minarə, karvansara, hamam, bazar və sair var idi. Şəhərin ab-havasından, bağ-bağatından, meyvələrindən, xörəklərinin dadından Ö. Çələbi ürəkdolusu söhbət açıbdır.

Qeyd edək ki, Səfəvilər dövlətində Azərbaycan bəylərbəyliyi dövründə Naxçıvan ölkəsi 12 nahiyə və 1 sultanlıqdan ibarət idi. Naxçıvan ölkəsinin tərkibində Naxçıvan, Şərur, Dərələyəz, Bazarçayı, Məvaziyi-Xatın, Mülki-Arslan, Dərə-Şahbuz, Əlincə, Sisəcan, Azadciran, Şorlut, Dərəşam nahiyələri olmuşdur. Qarabağlar ərazisi isə Naxçıvan ölkəsi tərkibində sultanlıq idi. Birinci Osmanlı idarəçiliyi dövründə Qarabağlar sultanlığı Naxçıvan sancağının bir nahiyəsinə çevrilmişdi. Bu dövrdə Qarabağ nahiyəsi 6 kənd, 2 məzrədən ibarət idi. Tədqiqatçıların fikrincə, XVII əsrin əvvəllərində Naxçıvan ərazisində öz qanuni hakimiyyətlərini bərpa edən Səfəvilər Qarabağların sultanlıq statusunu özünə qaytarmışdır. Qarabağlar kəndi XVIII əsrin 30-cu illərində Naxçıvan sancağında Qarabağ adı ilə 16 kəndi əhatə edən nahiyə mərkəzi, XIX əsrdə isə Xok mahalında kənd olmuşdur. Göründüyü kimi, bu ad müxtəlif zamanlarda həm Qarabağ, həm də Qarabağlar şəklində işlənilmişdir.

İrəvan və Naxçıvan xanlıqlarının tarixi və coğrafiyasının tədqiqi ilə məşğul olmuş fransız mənşəli İ. Şopen Qarabağlar şəhəri, onun sinfi və etnik tərkibi, folkloru və incəsənəti, təsərrüfatı barədə məlumat vermişdir. İ.Şopen bu qədim yurdun rus işğalından çox əvvəlki vəziyyətinin təsvirini verə bilmişdir.

1833-cü ildə Sankt-Peterburqda V.Qriqoryevin nəşr etdirdiyi "Naxçıvan əyalətinin statistik təsviri" əsərində də Qarabağlar haqqında geniş məlumat verilir. Buradan da Qarabağların əhalisi, onun ödədiyi vergilərin adları, həcmi haqqında qiymətli məlumatlar əldə etmək mümkündür.

Göründüyü kimi bir zamanlar Azərbaycanın mühüm ictimai-siyasi mərkəzlərindən biri olmuş, karvan yolları üzərində yerləşən Qarabağlar bura yolu düşən səyyahların, tədqiqatçıların diqqətini cəlb etmiş, eyni zamanda orta əsrlərdə artıq mədəni mərkəzlərdən birinə çevrilmişdir. Hazırda kənddəki Qarabağlar Türbə Kompleksi də bunu sübut edir. Tarixçi-alim İsmayıl Hacıyev Qarabağlar Türbə Kompleksinin təkcə Azərbaycanın deyil, Ön Asiyanın memarlıq incilərindən biri olduğunu bildirir.

Məlumat üçün deyək ki, Qarabağlar Türbə Kompleksi qoşa minarə, onlar arasındakı baştağ, qoşa minarələrə birləşən dini binanın qalıqları və türbədən ibarətdir. Bu abidələrdən ikisi - qoşa minarəli baştağ və türbə dövrümüzədək gəlib çatmışdır. Qarabağlar Türbə Kompleksi haqqında tədqiqatçılardan M.Mirheydərzadə, Ə.Salamzadə, M.Useynov, L.Bretanitski, K.Məmmədzadə, Ə.Əsgərzadə, V.Sısoyev, T.Yazar, C.Qiyasi, S.Kərimzadə, Ş.Məmmədova və başqaları maraqlı fikir və mülahizələr söyləmiş, abidələrin tarixi haqqında bir sıra dəqiqləşmələr aparmışlar.

Qarabağlar memarlıq kompleksinə daxil olan qoşa minarənin XII əsrin sonu – XIII əsrin əvvəllərində tikildiyi ehtimal edilir. Minarələri bir-birinə bağlayan baştağ isə XIV əsrə aiddir. Baştağın üzərində Elxani hökmdarı Hülakü xanın arvadı Quti xatının adı yazıldığından, onun şərəfinə tikildiyi güman edilir.

Son illərdə bu tarixi abidə də bərpa olunaraq istifadəyə verilmişdir. İndi Naxçıvana yolu düşən turistlərin böyük əksəriyyəti muxtar respublikanın digər tarixi-mədəni abidələri ilə yanaşı, dünya əhəmiyyətli Qarabağlar Türbə Kompleksini də ziyarət edirlər.

***Səbuhi HƏSƏNOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri.***
**Naxçıvan**

## Bakı ilə qardaşlaşmış şəhərlər

**Qardaşlaşmış şəhərlər beynəlxalq hərəkatı hələ İkinci Dünya müharibəsi illərində meydana gəlmişdir. İlk dəfə 1942-ci ildə İngiltərənin Koventri və SSRİ-nin Stalinqrad şəhərləri qərara gəliblər ki, vətəndaşların sülh və əmin-amanlıq naminə dostluq münasibətləri qursunlar.**

Bakı 1978-ci ildən etibarən Ümumdünya Qardaşlaşmış Şəhərlər Federasiyasının üzvüdür. Ondan əvvəl isə Bakı Afrika dövləti Seneqalın paytaxtı Dakarla qardaşlaşmışdı. 1970-c ildə imzalanan həmin sənəd bu gün də qüvvədədir. Belə ki, paytaxtımızın "Neftçilər" metrostansiyasının yaxınlığındakı "Dakar meydanı" xalqımızın dostluqda sədaqətli olduğunun göstəricisidir.

səfərlərdə olsam da, hansısa elmi tədbirdə məruzəçilərdən biri kimi iştirak etdiyim ilk və yeganə tədbir məhz İstanbulda olmuşdur. Belə ki, 2012-ci ilin iyununda müasir Türkiyənin görkəmli divan şairlərindən birinin, təsəvvüf ədəbiyyatının görkəmli təmsilçisi Osman Hülusi Darəndəvinin (1914–1990) yaradıcılığına həsr olunmuş beynəlxalq simpoziumda məruzəçilərdən biri də mən idim.

# İstanbul – Türk dünyasının döyünən qəlbi



Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra Bakının dünya şəhərləri ilə əməkdaşlığı yeni mərhələyə qədəm qoydu. Bakı Rusiyanın Moskva və Sankt-Peterburq, Ukraynanın Kiyev, Səudiyyə Ərəbistanının Ciddə, İranın Təbriz, Fransanın Bordo, Cənubi Afrika Respublikasının Pretoriya, Almaniyanın Maynts, ABŞ-ın Honolulu və Vaşinqton, Türkiyənin İstanbul və İzmir şəhərləri ilə qardaşlaşıb.

Bu sətirlər isə məhz İstanbul haqqındadır. O İstanbul ki, min illər boyu dünyanın güclü dövlətləri və fatehlik iddiasında olan sərkərdələri bu şəhərə sahiblik etmək üçün çoxsaylı müharibələr aparmış, sayı bilinməyəcək qədər qanlar tökmüşlər. Təsadüfi deyil ki, hələ orta əsrlərdə belə bir deyim yaranmışdı: "İstanbul kimin əlindədirsə, o, bütün dünyaya nəzarət edir". Bu gün Avropa və Asiyanı birləşdirən İstanbul artıq paytaxt olmasa da, planetimizin ən mühüm siyasi, iqtisadi, ticarət mərkəzlərindən biridir.

... Təkcə türk dünyasının deyil, həm də bütövlükdə Avrasiyanın ən gur, qaynar və cazibəli şəhərlərindən olan bu möhtəşəm meqapolis haqqında söz açanda iki məqamı daha tez xatırlayıram. Birincisi mərhum həmkarımız Məmməd Nazimoğlunun məhz elə onun özünə xas çoxmərtəbəli mənalarla işlətdiyi ifadələrdir: "İstanbulda olanlar bilirlər ki, Avropa ilə Asiyanın heç bir fərqi yoxdur. Körpünün bu tayındakılarla o biri tayındakıların dili də, dini də, məişəti də, mədəniyyəti də, təfəkkürü də eynidir".

İkincisi isə bilavasitə özümlə bağlıdır. Jurnalist kimi 30-35 dəfə xarici

...Orta məktəbdə oxuduğumuz illərdə bəzi müəllimlər bizə siyasətdənkənar söhbətlər edir, səslərini azaldaraq, qorxa-qorxa Azərbaycanın türk dövləti, Türkiyənin bizə qardaş ölkə olduğunu söyləyirdilər. İstanbula hər səfərim zamanı həmin müəllimlərə minqat rəhmət oxumuşam.

İstanbul tarix boyunca 3 böyük imperiyanın paytaxtı kimi zamanın çox üzünü görmüşdür. Bu şəhər başdan-başa fərqli mədəniyyət abidələri ilə zəngin olan muzeyi xatırladır. Hər küçəsindən, dalanından tarixin səsi gələn İstanbulda addımlamağın özü də keçmişə səyahət etmək kimi maraqlı və həyəcanlı təəssürat yaradır.

Xatırladaq ki, İstanbul Avropa Birliyi Mədəniyyət Nazirləri Şurasının qərarı ilə 2010-cu ildə "Avropanın mədəniyyət paytaxtı" seçilmişdi. Bu şəhərin tarixi abidələrinin çoxu UNESCO-nun "Dünya İrsi" siyahısına daxil edilib. Şəhərdə ən böyük tarixi abidələr Sultan Əhməd meydanındadır. Roma, Bizans və Osmanlı imperatorluqlarının izlərini özündə yaşadan meydanda məşhur Sultan Əhməd camesi, Topqapı sarayı və Ayasofya məbədi yerləşir.

Xüsusilə qeyd edilməli daha bir məqam. İstanbul Prezident Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi dövründə sürətlə inkişaf edən Türkiyənin tərəqqi nümunəsi kimi qəbul edilir. Dünyanın güclü dövlətlərini təmsil edən siyasətçilərin burada görüşüb müzakirələr aparması İstanbulu dünyanın ən nüfuzlu siyasi mərkəzlərindən birinə çevirir.

**İttifaq MİRZƏBƏYLİ**

# Qədim dünyanın dəmir ledisi – Tomris xatun

**Azərbaycan tarixinə adını qızıl hərflərlə həkk etmiş igid qadınlarımız çoxdur. Onlardan biri də böyük şairimiz Səməd Vurğunun adını qəhrəman kimi çəkərək tərif etdiyi Tomris – Dəmir üz xatundur. Şair onu: "Anam Tomris kəsmədimi Keyxosrovun başını" – misrası ilə yada salır.**



Bu gün torpaqlarımızı düşmən işğalından azad etmiş igid oğullarımızı böyüdüb Vətənə ərməğan etmiş analarımız qarşısında baş əyərək, vaxtilə nəsillərə örnək olan qəhrəman qadınlarımız haqqında da geniş məlumatlar paylaşmağa borcluyuq. Tomris Xatun tariximizdə ilk qadın hökmdar kimi xatırlanır. O, Dərbənddən Şirvana qədər uzanan Massaget çarlığının şahı olub. Massagetlər əvvəlcə Azərbaycan ərazisində qədim dövlət olan Midiyaya tabe olublar. Mərkəzləşdirilmiş Qafqaz Albaniyası yaradılanda isə onun tərkibinə daxil ediliblər.

Tarixi mənbələrin verdiyi məlumata görə, massagetlər tayfasının şahı dünyasını dəyişdikdən sonra tayfanın başına onun dul qadını Tomris Xatun keçir. Qonşuluqdakı Əhəməni hökmdarı Kir öz elçilərini göndərərək, onunla evlənmək istədiyini bildirir. Ancaq Tomris anlayır ki, Kir hiylə işlədir, bu yolla Massaget çarlığını ələ keçirmək istəyir. Buna görə də təklifi rədd edir. Belə olduqda Kir massagetlər üzərinə hücuma keçmək qərarına gəlir. Hücum Massaget döyüşçüləri yuxuda olarkən baş tutub. Nəticədə farsların hücumu nəticəsində massagetlərin bir çoxu qətlə yetirilir, bəziləri, o cümlədən Tomrisin oğlu sərkərdə Sparqapis əsir götürülür.

Tomris Kirin yanına çapar göndərərək bildirir: "Qaniçən Kir! Öz hünərinlə öyünmə! Əgər hiylə ilə qələbə çalmasaydın, şərəfli döyüşdə silah gücünə heç nə eləyə bilməzdin. İndi gəl oğlumu qaytar və necə gəlmisənsə, eləcə də sağ-salamat çıx get. Əgər bunu etməsən, and olsun bütün massagetlərin pənahı olan Günəş allahına ki, mən səni qan gölündə boğaram". Kir buna əhəmiyyət vermir. Tomrisin oğlu isə düşdüyü vəziyyətə dözə bilməyərək özünü öldürür.

Bu gün qədim dünyanın dəmir ledisi kimi tanınan Tomris bundan sonra böyük qoşun toplayaraq farsların üzərinə hücuma keçir. Bu, türk tayfalarının düşmənə qarşı ən böyük döyüşü sayılır. Döyüş tarixçilər tərəfindən belə təsvir edilir: "Əvvəlcə düşmən qoşunları üz-üzə duraraq, uzaqdan bir-birini oxa tutdular. Sonra nizə və xəncərlə əlbəyaxa döyüşə keçdilər. Nəhayət, massagetlər qələbə çaldılar. Az qala farsların hamısı döyüş meydanında həlak oldu. Kir öldürüldü. Onun 29 illik hakimiyyətinə son qoyuldu. Tomris şərab piyaləsini insan qanı ilə dolduraraq, Kirin cəsədini tapmağı əmr etdi. Onun başını piyalənin içinə soxaraq dedi: "Mən sağ qalsam da, sən məni məhv etdin. Sən hiyləgərliklə mənim oğlumu əlimdən aldın. Mən demişdim ki, sənə qan içirdəcəyəm. İndi nə qədər istəyirsən, iç bu insan qanından"...

***P.ƏMİRCANOV***
***XQ***



# Uzaq Sibir qardaşlarımız – Saxa türkləri

**Saxa (yakut) türkləri böyük bir coğrafi ərazidə məskunlaşıblar. Onların sayının 500 min nəfər olduğu təxmin edilir. Saxaların digər türk xalqları ilə mədəni-humanitar əlaqələri mövcuddur.**

Tarixin və taleyin hökmü ilə Sibirin soyuq və uzaq ərazilərində məskunlaşan yakutlar müəyyən assimiliasiyaya məruz qalmalarına baxmayaraq, bütövlükdə özlərinin milli-etnik mənsubiyyətlərini, dini inanclarını qoruyub saxlaya biliblər. Saxa Respublikası (Yakutiya) Rusiya Federasiyasının subyektlərindən biridir. Uzaq Şərq Federal Dairəsinə aiddir.

1990-cı ildə Yakutiyanın dövlət suverenliyinə dair akt qəbul edilmişdir. 1991-ci ildə hazırkı adını (Saxa Respublikası) almışdır. Ərazisi 3,2 milyon kvadrat kilometrdirdir. Əgər Saxa müstəqil dövlət olsa idi, dünyada ərazisinə görə yeddinci dövlət olardı.

Saxanın paytaxtı Yakutsk şəhəridir. Saxaların əksəriyyəti ənənəvi yakut dininə inanırlar. Ümumiyyətlə, saxa-yakut türklərinin dini inanclarında digər türk xalqları kimi şamanizm indinin özündə də təsirini qoruyub saxlamaqdadır. Hətta assimilyasiyaya məruz qalan yakut türkləri arasında belə şamanizm ənənələri özünü göstərməkdədir.

Görkəmli türkoloq, professor Fərhad Zeynalovun yazdığına görə, bir vaxtlar Lena çayı hövzəsinə kütləvi köç edən türk-sak tayfaları buranın aborigen xalqları ilə qaynayıb-qarışmış, nəticədə saxa-yakut xalqı yaranmışdır.

Təqdirəlayiq haldır ki, son illər ölkəmiz ilə Saxa Respublikası arasında iqtisadi, mədəni, humanitar əlaqələr genişlənir.

**XQ**

# Fransa humanizmlə döyüşür

## Dümanın vətəni ermənilərin heyfini Qarabağ xanının qızının heykəlindən çıxır





**Fransada Xurşidbanu Natəvanın heykəlinə qarşı vandallıq Qərbdə radikallaşmanın və islamofobiyanın utancverici təzahürüdür. Azərbaycan Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri Elşad İskəndərov Bakıda “Müxtəlifliyin qorunması: 2024-cü ildə islamofobiya ilə mübarizə” mövzusunda keçirilən beynəlxalq elmi konfransın “Multikulturalizm, islam və sivilizasiyalar toqquşması nəzəriyyəsi: islamofobiyanın yenidən düşünülməsi” adlı plenar iclasında çıxışı zamanı bu barədə danışaraq deyib ki, islamofobiya fenomenində Qərb dünyasında müsəlmanların qlobal dəyərlərə qarşı çıxan tərəf kimi göstərilməsi yanlışdır. Heykələ qarşı sərgilənən münasibət bunun tam əksini göstərir.**

Bəlkə də, dünyada Xurşidbanu Natəvan kimi, 2-ci başqa bir görkəmli şair yoxdur ki, abidələrinə qarşı vandallıq aktları törədilsin. Əvvəlcə ötən əsrin sonunda işğal olunmuş Şuşada Üzeyir Hacıbəyli və Bülbüllə bərabər, Xan qızının da heykəlini erməni təcavüzkarlar güllələmişdilər. Vətən müharibəsində tarixi qələbəmizdən sonra həmin heykəllər bərpa olunmuş şəkildə özlərinin əzəli yerlərinə qaytarılandan, Ağdamda Natəvanın dağıdılmış qəbirüstü abidəsi bərpa ediləndən çox keçməmiş isə dünya mədəniyyətinin mərkəzi sayılan (?!) Fransada da onun abidəsi “erməni dəst-xətli” təcavüzə məruz qalıb.

Erməni fitvası ilə heykəlinə qarşı “müharibə” elan edilmiş şair və rəssam Natəvan öz zəmanəsinin görkəmli şəxsiyyətlərindən olub, təkcə Azərbaycanda deyil, bütün Qafqazda mesenatlığı ilə tanınıb. O, Qarabağda təşkil etdiyi “Məclisi üns”ü 25 il yaşadıb, Şuşaya su çəkdirərək “Xan qızı bulağı” yaradıb. Araz çayından Mil düzünə su kəməri çəkilməsinin təşəbbüskarı olub. Böyük fransız yazıçı Aleksandr Düma onun kamalını və xeyriyyəçiliyini yüksək dəyərləndirib. Yazıb ki, Xan qızı Natəvan Bakının Şıx kəndindən Bibiheybət məscidinə daş yolu çəkdirib.

Mədəni irsə ehtiram göstərmək özü bir mədəniyyətdir. Heydər Əliyev Fondunun dəstəyi ilə hələ 2016-cı ildə Belçika Krallığının Vaterlo şəhərində Natəvanın abidəsinin açılışı olub. Abidənin postamentində “Şərqin müasir maarifçi və şair qadını Xurşidbanu Natəvan, Qarabağ şahzadəsi, Azərbaycan” sözləri yazılıb. Bundan bir il sonra, 2017-ci ildə Fransanın Evian-le Bən şəhərində də Natəvana abidə qoyulub. Leman gölü sahilində yaradılan “Azərbaycan parkı”nın rəsmi açılış mərasimi çərçivəsində heykəlin örtüyü götürülüb. Evian-le Bənin ovaxtkı meri Mark Fransina Azərbaycanın görkəmli qadın şairinin heykəlinin açılışından şərəf duyduqlarını vurğulayaraq deyib ki,





bu, iki şəhər arasında mədəni əlaqələrin, qarşılıqlı dostluğun möhkəmlənməsinə xidmət edəcək, şəhər meriyası ikitərəfli dostluğun rəmzi olan bu parkın həmişə belə gözəl olmasını daim diqqətdə saxlayacaq.

Şəhər merinin mədəniyyət işləri üzrə sabiq müavini Alən Giro isə xalqlararası münasibətlərdə mədəni mübadilənin böyük rolu olduğunu bildirmişdi: “Bunun sayəsində insanlar bir-birini yaxşı tanıyır. Bu da onlara tarixlərini də yaxşı tanımağa imkan yaradır. Dostluq da insanlar arasında mübadilədir. Hazırkı mürəkkəb dünyada bizi dostluq xilas edəcək”.

Nə oldu bəs? Pişikmi asqırdı? Mədəniyyəti kimlərinsə siyasi ambisiyaları ayaqlar altına necə saldı? Bəli, məsələ də elə bundadır ki, abidəyə qarşı rəzil münasibətin təməlində siyasət dayanır. Fransa öz üzərinə heç bir təhdidlə üzləşməyən Ermənistanın müdafiəsi üzrə öhdəlik götürüb və açıq şəkildə Azərbaycana qarşı çıxış edir. Özü də hər yanda – Cənubi Qafqazda, Avropada, beynəlxalq təşkilatlarda və təbii ki, öz ərazisində.

Hələ ötən ilin sonunda Evian-le Bən şəhərinin meriyası mədəniyyətə düşmən münasibətli belə bir qərar qəbul etmişdi ki, oradakı “Azərbaycan parkı”nın qeyd olunduğu bütün yazılar yığışdırılacaq. Guya dekabrın 18-də müxalifət nümayəndələri bələdiyyə şurasından şəhərdə bu parkın adı çəkilən bütün lövhələrin rəsmən götürülməsini tələb ediblər və “başbilənlər” də parkla bağlı bütün istinadları tələm-tələsik siliblər.

Bu ilin yanvar ayında Fransanın Paris şəhərində fəaliyyət göstərən “Azərbaycan evi” ölkənin Evian-le Bən şəhər bələdiyyə şurasının “Azərbaycan bağı” ilə əlaqədar qərarı və Azərbaycan şairəsi Xurşidbanu Natəvanın parkda yerləşən abidəsi ətrafında yaranmış təhlükə səbəbindən müraciətlə çıxış etmişdi. O, başının üstünü qara buludlar alan parkın və heykəlin mövcud durumundan dərin narahatlıq bildirmiş və bunun mədəni müxtəlifliyə hörmət prinsipləri ilə tamamilə ziddiyyət təşkil etdiyini diqqətə çatdırmışdı. Fransadakı səfirliyimiz isə məktubla müraciət etdiyi bu ölkə hakimiyyətinin müvafiq qurumlarını qarşılıqlı anlaşmaya töhfə verən mədəni rəmzlərin qorunmasının vacibliyini dərk edərək, lazımınca dəyərləndirməyə çağırmışdı. Həm də abidənin Azərbaycan səfirliyinin Parisdəki Mədəniyyət mərkəzinin ərazisinə köçürülməsinin istənildiyi qeyd olunmuşdu.

Təəssüf ki, Paris meriyası cavabı iki aya qədər yubatdı, Fransa XİN-ə göndərilən nota da cavabsız qaldı. Vandalizmə məruz qalan abidə, nəhayət, bir neçə gün əvvəl Parisə köçürüldü. Onu Mədəniyyət Mərkəzinin bağında quraşdırmaq nəzərdə tutulurdu. Amma fransızlıarın biabırçı əməlləri ört-basdır edilibmiş: örtük götürüləndən sonra məlum oldu ki, vandallar heykəlin üzünə və üzərindəki yazılara qan-qırmızı boya çəkiblər, burnunu və barmaqlarını qırıb töküblər.

Əsl rüsvayçılıqdır. Dünyanın mədəni mərkəzi adı ilə bir araya sığmayan barbar münasibətidir. 30 illik işğal dövründə Şuşada mədəni abidələrə qarşı törədilənlərə, Ağdamda daş üstə daşın saxlanmayaraq bu qədim şəhərin “Qafqazın Xirosiması”na çevrilməsinə, Avropada ən böyük, dünyada isə Kanadadan sonra 2-ci yeri tutan Zəngilanın tarixi çinar meşəsinin məhvinə göz yuman fransızlar və UNESCO son zamanlar kəskin şəkildə güclənən antiazərbaycan siyasəti zəminində qondarma erməni dini abidələri üçün süni vay-şivən qoparmaqdan utanmırlarmı?

Onu da deyək ki, Fransada yürüdülən mədəni şovinizm, ksenofobiya, qərəz və digər mədəniyyətlərə qarşı dözümsüzlük siyasəti elə bəzi vicdanlı fransızlar tərəfindən də pislənib. Onlar ədəbiyyatın və incəsənətin çirkin siyasi oyunbazlığa alət edilməsini kəskin şəkildə pisləyiblər. Məsələn, Evian-le Bən şəhər merinin müavini Jan-Pyer Amadio Xurşidbanu Natəvana ehtiramını bildirərək abidənin müdafiəsinə qalxaraq deyib: “O, azad qadın kimi tanınır və Eviandakı abidədə örtüksüz təsvir edilib. Əlbəttə, biz erməni xalqını dəstəkləyirik, lakin mədəniyyət və incəsənət xalqları və ölkələri birləşdirən ən etibarlı körpüdür. Hər şeyi aradan qaldırıb bu körpüləri dağıtmalıyıq?”.

Fransanın “La Gazette du Caucase” onlayn qəzetinin baş redaktoru, məşhur jurnalist Jan-Mişel Brun özünün “X” sosial şəbəkəsində Azərbaycanın məşhur şairəsi Xurşidbanu Natəvanın heykəlinin aşağılanması xəbərinə münasibət bildirərkən vurğulayıb: “Aleksandr Dümanın heyran olduğu Natəvanın abidəsinin sökülməsi biabırçılıqdır”. Xatırladaq ki, 165 il əvvəl Qafqaza səfəri zamanı Ata Düma Xan qızı ilə görüşmüş, şahmatda ona uduzmuş, ona məftunluğunu tarixə həkk etmişdir.

Yaddan çıxmaz ki, 2020-ci il Vətən müharibəsi dövründə Azərbaycan ermənipərəst Fransa tərəfindən davamlı şəkildə iftiralarla üzləşdi. Bu gün də bütün beynəlxalq platformalarda Fransa hakimiyyəti Azərbaycana qarşı hücuma keçib. Oradakı səfirliyimizə basqı da olub. Biz yaxşı başa düşürük ki, bu, işğalçı Ermənistan üzərində qazandığımız tarixi Zəfərin həzm edilməməsidir. Yelisey Sarayının bənzər yelləri davamlı şəkildə əsməkdədir.

Görünən budur ki, Cənubi Qafqazda planları baş tutmayan Fransa hakimiyyəti siyasi hikkəsini Azərbaycan ünvanlı heykəldən çıxmaqla, hansı səviyyəyə endiyinin fərqində deyil. Bu, Fransanın siyasi tarixinə qara ləkə kimi düşəcək.

***Əli NƏCƏFXANLI***
***XQ***

**10 Mart Azərbaycan Milli Teatr Günüdür**

# Səhnəmizin sənət bayramı tamaşaları

**Yazın ilk bayramlarından biri Azərbaycan Milli Teatr Günüdür. Əsr yarım öncə peşəkar milli teatrımızın təməli məhz Novruz ərəfəsində – martın 10-da qoyulub.**

Əslində, xalq teatrının, milli oyun mədəniyyətinin tarixi onun peşəkar səhnə ənənəsindən çox qədimdir. Ulularımızın “Xıdır Nəbi”, “Novruz”, “Qodu-qodu”, “Kosa-Keçəl” və sair tamaşaları bunu deməyə əsas verir. Amma rejissor yozumlu, aktyor mizanlı teatrımızın 151 yaşı var.



Böyük maarifçilər Həsən bəy Zərdabi və Nəcəf bəy Vəzirovun təşəbbüsü, aktyor Əsgər ağa Adıgözəlov (Gorani) və Realnı məktəbin şagirdlərinin iştirakı ilə 1873-cü il martın 10-da Bakıda Mirzə Fətəli Axundzadənin “Lənkəran xanının vəziri” komediyası səhnələşdirilib. Bununla da bütün müsəlman Şərqində peşəkar teatrın təməli qoyulub.

Ənənəvi olaraq, teatr camesi və sənətsevərlərin bu günü sənət ocaqları premyera, fərqli tədbirlərlə qeyd edirlər. Bəs, bu il Milli Teatr Günü nə ilə yadda qalacaq?

Akademik Milli Dram Teatrı bu gün axşam tamaşaçılarını premyera – “Əsrə bərabər gün”lə salamlayacaq. Görkəmli qırğız yazıçısı Çingiz Aytmatovun məşhur romanı əsasında hazırlanan tamaşanın quruluşçu rejissoru Əməkdar incəsənət xadimi Mehriban Ələkbərzadədir. Azərbaycan Dövlət Akademik Musiqili Teatrında saat 12:00-da “İki küpəgirən qarı” (Ə.Əlizadə, R.Sef, T.Karelina) musiqili nağıl-tamaşası balacaların ixtiyarına veriləcək. Tamaşaya rejissor Əhəd Hacıyev quruluş verib.

Akademik Opera və Balet Teatrı “Trubadur” operasının növbəti tamaşasını (BMA-nın Opera Studiyasının səhnəsində) təqdim edəcək. Akademik Rus Dram Teatrında dramaturgiyamızın banisi M.F.Axundzadənin “Müsyö Jordan və dərviş Məstəli şah”ı yenidən təqdim ediləcək. Dövlət Gənc Tamaşaçılar Teatrı günorta saatlarında uşaqları “Möcüzəli pillələr”ə “qaldıracaq”. Səhnə əsərinin müəllifi mərhum Xalq artisti Ağaxan Salmanlıdır. Axşam seansında isə Əməkdar artist Nicat Kazımovun quruluşunda Xalq artisti Naibə Allahverdiyevanın “Gerçəkləşməyən arzular”ının benefisi olacaq.

Azərbaycan Dövlət Kukla Teatrı da peşə bayramına premyera ilə gəlir. X.Əlibəylinin – “Dovşanın ad günü” mənzum pyesi kuklaçıların yeni yozumunda səhnəyə çıxacaq. Tamaşanı Səida Haqverdiyeva səhnələşdirib.

Milli Teatr Günündə bölgə teatrları “açıq qapı” aksiyaları keçirəcəklər. Sənətsevərlər ödənişsiz tamaşa seyr edə biləcəklər.

***Ə.DOSTƏLİ***
***XQ***

# Ceyran Haşımova və onun solmayan “Lalə”si

**…1964-cü ilin 8 mart günü idi. “Lalə” qızlar ansamblı ilk dəfə çıxış elədi və musiqisevərlərin ürəklərində özünə yuva qurdu. Əvvəl radioda təqdim edilən ansambl 2 il sonra, martın 8-də ilk dəfə bayram konserti ilə televiziyaya çıxdı. O zaman ansamblın məhz 8 martda anadan olmuş yaradıcısı, tarzən Cehran xanımın cəmi 30 yaşı vardı. İndi isə onun 90, əsl mənada analıq etdiyi məşhur ansamblının 60 yaşı tamam olur.**



Xalq artistinin rəhbərliyi ilə “Lalə” bütün Şərq aləmində qadınlardan ibarət ilk xalq çalğı alətləri ansamblıdır. İlk mahnısı “Xızı dağları” olan ansamblın səsi-sorağı dağları aşıb keçib. Yurdumuzu qarış-qarış gəzərək könülləri oxşayıb və keçmiş ittifaqın əksər respublikalarında, həmçinin Çexoslovakiya, Rumuniya və Türkiyədə yaddaqalan konsertlər verib. Qarabağ müharibəsi zamanı cəbhə zonalarında – Tərtər, Ağdam və Füzulidə əsgərlər qarşısında çıxış edən “Lalə” onları qəhrəmanlıqlara ruhlandırıb.



Ansamblın solistlərinin çoxu fəxri adlara layiq görülüb. Raziyə Şirinova, Təranə Vəlizadə, Nəzakət Məmmədova, Mahrux Muradova, Nisə Qasımova, Ruhəngiz Allahverdiyeva, Kəmalə Rəhimli, Firuzə İbadova, Zöhrə Abdullayeva, Rəhilə Bəndəliyeva, Yaqut Abdullayeva, Sahibə Əhmədova və başqaları böyük sənətə məhz “Lalə”dən pərvazlanıblar. Qarmonçalan Leyla Şıxıyeva, tarzən Təcrübə Sultanova, kamança ustası Almaz xanım hər zaman tamaşaçı alqışı qazanıblar. İlk vaxtlar nağara ifaçısı oğlan olub, sonra o da Esmira Cəfərzadə ilə əvəzlənib. Ansambl öncə teleradionun, sonra filarmoniyanın və Dövlət Konsert Birliyinin nəzdində fəaliyyət göstərib.

Müsahibələrinin birində Ceyran Haşımova qızlarla işləməyin çətinlikləri barədə deyib: “Bu qədər qızın nazına, şıltaqlığına dözmüşəm. Onları pis təsirlərdən qorumuşam. Qızların dalınca düşənlər, onlara qiymətli hədiyyələr göndərənlər, hətta qastroldan-qastrola arxamızca sürünənlər olurdu. Mən qızları belə şeylərdən qorumuşam. Doğrudur, onlardan bəziləri nadan çıxırdı, toya getməyə, var-dövlətə görə ansamblı atırdı. Çünki mən onları toya buraxmırdım. Amma hanı onlar? Kim ki, axıracan aylıq maaşa və ya qastrollarda aldığımız qonorara dözdü, bu gün adlı-sanlı müğənniyə, musiqiçiyə çevrildi. Özüm 16 il kirayələrdə yaşamışam, əvəzində qazandığımı ansambla xərcləmişəm. Zarafat deyil, bu qədər qızın geyimi, bəzək-düzəyi, xərcliyi mənə baxırdı. Amma öhdəsindən sevə-sevə gəlirdim”

Onun ilk tar müəllimi atası Əsəd Cəfərov olub. Hüseynqulu Sarabskidən dərs almış Əsəd kişi bir çox rayon teatrlarında aktyor, rejissor kimi fəaliyyət göstərib, tarda və qarmonda gözəl ifalar edərmiş. Ömür gün yoldaşı Zübeydəni (Ceyran xanımın anası) gözəl səsi olduğuna görə özünə tərəf-müqabili seçmişdi, o da teatrlarda aktrisa kimi çalışmışdı.

Ceyran xanımın həyat yoldaşı mərhum Mirhaşım Haşımov da musiqiçi idi. Birlikdə Asəf Zeynallı adına Musiqi Kollecində işləyiblər, Mirhaşım müəllim skripkadan dərs deyib. “Lalə” yarananda iş-gücünü atıb, ömür-gün dostuna dəstək olub. Ceyran xanıma aid olan bir ilk də budur ki, o, 2006-cı ildə Xalq artisti fəxri adına layiq görülüb, oğlu – “Rast” qrupunun bədii rəhbəri, bəstəkar və aranjımançı Rəşad Haşımov da həmin gün “Əməkdar artıst” adı ilə təltif olunub. Musiqiçilər arasında ana-balanın eyni gündə fəxri ad alması görünməmiş hadisədir.

Onu da xatırlayırıq ki, Prezidentin fərdi təqaüdçüsü olan Ceyran Haşımovanın əvvəlki yubileylərindən biri elə “Lalə” qızlar ansambılının ifasında Ü.Hacıbəylinin “Koroğlu” operasının uvertürası ilə başlanmışdı. Bəlkə də, bu, yubilyarın kişi qeyrətli bir qadın olduğuna işarə idi. Hamı onu sidq-ürəklə təbrik etdi, musiqi ərməğanları isə mərasimə ayrıca rəng qatdı.

Hazırda Ceyran xanım evində tək yaşasa da, oğlu Rəşadın, gəlini və nəvələrinin onu darıxmağa qoymadıqlarını bildirdi. İlk qız nəvəsinin də adını Lalə qoyub. İndi Lalənin də övladı var və Ceyran xanım nəticə fərəhini də yaşayıb.

***Əli NƏCƏFXANLI***
***XQ***

# Ukrayna–Rusiya savaşı: sülhə yol tapılacaqmı?

## Bunun alternativi sonsuz və üzücü müharibədir

***(əvvəli qəzetin 8 mart 2024-cü il tarixli sayında)***

Rəsmi Kiyevin niyə NATO-da müdafiə axtardığını başa düşmək çətin deyil. Onlar NATO üzvlüyünə, Rusiyanın istənilən təcavüzünə qarşı, bir növ sehrli qalxan və toxunulmazlığı təmin edən göz muncuğu kimi baxırlar. Baltikyanı ölkələr də eyni məntiqlə NATO-ya üzv olublar. Düşünürlər ki, geniş təhlükəsizlik zəmanətləri onları Rusiyanın təhdidlərindən qoruyacaq.

Doğrudur, NATO-ya üzvlük çox təhlükələrdən qoruyur, ancaq o bütün xəstəliklərin dərmanı deyil. "Foreign Policy" nəşrinin icmalçısı yazır: "Son zamanlar Rusiyanın yaxın bir neçə ildə NATO-ya meydan oxuya biləcəyi ilə bağlı həyəcanlı xəbərdarlıqlar getdikcə daha çox eşidilir. Əgər siz, həqiqətən, hesab edirsinizsə ki, Putin Ukrayna kampaniyasına son qoyacaq, əldən düşmüş qoşunlarını gücləndirmək üçün qısa fasilə verəcək, sonra isə yeni gücləndirilmiş qüvvələrlə Finlandiya, Estoniya və ya başqa bir NATO ölkəsinə hücum edəcək, deməli, siz özünüz də bu sehrli qalxanın gücünə inanmırsınız".

"IL Fatto Quotidiano" nəşrinin yazdıqlarına diqqət edin: "Ukrayna ordusu param-parça edilib. Onun pulu, silahı, sursatı, əsgəri, hava hücumundan müdafiə sistemi yoxdur. İtaliyanın müdafiə naziri Qvido Korsetto indi nə etməlidir? Axı o da planetin ən zəif ordusunun köməyi ilə dünyanın ən güclü ordusunu məğlub etmək məqsədi daşıyan gülünc strategiya nəticəsində yaranmış fəlakətli vəziyyətə görə məsuliyyət daşıyır".

İtaliya nəşri rəngləri bir qədər də tündləşdirərək yazır ki, Krosetto hərbi qarşıdurmanı qızışdırmağa davam etməklə, Rusiya artilleriyasının atəşi altına düşmək riski ilə üzləşən italyan əsgərlərini təhlükə qarşısında qoyur. "2022-ci ildə Ukraynanın bu münaqişədə uduzacağı proqnozlaşdırılırdı, 2024-cü ildə isə Rusiyanın Odessanı alacağını güman etməyə əsas var. Corcia Meloni (Baş nazir–red.) hökuməti münaqişəni dondurmağa çalışmalıdır, çünki zaman Moskvanın tərəfindədir. Əgər ruslar Odessaya gəlsələr, əksər italyanlar Avropa İttifaqını lənətləyəcək, çünki o, Ukraynanın Rusiyanı Avropa ordularından ayıran bufer dövlətə çevrilməsinə razılaşmadı".

Əslində, Qərb Ukraynanı Rusiya ilə alyans arasında güclü müdafiə səddi kimi görürdü. Elə bu ölkəni silahlandırmaq və müharibəyə hazırlamaqda da əsas məramlardan biri Ukrayndan müdafiə qalxanı kimi istifadə etmək idi. Ona görə də hələ müharibə başlamamışdan Ukraynanı sürətlə silahlandırılmağa başlamışdılar. ABŞ, Almaniya, İngiltərə kimi ölkələrdə Ukrayna hərbiçilərinin hazırlığı geniş miqyas almışdı. Müharibə başlayandan sonra isə hərbi yardımlar inanılmaz miqyasda artdı və hətta Ukraynaya ən müasir silahlar verilməyə başlanıldı.

Kiel Dünya İqtisadiyyatı İnstitutunun məlumatına görə, Rusiya Ukraynada xüsusi hərbi əməliyyata başlayandan bəri Aİ institutlarından Kiyevə 77 milyard avrodan çox maliyyə yardımı göstərilib, o cümlədən Almaniya 17 milyard avro, Böyük Britaniya - 9 milyard, Danimarka - 8,4 milyard, Hollandiya - 4,4 milyard avro vəsait yönəldib. Bu il fevralın 1-də isə Aİ liderləri Brüssel sammitində Kiyevə 2027-ci ilin sonuna qədər 50 milyard avro dəyərində hərbi dəstək paketini təsdiqləyibləR. Artıq Aİ təcili olaraq bu ilin sonuna qədər bu yardımın 21 milyardını Kiyevə çatdırmaq haqqında qərar verib.

ABŞ-a gəlincə, eks-prezident Donald Trampın sözlərinə görə, Birləşmiş Ştatlar son iki ildə Kiyevə 200 milyard dollardan çox vəsait ayırıb. Bununla belə Konqres Kiyevə 61 milyard dollar məbləğində əlavə maliyyə yardımını indiyədək əngəlləyir. Üst-üstə təkcə Ukraynaya 300 milyard avro məbləğində silah-sursata verilib. Nəticədə Ukrayna və onu bu oda atan Qərb istədiyinə nail olubmu? Əlbəttə, yox.

Bu il fevralın 26-da Parisdə keçirilən NATO və Aİ ölkələri nümayəndələrinin görüşündə alyansın baş katibi Yens Stoltenberq bildirib ki, NATO ölkələrinin "silah və sursat ehtiyatları ilə bağlı açıq problemləri var, çünki Avropanın silah anbarları demək olar ki, tamamilə boşdur". Təsadüfi deyil ki, Almaniya Müdafiə Nazirliyinin Ukrayna məsələləri üzrə xüsusi qərargahının rəhbəri, general Kristian Freydinq Almaniyanın "Der Spiegel" jurnalına müsahibəsində Berlinin bütün dünyada Kiyev üçün silah-sursat axtardığını açıqlayıb. Yeri gəlmişkən, Qərb xəbər agentlikləri Almaniyanın Ukrayna üçün mərmilərin alınması ilə bağlı Hindistanla gizli danışıqlar apardığını da gizlətmir.

Cəbhədəki vəziyyətin, ilk növbədə, Ukrayna, sonra isə Qərb üçün yaxşı bir perspektiv vəd etmədiyi aydın olandan sonra Münxendə aparıcı Qərb ölkələrinin kəşfiyyat xidmətlərinin rəhbərləri gizli toplantı keçiriblər. NATO hərbi ekspertləri orada bəyan ediblər ki, silah və sursat təchizatı olmadan Kiyev Rusiyaya müqavimət göstərə bilməyəcək, çünki Ukraynanın ehtiyatları bu ilin iyun ayına kimi tükənəcək.

Gözləmək olardı ki, Qərb münaqişənin onun xeyrinə bitməyəcəyini başa düşəndən sonra sülh danışıqlarına başlamaq haqqında müzakirələr aparmağa cəhdlər edəcək. Amma yox, müharibə "davam etməlidir". Məsələn, Fransa prezidenti Makronun Ukraynaya hərbi kontingent göndərmək təklifi NATO-da və Avropada süngü ilə qarşılandıqdan sonra belə, o, iddiasından əl çəkmir. Məlum bəyanatdan bir həftə sonra Makron Yelisey sarayında Çexiyanın baş naziri Petr Fiala ilə görüşündə bəyan edib ki, "Avropa məğlubiyyət hissinə qapılmamalı, Ukraynaya kömək üçün yeni yanaşmalar axtarmalıdır".

Fransa prezidenti vurğulayıb ki, Avropa ölkələri öz güclərini və qətiyyətlərini nümayiş etdirməlidirlər. Bu isə yenə müharibəyə davam çağırışıdır. Ukrayna isə müharibənin davam etdiyi hər gün itirə-itirə daha da geri gedir və böyük itkilər verir. Belə davam edərsə, onun gələcəyi çox böyük sual altına düşür. Amma təkcə onunmu? Əlbəttə, yox.

Alman politoloqu Aleksandr Rarın fikrincə, Qərb liderləri Parisdə ciddi dilemma ilə üzləşiblər: ya Kiyevi getdikcə daha çox silahla təmin etməyə davam edir, bu isə döyüş meydanında vəziyyəti dəyişmir, ya da Ukraynaya öz silahlı qüvvələrini göndərirlər. Bunu fevralın 26-da Slovakiyanın baş naziri Robert Fitso da respublika hökumətinin və Təhlükəsizlik Şurasının iclasından sonra açıq bildirib: "Mənim üçün Paris görüşü Qərbin Ukraynadakı strategiyasının iflasa uğradığının təsdiqidir, bu gün danışdıqlarımıza konstruktiv şəkildə hazır olmaq istəyirəm, lakin bu söhbətləri eşidəndə tüklərim ürpəşir".

Buradan tam aydın olur ki, Yelisey sarayında alyans və Aİ-yə üzv ölkələrin hərbçilərinin Ukraynaya göndərilməsi variantının hazırlanması haqqında danışıqlar bitməyib. Fitso çıxışında vurğulayıb ki, "əgər yaxın gələcəkdə NATO və Aİ ölkələri tərəfindən belə bir qərar qəbul edilərsə, bu, birincisi, bundan sonra Rusiyaya heç bir güzəştə getməyə imkan verməyəcək, ikincisi, münaqişənin daha da böyüməsinə gətirib çıxaracaq". Baş nazir onu da əlavə edib ki, bəzi Aİ və NATO ölkələri ordularının Ukraynaya hansı məqsədlə gedəcəyinin bütün təfərrüatlarını açıqlaya bilməz, lakin bunun bütün Avropanın təhlükəsizliyinə təhdidlər yaradacağına şübhə yoxdur.

Makron isə bildirib ki, "biz rəsmi şəkildə quru qoşunlarının göndərilməsi ilə bağlı konsensusa gəlməmişik, lakin vəziyyət inkişaf etdikcə heç nəyi istisna edə bilmərik. Biz Rusiyanın bu müharibədə qalib gəlməsinin qarşısını almaq, yəni bu məqsədə çatmaq üçün mümkün olan hər şeyi edəcəyik".

Bu açıqlamadan belə nəticəyə gəlmək olur ki, Qərb ölkələri həqiqətən böyük müharibəyə hazırlaşırlar və bunu hələ ki, açıq bəyan etmirlər. Böyük müharibə nə ola bilər, bunu təsəvvür etmək o qədər də çətin deyil: Üçüncü Dünya müharibəsi. Əslində, hazırda NATO-ya üzv ölkələr, xüsusilə ABŞ, Almaniya və Polşanın hərbçilərinin Kiyevin tərəfində döyüşmələri haqqında kifayət qədər sənəd-sübut var. NATO və Aİ-na üzv ölkələrin silahlı qüvvələrinin Ukraynaya göndərilməsi ilə bağlı rəsmi qərar isə o demək olacaq ki, kollektiv Qərb de-yure Ukraynadakı münaqişənin tərəfinə çevriləcək. O zaman alyans ölkələrinin hərbi qüvvələrinin Ukraynaya göndərilməsi ümumavropa və beynəlxalq təhlükəsizlik risklərini ön plana çıxaracaq və əslində Üçüncü Dünya müharibəsinin başlanması üçün presedent yaradacaq. Belə olan halda təkcə Ukrayna ərazisində deyil, harada olur-olsun xarici silahlı qüvvələr, onların yerləşdiyi ərazilər, hərbi anbarlar, nəqliyyat dəhlizləri, logistika mərkəzləri və hərbi bazalar Rusiya silahlı qüvvələrinin hədəfinə çevriləcək.




Araşdırmalardan məlum olur ki, Makron təhlükəli ideyanın yeganə müəllifi deyil. ABŞ rəsmiləri də bir çox hallarda müharibənin uzanmasında maraqlı olduqlarını inkar etmirlər. Vaşinqtonun Strateji və Beynəlxalq Təhqiqatlar Mərkəzininin ("CSİS") analitikləri bəyan edirlər ki, ABŞ Ukrayna ilə müharibəni və Moskvanın Pekinlə əməkdaşlığını nəzərə almaqla Rusiyanı cilovlamaq üçün yeni strategiya işləyib hazırlamalıdır. "CSİS" hesab edir ki, Ukraynanın müdafiəsi Avropa təhlükəsizliyinin təmin edilməsində əsas komponentdir. Analitiklərin fikrincə, "Ukraynada Moskvanın dayandırılması təmas xəttinin Rusiya sərhədinə mümkün qədər yaxın qalması ilə ifadə edilməlidir. Bu, RF-də ekspansionist əhval-ruhiyyəni azaldacaq və iki nüvə dövləti arasında birbaşa münaqişənin qarşısını alacaq. Avropa Rusiyanı cilovlamaq üçün hərbi gücünü artırmalıdır". Yəni müharibəni dayandırmaqdan, sülh danışıqlarına başlamaqdan deyil, yenə Ukraynanı faciələrə sürükləyən müharibəni davam etdirməkdən söhbət gedir.

Amma analitiklər bununla da kifayətlənməyib, Rusiyanın qonşularına, xüsusilə NATO-ya daxil olmayan ölkələrə – Gürcüstana, Ermənistana və Moldovaya da diqqət yetirməyi təklif edilər. Ekspertlər deyirlər ki, Vaşinqton bu dövlətlərin Rusiyanın "boz zona"sının təhlükələrinə, yəni kiberhücumlardan tutmuş seçkilərə müdaxiləyə qədər, dayanıqlılığını gücləndirməyə kömək etməlidir. Onlarla kəşfiyyat məlumatlarını paylaşmalı və kritik infrastruktura sərmayə qoymalıdır. Bu proseslər artıq Rusiyanın 102-ci ordusunun yerləşdiyi Ermənistanda tam sürətilə getməkdədir. Ermənistanın hazırkı siyasi elitası bütün imkanları ilə Qərbin bu planını gerçəkləşdirməyə başlayıb və Fransa tərəfindən sürətlə silahlandırılır. Lakin Rusiya bu proseslərə sakit qalacaqmı? Çətin. Moskva yaxşı başa düşür ki, Qərb onu daha bir cinahdan müharibəyə çəkməyə çalışır və buna göz yummaq fikrində deyil. Artıq Ermənistan rəhbərliyinə ən müxtəlif səviyyələrdə xəbərdarlıqlar səslənməkdədir.

Dağıdıcı müharibə çoxlu sayda əsgər və mülki vətəndaşın canını alır, hərbi və maliyyə resurslarını məhv edir. 2023-cü ilin avqustunda ABŞ rəsmiləri 2022-ci ilin fevralından bəri Ukrayna münaqişəsində təxminən 500 min Ukrayna və Rusiya hərbçisinin öldürüldüyünü və ya yaralandığını təxmin edirdilər. İndi bu rəqəm yəqin ki, 700 mini keçmiş olar. Amma faciə təkcə bunda deyil. Bu müharibə həm də, əvvəldə qeyd etdiyimiz kimi, heç kimə fayda vermədən beynəlxalq təhlükəsizliyi zərbə altına qoyur.

Əlbəttə, tərəflərin bu gün danışıqlar stolu arxasında oturması asan deyil. Lakin bunun alternativi, tərəflərin etiraf etdikləri kimi, heç kimin istəmədiyi sonsuz və üzücü münaqişədir. Unutmaq olmaz ki, döyüşlərdə kimin üstün olmasından asılı olmayaraq, hər iki tərəf uduzur. Elə bunu diqqətə alaraq düşünürəm, sülhə yolu, ilk növbədə, məhz münaqişə tərəfləri tapmalıdır.

***İlqar RÜSTƏMOV***
***XQ***

# Dünya yeni siyasi düzənə möhtacdır

**Çağdaş dünyada şərti olaraq "Kollektiv Qərb" ilə "Kollektiv Cənub" adlanan dövlətlər qrupi arasında siyasi, hərbi, texnoloji sahələrində açıq və gizli mübarizə güclənib. "Qərb" bürqütblü nizamı, "Cənub" isə çoxqütblü dünya nizamı qurmaq niyyətindədir.**

ABŞ başda olmaqla NATO-ya üzv ölkələr "Qərb"i, BRİKS (Braziliya, Rusiya, Hindistan, Cənubi Afrika Respublikası) və onları dəstəkləyən ölkələr "Cənub"u təmsil edir. Çin hələlik özünü ayrıca siyasi materik kimi təsəvvür edir. Planetin əksər dövlətləri mövcud dünya nizamından narazıdır və yeni qaydaların bərqərar olunmasını arzu edir.



Hazırda TŞ-də təmsil olunan 5 dövlət – ABŞ, Rusiya, Çin, Böyük Britaniya və Fransa dünyanın siyasi-iqtisadi quruluşunu ya dəyişmək istəmir, ya da əvvəlki imtiyazlarını əllərində saxlamaq istəyir. Hələlik siyasi "kozır" – veto hüququ onların əlindədir.

Lakin siyasətdə əbədi qanunlar olmur. Zaman çox şeyi dəyişir və yeni qaydalar peyda olur. Artıq qlobal iqtisadi-siyasi sistemin idarəetmə mexanizmindən narazı qalan dövlətlərin sıraları sıxlaşır. TŞ-nin 5 daimi üzvü gec-tez bu reallıqlarla hesablaşmalı olacaq.

Bakı Dövlət Universitetinin professoru, tarix elmləri doktoru Atamoğlan Məmmədli hesab edir ki, yeni dünya nizamı ilə bağlı yaranan fikir ayrılığı, ilk növbədə, ümumbəşəri dəyərlərə və əxlaqi normalara ədalətsiz, qeyri-bərabər və laqeyd münasibətlərdən qaynaqlanır. Hələ XII əsrdə dahi şair, mütəfəkkir Nizami Gəncəvi deyirdi ki, zülmlə dünyanı abad etmək olmaz!

Son 15 ildə TŞ üzvü olan "5-lər"in təkəbbürlü və üstün mövqe idarəçiliyi onların rəhbərliyində təmsil olunduğu beynəlxalq təşkilatların nüfuzunu əhəmiyyətli dərəcədə aşağı salıb və qlobal iqtisadi-siyasi sistemə inamı sarsıdıb.

Qlobal mediann kəskin istehza iki qara "qu quşu" adlandırdığı, COVID-19 pandemiyası və Rusiya–Ukrayna müharibəsi, üstəlik, aylardır davam edən Qəzza münaqişəsi Yer kürəsində milyardlarla insanı "5-lər"in utancverici eqoizmi qarşısında qəbuledilməz şərtlərə dözməyə vadar edir. Təbii ki, kor-koranə itaətin bir gün sonu çatacaq.

İstər ərzaq təminatı və enerji təchizatı təhlükəsizliyi sahəsində, istərsə də pandemiya ilə mübarizədə buraxılan kobud səhvlər qlobal idarəçiliyin səmərəliliyini şübhə altına alıb. Görünən budur ki, imperialist maraqlar bəşəri dəyərləri ayaqlar altına atmağı özünə rəva bilir.

Sülh, təhlükəsizlik, inkişaf, firavanlıq, insan haqları, ətraf mühit, sağlamlıq, miqrasiya və terrorizm, bütün bu və digər aktual məsələlər qlobal idarəetmə sisteminin struktur və normativ problemləri səbəbindən sanki unudulub. Planetimizin bir çox yerində ya kəskin silahlı qarşıdurmalar baş verir, ya da yeni münaqişə ocaqlarının körüklənməsi prosesi gedir.

"Soyuq müharibə" dövrünün "uğuru" kimi təqdim edilən BMT və onun qurumları artıq köhnəlmiş bir sistemdir və bu ən böyük təşkilatda struktur islahatlarının aparılması kəskin zərurətə çevrilib. Bunu həmin "5-lər"dən başqa, bütün dünya deyir, lakin yolun üstündəki daşı qaldırıb kənara atmaq hələlik mümkün olmur.

Türkiyə Prezideni Rəcəb Tayyib Ərdoğanın 2013-cü ildə BMT Baş Assambleyasında ilk dəfə səsləndirdiyi və qlobal siyasətdə haqqın və ədalətin müjdəsi kimi qəbul edilən "Dünya beşdən böyükdür" çağırışı qlobal idarəetmə sistemində əhəmiyyətini itirmiş, nimdaş qayda və prinsipləri rədd edir. Onları tarixin arxivinə göndərməyin vaxtı çoxdan çatıb.

Rəsmi Ankara dəfələrlə vurğulayıb ki, nə qədər ki, Yer kürəsində olan ölkələr dünyanın iqtisadi-siyasi sistemində qərar qəbuletmə mexanizmində layiq olduqları haqlı mövqeyə çatmayıb, bir o qədər qlobal sistemə inamsızlıq aradan qalxmayacaq. Bəşəriyyət, həqiqətən, ədalətli qanunlarla idarə olunmağa möhtacdır.

Prezident R.T.Ərdoğan "Daha adil bir dünya mümkün" adlı kitabında qeyd edib ki, üzv ölkələr üçün daha ədalətli və hesabatlı nümayəndəlik strukturunun yaradılması bu gün hava-su kimi vacibdir. "Əzilənlərin", "haqqı əllərindən alınanlar"ın "hürr və gur səsi" sayılan R.T.Ərdoğan və onun komandası ədalətli dünya naminə gərgin diplomatik səylər ortaya qoyur.

Maraqlıdır ki, "soyuq müharibə" dövrünün qlobal idarəetmə sisteminə qarşı artan narazılıq hazırda qlobal siyasi trendə çevrilib. Bu, müsbət tendensiyadır, çünki böyük böhranları yalnız birgə səylər vasitəsilə həll etmək mümkündür.

Bu yerdə bütün zamanların böyük ixtiraçısı Tomas Edisonun sözləri yada düşür: "Narazılıq tərəqqinin birinci zərurətidir". Bəli, dünya birliyi yeni siyasi konstruksiya tapıb qurmalıdır. Bunu Ukraynada, Qəzzada və digər münaqişə ocaqlarında qətlə yetirilən çox sayda dinc, günahsız insanların ağır taleyi tələb edir.

***Məsaim ABDULLAYEV***
***XQ***

**Ekspert rəyi**



**Şahbaz ŞAMIOĞLU,**
**Bakı Slavyan Universitetinin professoru**

**–Dünyanın yeni düzənə ehtiyacı var və planetimizdə baş verən siyasi və hərbi kataklizmlər də məhz xaos və özbaşına, əsassız və yersiz hegemonluq iddialarından qaynaqlanır. Nəticədə on minlərlə insan müharibələrin və onların doğurduğu ağır fəsadların qurbanına çevrilir.**

**Ən qəribə və acınacaqlısı budur ki, dünən dünyada siyasi oyun qaydalarını yazanlar, bu gün onları nümayişkaranə surətdə pozurlar. Bu zaman onlara "gözün üstə qaşın var" deyən tapılmır, yaxud da səslənən haqlı etirazlara məhəl qoyulmur.**

**Etiraf etmək lazımdır ki, dünya heç vaxt ədalətli olmayıb. Həmişə gücə və zora tabe olub. İkinci Dünya müharibəsindən sonra planetimizdə sivil və demokratik dəyərlərin bərqərar olunacağına ümidlər yaranmışdı. İndi bunların yalnız xəyallar olduğu məlum olub.**

**Kütləvi qırğın silahları bəşəriyyət üçün böyük təhlükədir. Ani bir ağılsızlıq Yer kürəsini məhvərindən çıxara bilər. Təəssüf ki, bəzi super güclərin liderləri bunun fərqində deyillər.**

**Üstəlik, müasir texnologiyaların "övladı" olan süni intellekt nəzarətdən çıxarsa, bu, böyük bir fəlakətə yol aça bilər. Dünya şöhrətli alim Lütfi Zadənin davamçısı, professor Rafiq Əliyev dəfələrlə bu məsələ ilə bağlı narahatlığını dilə gətirib.**

**Zaman hər birimizi, bütün dünyanı ayıq-sayıq olmağa çağırır. Planetimiz optimal və ədalətli qanunlarla idarə olunmalıdır. Sadəcə, başqa çıxış yolu yoxdur. Türkiyə dövlətinin dünyanın idarə olunması ilə bağlı təşəbbüsləri gözardı edilməməlidir. Sonra gec ola bilər!**

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 54 (30458) 10 mart 2024-cü il, bazar

# Bu il mübarək Ramazan ayını böyük qürur hissi ilə qarşılayırıq

## Martın 11-də 11 ayın sultanı yurdumuza qədəm qoyur



**Dünya müsəlmanlarının müqəddəs ayı Ramazanın gəlişi bu il xalqımız üçün xüsusilə əlamətdardır. Qurani-Kərimin ilk ayələrinin nazil olduğu bu mübarək ay özünün ali xilqətində Allaha təmənnasız ibadət, sosial ədalət və bərabərlik, bütün umu-küsülərin unudulması, imkansızlara əl tutulması kimi inanca və bəşəri dəyərlərə söykənir.**

İslamın beş əsas prinsipindən biri sayılan oruc bəndəni təkəbbür və şöhrətpərəstlikdən uzaqlaşdıran, birliyi, qardaşlığı təbliğ edən, onu iman və təqvaya yaxınlaşdıran ibadətdir.

Peyğəmbərimiz hədislərin birində deyir: "Oruc ibadəti insanın haramdan qorunması üçün bir imtahandır, Allahın yaratdığına bəxş etdiyi iradəni gücləndirən, səbri və dəyanəti bütünləşdirən, arzu, ehtiras və nəfsin önünə qalxan kimi sədd çəkən vasitədir".

Biz 2024-cü ildə Ramazanı əvvəlki illərdən daha böyük qürur hissi ilə qarşılayırıq. Bu, Vətən müharibəsində qazandığımız şanlı Zəfərin sevinci, separatçı rejimin süqutundan, üçrəngli bayrağımızın otuz ildən bəri işğal altında olan torpaqlarımızda dalğalanmasından, kafir qonşularımız tərəfindən dağıdılmış və təhqir edilmiş məscidlərimizin bərpasından sonra oradan ucalan azan səsindən yaşadığımız hissdir. Bu Ramazan ayında məhz həmin qürurdan yoğrulmuş Qələbə sevincimizi xeyir-dualarla yad edəcəyik.

Ramazanda oruc tutub, namaz qılmaq, Quran oxumaq, iftar süfrələri açmaq, kimsəsizlərə, ahıl və qocalara əl tutmaq İlahi məqamda bəyənilən savab əməllərdəndir.

Sabah Azərbaycanda Ramazan ayı başlanır. Martın 28-i və 30-u, aprelin 1-i və 5-i Qədr gecələri, 10-11-i isə Ramazan bayramıdır.

Allah dualarımızı, nəzir-niyazımızı qəbul eləsin.

**XQ**

İdman

## Gimnastımız Polşada qızıl medal qazanıb

**Azərbaycan gimnastı Fərhad Vəliyev beynəlxalq turnirdə uğurla çıxış edib.**




Təmsilçimiz Polşanın Krakov şəhərində keçirilən batut gimnastikası və tamblinq üzrə XI Vavel yarışında bütün rəqiblərini qabaqlayaraq qızıl medal qazanıb. O, bu nailiyyəti ikili mini batut üzrə yarışda əldə edib.

## "Şahdağ"da beynəlxalq xizək alpinizmi yarışı

**Beynəlxalq Xizək Alpinizm Federasiyası (ISMF), Qış idman Növləri Federasiyası və "Şahdağ" Turizm Mərkəzinin birgə təşkilatçılığı ilə "Şahdağ"da beynəlxalq xizək alpinizmi yarışına start verilib.**




İlk gündə idmançılar sprint yürüşü üzrə güclərini sınayıblar. Yarış martın 10-da vertikal növ üzrə davam edəcək. Turnirin keçirilməsində əsas məqsəd ölkədə qış idman növlərini təşviq etmək, insanlar arasında xizək idman növlərinə marağı artırmaq, həmçinin mərkəzin beynəlxalq yarışların təşkili istiqamətində təcrübəsini genişləndirməkdir.

Açılışda Gənclər və İdman Nazirliyinin, Milli Olimpiya Komitəsinin və Qış İdman Növləri Federasiyasının rəsmiləri iştirak ediblər.

Birincilik uğrunda iki gün ərzində 11 ölkənin 60-dək idmançısı mübarizə aparacaq.

## Lisenziya turnirində 2-ci qələbə

**Azərbaycan boksçusu Ümid Rüstəmov İtaliyanın Busto Arsizio şəhərində keçirilən I Dünya Olimpiya Təsnifat Turnirində ikinci qələbəsini qazanıb.**




57 kiloqram çəkidə mübarizə aparan yığma üzvü 1/16 finalda Bakari Hassanı (Keniya) məğlub edib. Hər 3 raundu xeyrinə bitirən Ü.Rüstəmov yekunda 5:0 hesabı ilə qalib gəlib. O, növbəti görüşünə martın 10-da çıxacaq. Boksçumuz 1/8 finalda tacikistanlı Asror Vohidovla üz-üzə gələcək.

***Leyla SABİRQIZI***
**XQ**

## Milli qəhrəman haqqında kinosalnamə



**Şənbə günü Nizami Kino Mərkəzində tanınmış publisist, Əməkdar jurnalist Rəfiqə Məsudun ssenarisi ilə Milli qəhrəman, şəhid polis kapitanı Əli Məmmədov haqqında çəkilmiş sənədli filmə ictimai baxış keçirildi.**



Filmin nümayişindən əvvəl bildirildi ki, əsərin qəhrəmanı 1955-ci ildə Naxçıvan şəhərində anadan olmuş Əli Məmmədov Bakıdakı 255 saylı orta məktəbi bitirib. Orduda xidmətdən sonra Polis Akademiyasında ixtisas təhsili alıb. I Qarabağ müharibəsi başlayanda könüllü olaraq cəbhəyə gedib, erməni işğalçılarının hücumlarının qarşısının alınmasında hünər və döyüş məharəti göstərib. 1992-ci ilin payızında Laçın ətrafında döyüşlərdə yaralı yoldaşlarını xilas edərkən başından yaralanaraq əbədiyyətə qovuşub. Bakıda Şəhidlər xiyabanında dəfn olunub. Ölümündən sonra Milli qəhrəman adına layiq görülüb.

Milli qəhrəmanlar haqqında 20 sənədli filmin müəllifi Rəfiqə Məsudun ssenarisi əsasında çəkilmiş ekran əsərində igid polis zabitinin şərəfli bioqrafiyası, döyüş yolu, göstərdiyi qeyrət və hünər geniş əksini tapıb. Filmdə I Qarabağ müharibəsinin qanlı-qadalı döyüşlərindən bəhs edən xronika, qəhrəmanın doğmalarının və döyüş yoldaşlarının xatirələri bir-birini tamamlayaraq şəhid polis kapitanının ömür yoluna gur işıq salır.

Fimin nümayişindən sonra qəhrəmanın bacısı, AMEA-nın müxbir üzvü Məsumə Məmmədova, həyat yoldaşı Rəna Məmmədova sənədli ekran əsərinin yaradıcılarına ailələri adından təşəkkürlərini bildirdilər. Əli Məmmədovun döyüş yoldaşı, ehtiyatda olan polis mayoru Knyaz Vəliyev qəhrəman barədə xatirələrini söyləyərək qeyd etdi ki, bu film də yeni nəslin vətənpərvərlik tərbiyəsində təsirli əsərlərin sırasında yer alacaq.

Əməkdar jurnalist Tahir Aydınoğlu Milli qəhrəmanlar haqqında kinoepopeya yaratmış Rəfiqə Məsudun fədakar yaradıcılığının ekran publisistikasında xüsusi bir dəyərə çevrildiyini qeyd etdi. O bildirdi ki, Xalq şairi Nəbi Xəzri jurnalist-kinematoqrafın bu yüksək vətənpərvərliyini belə ifadə edib: "Sənə minnətdaram sənət adından, bir də ki, bir də ki, millət adından".

Sonda çıxış edən Rəfiqə Məsud onunla birgə çalışmış yaradıcı heyətin – filmin yüksək səviyyədə ərsəyə gəlməsi üçün əlverişli şərait yaratmış baş prodüsser Nazim Hüseynovun göstərdiyi köməyi və rejissor Taleh İsmayılın, operator Rüfət Süleymanovun və montajçı Sabir Əsgərzadənin Milli qəhrəmanın bitkin ekran obrazına nail olmaq üçün necə məharətlə çalışdıqlarını razılıqla vurğuladı. O, qəhrəmanlar haqqında silsiləni davam etdirməyin vacibliyini və bu sahədə fəaliyyətini məmnunluqla davam etdirəcəyini söylədi.

**T.RÜSTƏMLİ,**
**E. AĞALAROV (foto)**
**XQ**

## Böyük Sfinksin sirri açılır

**Həndəsə və Fizika üzrə Hiperkompleks Sistemlər İnstitutunun direktoru Dmitri Pavlov News.ru-ya bildirib ki, Misirdəki Böyük Sfinksin güman edildiyindən xeyli əvvəl tikildiyini göstərən bir neçə amil var. Onun sözlərinə görə, bu məlumatlar heykəlin fironlar tərəfindən deyil, yüksək inkişaf etmiş sivilizasiyanın nümayəndələri tərəfindən tikildiyini göstərir.**



"Misirlilərin Sfinksi necə adlandırdıqları, onun nəyi simvolizə etdiyi və hətta nə vaxt tikildiyi hələ də məlum deyil. Rəsmi məlumatlara görə, o, təxminən 4,5 min il əvvəl Giza yaylasının qalan piramidaları ilə birlikdə inşa edilib. Ancaq bunun əksini göstərən bir neçə amil var. Geoloqların fikrincə, Sfinksin ətrafındakı divarların aşınması onun yağışlı mövsümdə tikildiyini deməyə əsas verir. Bu, təxminən altı-səkkiz min il əvvəl baş verib. Ona görə də, Sfinksi və piramidaları fironlar deyil, daha inkişaf etmiş sivilizasiyanın nümayəndələri tikiblər", – deyə Pavlov bildirib.

***S.ELAY***
***XQ***

***✓ 2023-cü ildə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi tərəfindən gizir Məmmədov Vüqar Arif oğlunun adına verilmiş A seriyalı, 1026706 nömrəli xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.***

Hava

## Düzən bölgələrdə yağış, dağlarda qar yağacaq



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən martın 10-da Bakıda və Abşeron yarımadasında havanın arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə arabir intensivləşəcəyi ehtimalı var. Mülayim şimal-qərb küləyi əsəcək. Gecə 3-5°, gündüz 6-8° isti olacaq.**

Atmosfer təzyiqi 763 mm civə sütunundan 766 mm civə sütununa yüksələcək, nisbi rütubət 80-90 faiz olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağıntılı olacağı, dağlıq rayonlarda qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Gecə və səhər arabir duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 2-6°, gündüz 7-12° isti, dağlarda gecə 2-5°, yüksək dağlıq ərazilərdə 10°-dək şaxta, gündüz 2° şaxtadan 3°-dək isti olacaq. Gecə və səhər bəzi dağlıq ərazilərdə yolların buz bağlayacağı ehtimalı var.

***Q. QASIMOV***
***XQ***

Sağlamlıq

## Cavanlıq pəhrizi

**Balanslı və sağlam qidalanmanın hüceyrə zədələnməsinin qarşısını aldığı sirr deyil. Dietoloqlar bəzi qidaların qocalmanın sürətini azaltdığını bildirirlər.**



Ümumiyyətlə, mütəxəssislər tövsiyə edirlər ki, qida qəbulunda çərəzlərə (qoz, badam, fındıq, araxis, ərik çəyirdəyi, balqabaq tumu və s.), meyvə-tərəvəzə daha çox üstünlük verilməlidir. Dietoloqların məsləhət bildikləri həmin qidaları gündəlik rasiona daxil etməklə, həm sağlam, həm də gənc qalmaq olar.

Onlar qocalma əleyhinə daha çox təsir edən 13 qidanı açıqlayıblar. Bunlar– su, qoz, avokado, yaşıl çay, alma, üzüm, soğan və sarımsaq, pomidor, yaşıl yarpaqlı tərəvəzlər (ispanaq, brokkoli, kahı və s.), qabıqsız meyvələr (albalı, çiyələk, zoğal, qaragilə, moruq, böyürtkən və s.), tünd şokolad, balıq, və qatıqdır.

Araşdırmalarla sübut edilib ki, qırmızı əti, karbohidratı çox qəbul edən insanlarda qocalma prosesi meyvə-tərəvəzi çox yeyənlərə nisbətən 10 il tez başlayıb.

***Z.HÜSEYNLİ***
***XQ***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3915
SİFARİŞ 525
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU

Çapa imzalanmışdır
00:00